**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

# Azərbaycan Texnologiya Universiteti

# İNNOVASİYALI İQTİSADİYYAT
# VƏ
# MENECMENT

№2 2022

**Baş redaktor:**

Süleymanov Akif Şamil oğlu t.e.d., professor

**Redaksiya heyəti**

**Baş redaktorun müavini:**
Gülalıyev Mayıs Gülalı oğlu i.e.d., dos.,

**Məsul katib:**
Həmzəyeva Jalə

Hacıyeva Nüşabə, i.f.d., dosent
Qurbanova Xatirə, i.f.d, dosent
Qarayev Maarif , f.f.d., dosent
Hümbətov Yusif, i.f.d., dosent
Əhmədova Mətanət, t.f.d., dosent

**GƏNCƏ – 2022**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınıb: Reyestr №4155**

**Azərbaycan Texnologiya Universitetinin Elmi Şurasının qərarı ilə çap olunur**

**Jurnal aşağıdaki Beynəlxalq elmi məlumat bazalarına daxildi:**

*International Scientific Indexing (ISI), International Institute of Organized Research (I2OR), Journal factor, Cite factor, Academic Scientific Journals, Scientific Indexing Services*

**Print** – 2616-8626

*Innovasiyali iqtisadiyyat və menecment №2, 2022, - 180 səh.*

©Azərbaycan Texnologiya Universiteti

## MÜNDƏRİCAT

**Cəfərova Rumella Telman qızı**
Tikinti sektorunda istehsal edilən məhsulların iqtisadi artıma təsirlərinin qiymətləndirilməsi metodları (Granger causality method) …………………………….... 5

**Cümşüdov Sabir Qəmbər oğlu, Məmmədova Günel Vaqif, Kəngərli Həsən Rauf oğlu**
Aqrosənaye kompleksinin resursları və onların səmərəli istifadəsinin planlaşdırılması……..... 13

**Росс Тим Расимович**
Оценка влияния прав собственности на экономический рост: на примере постсоветских стран (панельный анализ)……………………………………………… 19

**Ağabəyova Akifə Akif qızı**
Azərbaycanda miqrasiyayanın dövlət tənzimlənməsinin qiymətləndirilməsi …………… 28

**Hətəmov Firudin Eldar oğlu**
Neft qiymətləri şokunun Yaxın Şərq ölkələrində məcmu istehlaka təsirinin qiymətləndirilməsi........................................................................................................... 38

**Abbasov Səbuhi Mübariz oğlu**
Antiinflyasiya yönümlü pul-kredit siyasətinin nəzəri aspektləri…………….……………. 47

**Mirzəyev Qurban Rauf oğlu**
MHBS əsaslı uçotun aparılmasında lizinq əməliyyatlarının uçotunun xüsusiyyətləri......... 57

**Qasımova Yetər İsrail qız, Rzayeva Leyla Yusif qız, Əliyeva Şəhla Yasin Qızı, Abdiyeva Gülgün Zeynal qızı, Mehdiyeva Aysel Xasay qızı**
Respublikanın iqtisadi regionlarında qida sənayesi müəssisələrinin inkişaf strategiyası.... 64

**Mammadli Aynur Hasan**
Analysis and assessment of financial inclusion in financial institutions............................. 73

**Алекперова Шабнам Видади**
Влияние удаленной занятости на эффективность деятельности организации при пандемии COVID-19……………………………………………………………….. 79

**Ибрагимова Алия Тогрул**
Оценка влияния коронавируса COVID -19 на содержание и структуру финансовой отчетности……………………………………………………………………………... 87

**Bəndiyeva Gülgün Elşən**
Koronavirus pandemiyasının insan resurslarının idarə edilməsinə təsirləri......................... 94

**Mirzəyev Zakir İlyas oğlu, Əhmədova Günay Azər qızı**
Azərbaycanda koronovirus (COVID-19) pandemiyasının xidmət sektorunda yaratdığı problemlər və onların həlli yolları.......................................................................................... 100

**Rzayeva İnara Rza, Mustafazada Narmin Vuqar**
Perspectives increasing attractiveness of tourism industry in Azerbaijan after the restoration of the country’s territorial integrity……………………………………… 107

**Bağırov Elnur Eldəniz oğlu**
Müəsisənin maliyyə resurslarının təşkilinin əsas metodoloji prinsipləri………………… 113

**Abasova Samirə Hüseyn qızı, Əlizadə Aynurə Fizuli qızı**
Koronavirus (COVİD-19) pandemiyası və e-ticarət: iqtisadi mənfəət və problemlərin azərbaycanda səmərəli idarə edilməsi........................................................................ 119

**Qurbanova Tünzalə Tofiq qızı, Allahverdiyeva Amalya İlqar qızı**
Koronavirus pandemiyası və postpandemiya dövründə maliyyə təhlükəsizliyinin təmin edilməsi məsələləri……………………………………………………………………….. 126

**Mustafayeva Ərəbiyə Ənvər qızı, İsayeva Leyla Xəqan qızı**
İşğaldan azad olunmuş ərazilərə xarici investisiyaların cəlb edilməsi və onların azərbaycanda əmək bazarına təsiri........................................................................... 134

**Рафиев Айдын Агаали оглу, Теймурова Лала Ильгар гызы**
Пути повышения инвестиционной привлекательности Карабахского экономического района……………………………………………………………….. 141

**Əkbərov Şahin Şükür, Məmmədli İlkin Elmar**
Ünsiyyətin istehlakçının rasional və irrasional davranışına təsiri: COVİD-19 qavrayışının moderator rolu…………………………………………….......................................... 148

**Gasimzade Nail Ibrahim**
Restoration of economic released areas and issues of economic zoning…………………. 154

**Aghayeva Konul Asaf, Zahra Mirzayeva Rovshan**
The ways of investment attraction to the regions liberated as a result of the patriotic war. 158

**Kərimova Minurə Hacı qızı**
Maddi-texniki resurslar bazarının tənzimlənməsində dövlətin rolu............................. 166

**Əkbərov Şahin Şükür oğlu, Ələkbərova Şərəfnisə Faiq qızı**
Dijital istehlakçı profili və yaşam tərzi: covid 19 qavrayışının moderator rolü…………. 173

**Rumella Telman qızı CƏFƏROVA, PhD**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti*

# TİKİNTİ SEKTORUNDA İSTEHSAL EDİLƏN MƏHSULLARIN İQTİSADİ ARTIMA TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ METODLARI (GRANGER CAUSALİTY METHOD)

## XÜLASƏ

Məqalədə tikinti sektorunun infrastruktur layihələrinin yerinə yetirilməsindəki rolu ilə yanaşı, həm də bu sektorda istehsal edilən məhsulların iqtisadi artıma təsirlərinin qiymətləndirilməsi üçün iqtisadi ədəbiyyatda təklif edilən metodların meqayisəli analizi aparılıb. Müqayisəli analiz deməyə əsas verir ki, tikinti sektorunun iqtisadi artıma əsas təsir kanalı əsas fondların inkişaf etdirilməsi ilə bağlıdır. Bura binalar, zavod və fabriklər, müxtəlif istehsal müəssisələrinin tikintisi, mənzil tikintisi və sair daxildir. Bu məhsulların iqtisadi artıma təsirlərinin səbəb-nəticə əlaqələrinin müəyyən edilməsi üçün Granger səbəbiyyət metodunun tətbiqi təklif edilir.

**Açar sözlər:** *tikinti sektoru, infrastruktur layihələri, iqtisadi artım, əsas fondlar, səbəbiyyət əlaqələri*

**UOT:** 338
**JEL:** L 74

**Giriş**

Tikinti sektorunda istehsal edilən məhsulların iqtisadi inkişafa və rifah halına təsirlərinin qiymətləndirilməsi üçün aparılan tədqiqatlara iqtisadi ədəbiyyatda tez-tez rast gəlinir. Xüsusilə son 30 ildə belə tədqiqatların sayı artmaqdadır. Müxtəlif ölkələrin timsalında tikinti sektoru məhsullarının, məsələn, mənzil tikintisinin, infrastruktur layihələrinin iqtisadi inkişafa və rifah halına təsirlərini öyrənən tədqiqatlarda daha çox belə məhsulların iqtisadi artıma təsirlərinin öyrənilməsinə diqqət yetirilir. Qeyd edək ki, bu problemə həsr edilən tədqiqatlar üçün bəzi fərqləndirici xüsusiyyətlər var. Birincisi, tikinti sektorunun məhsulu deyiləndə nələr nəzərdə tutulmalıdır və belə məhsulların təsnifləşdirilməsi necə aparılmalıdır? İkincisi, tikinti sektorunun bu və ya digər məhsulunun ölçü vahidi necə seçilməlidir? Belə ki, belə məhsulların bəziləri üçün bazar qiymətləri mövcud deyil. Məsələn, infrastruktur layihələrininbazar qiymətləri mövcud olmadığından onların ölçü vahidini kəmiyyətcə müəyyən etmək və müqayisəli analiz aparmaq çətindir. Üçüncüsü, tikinti sektorunun iqtisadi artıma və ya rifah səviyyəsinə təsirlərini qiymətləndirmək üçün hansı metodologiya seçilməlidir? Bu və ya digər sualların cavablandırılması tikinti sektorunun məhsullarının iqtisadi artıma və rifah halına təsirlərinin qiymətləndirilməsinin etibarlılığı üçün mühüm əhəmiyyət daşıyır.

**Ədəbiyyata baxış**

Bəzi tədqiqatçılar, məsələn, Musarat və digərlərinin (2020) [1], Müller və Veser (2020) [2] tərəfindən aparılan araşdırmalarda əsaslandırılır ki, ölkənin rifah halı iqtisadi artım əsasında dayanan ilkin, ikinci, üçüncü və sair səviyyəli iqtisadi sektorların inkişafından asılıdır. Bu sektorlardan biri də tikinti sektorudur. Musarat və digərlərinin (2020) araşdırmasına əsasən iqtisadi sektorlar, o cümlədən tikinti sektoru çoxlu sayda determinantlardan, o cümlədən, ölkədə inflyasiya səviyyəsindən asılıdır. Lakin bu asılılığın

bütün ölkələr üçün universal olduğunu, məsələn, pozitiv və ya neqativ olduğunu iddia etmək olmaz. Lean (2001) [3], Alaloul və digərləri (2021) [4] tikinti sektorunun rifah səviyyəsinin, səhiyyə sisteminin, həyat keyfiyyətinin yüksəlməsində rolunu analiz edərək belə nəticəyə gəlirlər ki, tikinti sektorunun bəzi məhsullarının, məsələn, yol tikintisinin ciddi ekoloji təsirləri mövcuddur. Tikinti fəaliyyətinin layihələndirilməsi və reallaşdırılması zamanı ətraf mühitin mühafizəsi və ekoloji tələblərin nəzərə alınması zəruridir.

**Tikinti sektorunun məhsulu, onun ölçü vahidləri, determinantları**

Tikinti sektorunun məhsulları müxtəlif ölkələrdə müxtəlif cür təsnifləşdirilir. Məsələn, Böyük Britaniyada tikinti sektorunun məhsulları bu sektordakı işlərin xarakterinə uyğun olaraq təsnifləşdirilir. Belə təsnifləşdirmə 1)ictimai mənzil tikintisi, 2)özəl mənzil tikintisi; 3) İnfrastruktur tikintisi; 4) İnfrastrukturdan başqa qeyri-yaşayış tikintiləri kimi 4 qrupa ayrılır. Bu qrupların da hər biri sub-qruplardan ibarətdir. Məsələn, infrastruktur tikintisinə 1) su xəttləri; 2) kanalizasiya; 3)elektrik xəttləri; 4)qaz boru xətləri; 5) rabitə xəttləri; 6) hava nəqliyyatı tikintisi; 7) dəmir yolu; 8) limanların tikintisi; 9) yolların çəkilişi daxildir. İnfrastrukturdan başqa qeyri-yaşayış binalarının tikintisi məhsullarına isə 1) zavod və fabriklər; 2) su anbarları; 3)neft emalı müəssisələrinin, neft boru kəmərlərinin və sair tikintisi; 4) polad istehsalı və onula bağlı tikintilər; 5) kömür mədənlərinin və onula bağlı tikintilər; 6) məktəb və kolleclər; 7) universitetlər; 8) səhiyyə sistemləri tikintisi; 9) ifislərin tikintisi; 10) əyləncə mərkəzlərinin tikintisi; 11) qaracların tikintisi; 12) mağazaların tikintisi; 13) kənd təsərrüfatı sektorunun fəaliyyəti üçün zəruri tikililər və 14) digər növ tikililər daxildir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlar bazasında tikinti sektorunda yaradılan məhsullar 1) binaların tikintisində; 2) mülki təyinatlı tikinti işlərində; 3) ixtisaslaşmış tikinti işlərində yaranan məhsullar bir-birindən fərqləndirilir. Birinci qrup tikinti işləri a) təcrübə-tikinti işlərindən; b) yaşayış və qeyri-yaşayış binaların tikintisindən ibarətdir. İkinci qrup, yəni mülki təyinatlı tikinti işləri a) Yollar və küçələrin salınması, dəmir yollarının tikintisi; b) Avtomobil yolları, yollar və küçələrin salınması; c) Dəmir yolları və yeraltı dəmir yollarının tikintisi; d) Körpü və tunellərin tikintisi; e) Mülki təyinatlı digər obyektlərin tikintisi; f) Boru kəmərlərinin tikintisi; h) Rabitə və elektrik xətlərinin çəkilməsi; g) Digər mülki tikinti obyektlərinin tikintisi; j) Su qurğularının tikintisi; k) Digər mülkü tikililərdən ibarətdir.

Üçüncü qrup tikinti işlərinə, yəni İxtisaslaşdırılmış tikinti işlərinə a) Binaların sökülməsi və tikinti sahəsinin hazırlanması; b) Binaların sökülməsi; c) Tikinti sahəsinin hazırlanması; ç) Kəşfiyyat qazıntısı; d) Elektrik və su kəməri sistemlərinin və sair mühəndis avadanlıqlarının quraşdırılması; e) Elektrik quraşdırma işləri; f) Sanitar-texniki işləri, istilik və havanın kondisiyalandırılma sısistemlərinin quraşdırılması; g) Sair mühəndis avadanlıqlarının quraşdırılması; h) Bəzək və tamamlayıcı işlər; j) Suvaq işləri; k) Xarratlıq və dülgərlik işləri; l) Döşəmə örtüyünün qurulması və divara örtüyün çəkilməsi; m) Rəngləmə və şüşə salma işləri; n) Sair bəzək və tamamlayıcı tikinti işləri; o) İxtisaslaşdırılmış tikinti işləri; p) Bina və tikililərin örtüklərinin quraşdırılması; r) Digər qruplara daxil edilməyən ixtisaslaşdırılmış tikinti işləri daxildir.

Biz öz təqdiqatımızda ARDSK-nin klassifikasiyasını əsas götürərək hesablamalar aparacağıq. Bu zaman tikinti sektorunun

məhsullarının əsas ölçü vahidi kimi bu məhsulların cari və hər hansı baza ilinə əsasən real qiymətləri götürüləcək. İqtisadi ədəbiyyatda belə ölçü vahidindən tikinti sektorunu qiymətləndirmək üçün daha çox istifadə edilir. Məsələn, *Fan və digərləri (2010)* [5], *Ramachandra və digərləri (2013)* [6], *Mu'awiya və digərləri (2018)* [7] və başqalarının tədqiqatlarında tikinti sektorunun məhsulları ümumi dəyəri onu xarakterizə etmək üçün əsas göstərici olaraq qəbul edilib. Digər ölçü vahidi kimi tikinti sektorunda yaranan əlavə dəyərin ÜDM-də payı da götürülə bilər. İqtisadi ədəbiyyatda tikinti sektorunda istehsal olunan məhsul həcminin iqtisadi artıma təsirləri tədqiq edilən zaman ən çox istifadə edilən ölçü vahidi yaradılan əlavə dəyər və ya məhsulun cəmi dəyəri götürülür (məsələn, *Ofori (1990)* [8], *Akintoye və Sommerville (1995)* [9], *Tanratanawong və Scott (2000)* [10], *Jiang və Liu (2011)* [11], *Jiang və digərləri (2013)* [12], *Jiang və Liu (2014)* [13]) . Lakin nəzərə almaq lazımdır ki, tikinti sektorunda yaranan əlavə dəyər və ya istehsal olunan son məhsulun dəyəri haqqında məlumatın əldə edilməsi ölkədən ölkəyə dəyişir. Lakin, demək olar ki, bütün ölkələrdə tikinti sektorunun məhsulunun ölçü vahidi kimi müəyyən dövr ərzində, məsələn, bir kvartal və ya il ərzində istehsal olunan məhsulun yerli valyuta ilə və ya ABŞ dolları ilə dəyəri nəzərdə tutulur. Məsələn, ABŞ-da tikinti sektorunun ÜDM həcmində payı 2005-ci ildə 5.1% olub. 2011-ci ildə isə bu göstərici 3.3% qədər azalıb. Sonrakı illərdə isə müəyyən qədər artaraq, 2020-ci ildə 4.4%-ə qədər artıb. Tikinti sektorunun məhsul istehsalı həcminin bu ölçülərlə deyil, cari ABŞ dolları ilə ifadə etsək, uyğun olaraq, 665 mlrd, 513 mlrd və 921mlrd ABŞ dolları olub.

Qeyd edək ki, "tikinti sektorunda yaradılan əlavə dəyər" və ya "tikinti sektorunda yaradılan əlavə dəyərin ÜDM-də payı" göstəriciləri ölkə üzrə tikinti sektorunu qiymətləndirməyə imkan versə də ölkələrarası müqayisənin aparılması üçün tam yararlı hesab edilə bilməz. Ona görə ki, hər bir ölkə üçün milli valyutanın alıcılıq qabiliyyəti pariteti müxtəlifdir və ona görə də ÜDM-in daşıdığı çatışmazlıqlar elə onun tərkib hissələrinə, o cümlədən, tikinti sektorundakı əlavə dəyərə də aiddir. Ona görə də tikinti sektorunda yaradılan məhsulun dəyəri ilə yanaşı, bəzi məhsullar üzrə naturada ifadə edilən göstəricilərdən istifadə etmək daha doğrudur. Biz tədqiqatın real vəziyyəti daha yaxçı ifadə etməsi məqsədilə bəzi hallarda real qiymətlərdən istifadə edəcəyik.

Tikinti sektorunun istehsal olunan hər çür məhsulların məcmu həcmi ilə xarakterizə olunması makrosəviyyədə bu sektoru müəyyən qədər qiymətləndirməyə imkan versə də onun ayrı-ayrı sahələri üzrə aparılan analizlər hansı məhsula xüsusi diqqətin ayrılması üçün mühüm informasiya verə bilir. Məsələn, mənzil tikintisinin, yoxsa infrastruktur layihələrinin genişləndirilməsinin iqtisadiyyata verdiyi töhvəni müəyyən etmək üçün əlbəttə bu sahələrin ayrə-ayrılıqda qiymətləndirilməsinə ehtiyac var. Biz tədqiqat çərçivəsində tikinti sektoruna daxil olan yuxarıda qeyd etdiyimiz qruplar üzrə tədqiqatın genişləndirilməsini vacib hesab edirik.

**Mənzil tikintisinin əsas göstəriciləri və onunla iqtisadi artım arasında əlaqənin qiymətləndirilməsi metodları**

İqtisadi ədəbiyyatda tikinti sektorunun məhsullarından biri olan mənzil tikintisi ilə iqtisadi artım arasında əlaqənin kəmiyyətcə qiymətləndirilməsi zamanı mənzil tikintisinin ölçü vahidi kimi əsasən onun müəyyən dövr ərzində ümumi dəyəri, yaxud natura ifadəsində ölçüsü, məsələn, tikilən mənzilin

ümumi sahəsi istifadə edilir. ARDSK-nin məlumatlarında da hər iki göstəricidən istifadə edilir. Mənzil tikintisinin iqtisadi artıma təsir kanalları tikinti sektorunun digər məhsul qruplarından fərqlənir. Belə ki, mənzillər əmtəə ola bilir və onlar üçün azad bazar formalaşa bilir. Mənzillərin tikintisi üçün layihələndirmə, tikintinin reallaşması üçün fizki kapitaldan və əməkdən istifadə ilə yanaşı, həm də onların alqı-satğı prosesi də müəyyən transaksiya xərcləri yaradır və bu xərclər dolayısı ilə iqtisadiyyata təsir göstərir. Biz yalnız tikilən mənzillərin cəmi dəyərini xarakterizə edən göstəricilərdən istifadə edərək onun iqtisadi artıma təsirlərini öyrənməyə cəhd edəcəyik. Qeyd edək ki, belə tədqiqatlara iqtisadi ədəbiyyatda müxtəlif ölkələrin timsalında rast gəlinir. Məsələn, *Bormpotsialou və Antonios (2019)* [14] tərəfindən aparılan qiymətləndirmədə mənzillərin qiymətindən, *Mahalia Jackman (2010)* [15] mənzillərin sayından istifadə edib.

Müxtəlif iqtisadi fəaliyyət sahələrinin, o cümlədən tikinti sektorunun və onun altsektorlarının iqtisadi inkişafa təsirini qiymətləndirmək üçün ən geniş yayılan metod Granger mahiyyətli səbəb-nəticə testinin tətbiq edilməsidir. Qeyd edək ki, bu metod Granger (1969) [16] və Granger və Neubold (1986) [17] tərəfindən işlənmişdir və son onilliklərdə iqtisadi göstəricilər arasında səbəbiyyət əlaqəsinin qiymətləndirilməsi üçün geniş istifadə edilir. “Granger səbəbiyyət testi” (Granger causality) kimi ekonometrikada istifadə edilən bu metod hər hansı iki göstəriciyə, məsələn, X və Y göstəricilərinə aid zaman sıralarının bir-birindən asılılığını və bir-birinin proqnozlaşdırılması üçün nə dərəcədə istifadə edilə biləcəyini müəyyən edir. Granger səbəbiyyət testi üçün nəzərdə tutulan tənliklər aşağıdakı formadadır:

$$y_t = a_0 + \sum_{i=1}^{n} a_i * y_{t-i} + \sum_{j=1}^{m} b_j * x_{t-j} + \varepsilon_t \quad (1)$$

$$x_t = c_0 + \sum_{i=1}^{n} c_i * y_{t-i} + \sum_{j=1}^{m} d_j * x_{t-j} + \mu_t \quad (2)$$

Burada həm $y_t$, həm də $x_t$- nin bir birindən və bir-birinin zaman sürüşmələrindən asılılığı nəzərdə tutulur. Bu zaman $y_t$ və $x_t$ arasındakı Granger nahiyyətli səbəbiyyət əlaqəsi heç də bu göstəricilərdən hər hansı birinin digəri üçün səbəb olması anlamına gəlmir. Lakin belə “səbəb-nəticə” əlaqəsi uyğun göstəriciləri xarakterizə edən zaman sıraları arasındakı səbəbiyyəti bildirir. Belə əlaqənin mövcudluğu “nəticə” rolunda olan göstəricinin proqnozlaşdırılmasında “səbəb”-dən istifadə imkanını verir. Clive Granger Nobel mükafatı alması münasibətilə etdiyi çıxışında qeyd edirdi ki, bu metod əsasən iqtisadiyyata tətbiq edilə bilər. Çünki onun digər sahələrə tətbiqi zamanı o qədər də uğurlu olmayan nəticələr əldə edilib [18].

Granger səbəbiyyət testi dörd mümkün variantda əlaqələri üzə çıxarır: 1) $y_t$ və $x_t$ göstəriciləri arasında səbəb-nəticə əlaqəsi mövcud deyil; 2) $y_t$ –göstəricisindən $x_t$ -göstəricisinə yönələn (yəni biristiqamətli) səbəb-nəticə əlaqəsi mövcuddur; 3) $x_t$ –göstəricisindən $y_t$ -göstəricisinə yönələn (yəni biristiqamətli) səbəb-nəticə əlaqəsi mövcuddur; 4) $y_t$ –göstəricisi ilə $x_t$ -göstəricisi arasında iki istiqamətli səbəb-nəticə əlaqəsi mövcuddur.

*Ramachandra və digərləri (2013)* tərəfindən aparılan tədqiqatda Granger səbəbiyyət testi üçün Şri-Lankada həm tikinti sektorunu, həm də məcmu iqtisadiyyatı xarakterizə edən iki qrup göstəricilərdən istifadə edilib. Tikinti sektorunun xarakterizə edən göstəricilər kimi a) tikinti sektorunda yaradılan əlavə dəyər (CVA); b) tikintidə əsas kapitalın məcmu iqtisadiyyatdakı əsas kapitalda payı

(CGDFCF); c)tikintidəki cəmi xərclər indeksi (CCİ) qəbul edilib. Məcmu iqtisadiyyatı xarakterizə edən makro göstəricilər kimi a) ÜDM həcmi (GDP); b) ÜDM deflyatoru (GDPD); c) işsizlik səviyyəsi (UE); d)ticarət balansı (BT) göstəricilərindən istifadə edilib. Tədqiqatda tikinti sektoruna aid göstəricilər ilə məcmu iqtisadiyyata aid göstəricilər arasındakı səbəb-nəticə əlaqələri analiz edilib. Tədqiqat zamanı Lag=1-6 götürülmüşdür. Əvvəlcə bu göstəriciləri xarakterizə edən zaman sıralarının stasionarlığı vahid kök testi ilə qiymətləndirilmişdir. Granger testinin tətbiqi ilə əldə edilən nəticə ondan ibarətdir ki, a) CGDFCF göstəricisi GDP üçün və b) CCI göstəricisi GDP üçün səbəb deyil. Əlaqənin belə xarakteri lag=1-6 üçün özünü doğruldur. Lakin GDPD göstəricisi CCI üçün Granger mahiyyətli səbəbdir, lakin əksi özünü doğrultmur.

Mahalia Jackman (2010) tərəfindən aparılan tədqiqatda mənzil tikintisinin iqtisadi artımla Granger mahiyyətli səbəb-nəticə əlaqəsi analiz edilib. Tədqiqatda 1990-2008-ci illərin kvartalları üzrə mənzil tikintisinin məhsul həcminin həmin dövrdə iqtisadi artımla əlaqəsini müəyyən etmək üçün mənzil tikintisi məhsulunun ölçü vahidi kimi yeni mənzillərin sayı götürülüb. Metodoloji olaraq, tədqiqatçı tərəfindən yeni tikilmiş mənzillərin sayı əvəzinə yenicə istifadə edilməyə başlayan mənzillərin sayını götürməsi məntiqlidir. Belə ki, hər hansı mənzil yalnız ondan istifadə edildikdə faydalı ola bilər. Əks halda belə tikililər tikintinin ərsəyə gəlməsi üçün çalışanların əmək haqqından başqa faydaya malik olmur. Lakin yeni mənzillərdən istifadə edilməsi müəyyən sayda ailələrin rifah halının yaxşılaşdırılması deməkdir. Dolayısı ilə belə tikililərin iqtisadi artıma təsirlərindən danışmaq olar. *Mahalia Jackman, (2010)* tikilmiş yeni mənzillərdə yaşayışın olmasını müəyyən etmək üçün belə mənzillərin elektrik enerjisinə qoşulması faktından istifadə edib. Beləliklə, bu tədqiqatda yeni mənzillərin sayı göstəricisi ilə ÜDM artımı arasındakı əlaqənin xarakteri Granger testi vasitəsilə axtarılıb. *Mahalia Jackman, (2010)* tədqiqat zamanı "yeni mənzillərin sayı" və "ÜDM artımı" göstəricisinin natural loqarifmindən istifadə ilə yanaşı, həm də Granger testini ifadə edən (1) və (2) tənliklərinə fəsillərin ekzogen təsirini nəzərə ala biləcək Z-fiktiv dəyişənləri də əlavə edib:

$$Y_t = \alpha_1 + \sum_{i=1}^{m} \lambda_{1i} * X_{t-i} + \sum_{i=1}^{m} \gamma_{1i} * Y_{t-i} + \delta_1 * Z + \varepsilon_{1t} \quad (3)$$

$$\mathrm{X_t = \alpha_1 + \sum_{i=1}^{m} \gamma_{2i} * Y_{t-i} + \sum_{i=1}^{m} \lambda_{2i} * X_{t-i} + \delta_2 * Z + \varepsilon_{2t}} \quad (4)$$

Burada $Y_t$-iqtisadi artımı, $X_t$-mənzil tikintisini, Z-fəsillərlə bağlı olan fiktiv ekzogen dəyişənləri ifadə edir. Əgər $\lambda_{1i} \neq 0$, onda mənzil tikintisinin iqtisadi artımın Granger mahiyyətli səbəbi olduğunu iddia etmək olar. Digər tərəfdən, əgər $\gamma_{2i} \neq 0$, onda iqtisadi artım mənzil tikintisi üçün Granger mahiyyətli səbəb hesab edilə bilər. Belə tədqiqatlarda zaman sürüşməsi ("lag") üçün optimal qiymətin seçilməsi vacibdir. Belə ki, zaman sürüşməsi sıfır hipotezin qəbulu və ya inkarı üçün mühüm əhəmiyyət daşıyır. Tədqiqatda zaman sürüşməsi üçün optimal həddi müəyyən etmək üçün Şvarts İnformasiya Meyarından istifadə edilib. Barbados timsalında aparılan tədqiqat göstərir ki, mənzil tikintisi ilə iqtisadi artıma arasında Granger mahiyyətli ikiistiqamətli səbəb-nəticə əlaqəsi mövcuddur.

Muaviya və digərləri (2018) tərəfindən aparılan tədqiqatda tikinti sektorundakı məhsul istehsalı həcminin artımı ilə məcmu iqtisadi artım arasındakı əlaqə araşdırılıb. Burada tikinti sektorunda məhsulun ölçü vahidi kimi onun illik cəmi dəyəri qəbul edilib. Araşdırma üçün vahid kök testindən,

Granger səbəbiyyət testindən, Johansen ko-inteqrasiya testindən istifadə edilib. 1990-2015-ci illəri əhatə edən dövr üçün tikinti sektorunda məhsul istehsal həcmi (CS) və ÜDM (GDP) üzrə məlumatlar Nigeriya Mərkəzi Bankının rəsmi saytından əldə edilib. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, tikinti sektorunda yaradılan əlavə dəyər ilə ÜDM arasında Granger mahiyyətli ikiistiqamətli səbəb-nəticə əlaqəsi mövcuddur.

*Hosein və Lewis (2005)* [19] tərəfindən aparılan tədqiqatda tikinti sektorundan yaranan əlavə dəyər ilə GDP və neft-qaz sektorundan yaranan əlavə dəyər arasında əlaqə Trinidad və Tobago timsalında analiz edilib. Qeyd edək ki, neft və qaz gəlirləri bu ölkənin əsas gəlirlərindəndir. Tədqiqat zamanı tikinti sektorunda yaranan əlavə dəyər əsas ölçü vahidi kimi götürülüb. Bu tədqiqatda analiz üçün tətbiq edilən metod yuxarıda qeyd etdiyimiz tədqiqatlardakından fərqlənir. Bu tədqiqatda kumulyativ təcrübə funksiyasından (Cumulative experience function) istifadə edilib. Kumulyativ təcrübə funksiyası iki dəyişən arasında səbəbiyyətin istiqaməti üzrə qeyri-parametrik məlumatların verilməsini təmin edir. Müəyyən zaman ərzində iki dəyişən arasında səbəb-nəticə əlaqələrini təsvir etmək üçün kumulyativ təcrübə funksiyasından istifadə edilə bilər. Əgər hər hansı müddətdə X-in kumulyativ təcrübəsi Y-in kumulyativ təcrübəsindən əvvəl baş verirsə, onda həmin zaman ərzində X dəyişəninin Y dəyişənin səbəbi kimi qəbul edə bilərik. *Hosein və Lewis (2005)* P dəyişəni üçün kumulyativ təcrübə funksiyasını aşağıdakı kimi ifadə edirlər:

$$C_{it} = \sum_{i=t_0}^{t} P_{it} \Big/ \sum_{i=t_0}^{t_1} P_{it} \qquad (5)$$

Burada $t_0$ və $t_1$ istifadə edilən məlumatların ilkin və son dövrüdür. $P_{it}$- t zaman müddətində müxtəlif sektorların ixracını bildirir. Kumulyativ təcrübə funksiyası həm də kumulyativ paylanma funksiyası kimidir, yəni t=0 halında $C_{it} \to 0$ və t=$t_1$ olanda isə $C_{it} \to 1$ olur.

**Nəticə**

Tikinti sektorunun məhsulları iqtisadiyyatın digər sektorlarına əlavə dəyərin yaradılması üçün dəstək olmaqla yanaşı, həm də insanların rifah halının, həyat şəraitinin yaxşılaşdırılmasında müstəsna rol oynayır. Mənzilllər, istirahət yerləri, yollar, körpülər, xəstəxanalar və məktəblər və sair tikinti sektorunun məhsullarıdır. Saydıqlarımız və saymadıqlarımız çoxlu sayda tikinti məhsulları var ki, onlar müasir sivilizasiyanın və mədəniyyətin mühüm göstəricilərindəndir. Tikinti sektorunun məhsulları birbaşa iqtisadi inkişafa dəstək verməklə yanaşı, onun dolayı təsirləri də var. Tikinti məhsullarının daha keyfiyyətli olması üçün yeni texnologiyaların və dizayn elminin inkişafı, bu texnologiyalarla davranmağı bacaran yeni işçilərin yetişdirilməsi, müvafiq təhsil və təlim mərkəzlərinin inkişafı və sair dolayı yolla iqtisadiyyatın inkişafına təsir edir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Musarat, M.A.; Alaloul, W.S.; Liew, M. Impact of inflation rate on construction projects budget: A review. Ain Shams Eng. J. 2020, 12, 407–414.
2. Müller, R.; Veser, M. The current state of nonfinancial reporting in Switzerland and beyond. Die Unternehm. 2020, 74, 296–311.
3. Lean, C.S. Empirical tests to discern linkages between construction and other economic sectors in Singapore. Constr. Manag. Econ. 2001, 19, 355–363.
4. Alaloul, W.; Altaf, M.; Musarat, M.; Javed, M.F.; Mosavi, A. Systematic Review of Life Cycle Assessment and Life Cycle Cost Analysis for Pavement and a Case Study. Sustainability 2021, 13, 4377.

5. Fan, R.Y.C., Ng, S.T. and Wong, J.M.W. (2010), "Reliability of the Box–Jenkins model for forecasting construction demand covering times of economic austerity", Construction Management and Economics, Vol. 28 No. 3, pp. 241-254.

6. Ramachandra, T., Rotimi, J. O. B., & Rameezdeen, R. (2013). The Relationship Between Construction Sector and the National Economy of Sri Lanka. *Proceedings of the 17th International Symposium on Advancement of Construction Management and Real Estate, 1263–1271.* doi:10.1007/978-3-642-35548-6_128

7. Mu'awiya Abubakar, Muhammad Abdullahi and Kabir Bala (2018). Analysis of the causality links between the growth of the construction industry and the growth of the Nigerian economy. *Journal of Construction in Developing Countries*, 23(1): 103–113. https://doi.org/10.21315/jcdc2018.23.1.6.

8. Ofori, G. (1990), The Construction Industry: Aspects of its Economics and Management, Singapore University Press, Singapore.

9. Akintoye, A. and Sommerville, J. (1995), "Distributed lag relationships between UK construction orders and output", Construction Management and Economics, Vol. 13 No. 1, pp. 33-42.

10. Tanratanawong, S. and Scott, S. (2000), "A neural network model to forecast national construction output", Journal of Financial Management of Property and Construction, Vol. 5 No. 1, pp. 65-77.

11. Jiang, H. and Liu, C. (2011), "Forecasting construction demand: a vector error correction model with dummy variables", Construction Management and Economics, Vol. 29 No. 9, pp. 969-979.

12. Jiang, H., Jin, X.H. and Liu, C. (2013). "The effects of the late 2000s global financial crisis on Australia's construction demand", Construction Economics and Building, Vol. 13 No. 3, pp. 65-79.

13. Jiang, H. and Liu, C. (2014), "A panel vector error correction approach to forecasting demand in regional construction markets", Construction Management and Economics, Vol. 32 No. 12, pp. 1205-1221.

14. Bormpotsialou Olga, Rovolis Antonios, (2019). Housing construction as a leading economic indicator. Studies in Business and Economics no. 14 (3) /2019

*15.* Mahalia Jackman, (2010). Investigating the Relationship between Residential Construction and Economic Growth in a Small Developing Country: The Case of Barbados. *İnternational real estate review.* 2010 Vol. 13 No. 1: pp. 109 – 116

16. Granger, C. W. J. (1969). "Investigating Causal Relations by Econometric Models and Cross-spectral Methods". *Econometrica*. 37 (3): 424–438. doi:10.2307/1912791

17. Granger CWJ, Newbold P (1986) Forecasting economic time series. Academic Press, Orlando

18. Granger, Clive W. J. (2004). "Time Series Analysis, Cointegration, and Applications"(PDF). *American Economic Review*. 94 (3): 421–425.doi:10.1257/0002828041464669

19. Roger Hosein and Timothy Michael Lewis, (2005). Quantifying the relationship between aggregate GDP and construction value added in a small petroleum rich economy – a case study of Trinidad and Tobago. Construction Management and Economics (February 2005) 23, 185–197

**Румелла Тельман кызы Джафарова, PhD**
*Азербайджанский Архитектурно-Строительный Университет*

## МЕТОДЫ ОЦЕНКИ ВЛИЯНИЯ ПРОДУКЦИИ, ПРОИЗВЕДЕННОЙ В СТРОИТЕЛЬНОЙ ОТРАСЛИ, НА ЭКОНОМИЧЕСКИЙ РОСТ (МЕТОД ПРИЧИННОСТИ ГРЭНДЖЕРА)

### РЕЗЮМЕ

В статье проведен сравнительный анализ методов, предложенных в экономической литературе для оценки влияния продукции, произведенной в строительной отрасли на экономический рост, помимо роли этого сектора в реализации инфраструктурных проектов. Сравнительный анализ свидетельствует о том, что основной канал влияния строительной отрасли на экономический рост связан с развитием основных фондов, в том числе строительство здании, заводов и фабрик, различных производственных объектов, также жилищного строительства и так далее. Предлагается применение метода причинности Грейнджера для определения причинно-следственных связей влияния этих продуктов на экономический рост.

**Ключевые слова**: *строительная отрасль, инфраструктурные проекты, экономический рост, основные фонды, причинно-следственная связь.*

**Rumella Telman Jafarova, PhD**
*Azerbaijan Architectural and Construction University*

## METHODS TO ESTİMATE THE İNFLUENCE OF PRODUCTİON PRODUCED İN THE CONSTRUCTİON İNDUSTRY ON ECONOMİC GROWTH (GRANGER CAUSALİTY METHOD)

### RESUME

In the article is carried out a comparative analysis of the methods proposed in the economic literature to assess the influence of production produced in the construction industry on economic growth, in addition to the role of this sector in the implementation of infrastructure projects. Comparative analysis shows that the main channel of influence of the construction industry on economic growth is connected with the development of fixed assets, including the construction of buildings, factories, various production facilities, as well as housing construction and so on. The application of the Granger causality method is proposed to determine the causal relationships of the influence of these products on economic growth.

**Key words**: *building industry, infrastructure projects, economic growth, basic funds, causal relationship.*

**Daxil olub:** 12.03.2022

**Sabir Qəmbər oğlu CÜMŞÜDOV i.e.d. prof,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

**Günel Vaqif MƏMMƏDOVA**
*Azərbaycan Texniki Universiteti,*

**Həsən Rauf oğlu KƏNGƏRLİ**
*Azərbaycan Texniki Universiteti*

# AQROSƏNAYE KOMPLEKSİNİN RESURSLARI VƏ ONLARIN SƏMƏRƏLİ İSTİFADƏSİNİN PLANLAŞDIRILMASI

## XÜLASƏ

Məqalədə aqrosənaye kompleksində resurslar və onların səmərəli istifadə göstəricilərinin planlaşdırılması məsələlərinə baxılmışdır. Aqrosənaye kompleksinin təbii, material-texniki, enerji, informasiya, əmək və maliyyə resurslarının istifadəsi gəlirlilik və mənfəətlilik meyarı ilə qiymətləndirilməlidir.

**Açar sözlər:** aqrosənaye kompleksi, resurslar, gəlirlilik, mənfəətlilik, qısa müddətli kredit, uzun müddətli kredit, səmərəlilik, rentabellik, maliyyə, meyar.

**UOT:** 658: 656.13
**JEL:** M17

## Giriş

Aqrosənaye kompleksinin resurslarının səmərəli istifadəsinin planlaşdırılması obyektiv iqtisadi qanunların tələblərinin nəzərə alınmasına və iqtisad elminin nəzərəri-metodoloji prinsiplərinə əsaslanır.

Aqrosənaye kompleksinin cari və strateji biznes-planı işlənib hazırlanarkən həmin kompleksin müəssisələrinin sərəncamında olan təbii, material-texniki, enerji, əmək, informasiya və maliyyə resurslarının (biznes-plana müvafiq) əsas göstəriciləri aşağıdakı metodika üzrə hesablanmalı, planlaşdırılmalı, uçota alınmalı və müqayisəli təhlil edilməlidir.

1. Təbii resursların səmərəli istifadə göstəriciləri:

a) təbii resursların gəlirlilik əmsalı:

$$Ə_g^{t.r.} = \frac{\sum G_ü}{\sum X_{t.r.}}$$

burada $\sum G_ü$- aqrosənaye kompleksinin illik gəlirinin ümumi məbləği, $\sum X_{t.r.}$- təbii resursların qorunması və istifadəsi ilə əlaqədar xərclərin ümumi məbləğidir.

b) təbii resursların mənfəətlilik əmsalı:

$$Ə_M^{t.r.} = \frac{\sum M_b}{\sum X_{t.r.}}$$

burada $\sum M_b$- aqrosənaye kompleksinin illik balans mənfəətinin ümumi məbləğidir.

2. Material-texniki resursların səmərəli istifadə göstəriciləri:

a) material-texniki resursların gəlirlilik əmsalı:

$$Ə_g^{mt} = \frac{\sum G_ü}{\sum X_{mt}}$$

Burada, $\sum G_ü$- kompleksin illik gəlirinin ümumi məbləği, $\sum X_{mt}$- material-texniki resurslara çəkilən xərclərin ümumi məbləğidir.

b) material-texniki resursların mənfəətlilik əmsalı:

$$Ə_M^{mt} = \frac{\sum M_b}{\sum X_{mt}}$$

3. Enerji resurslarının səmərəli istifadə göstəriciləri:

a) enerji resurslarının gəlirlilik əmsalı:

$$Ə_G^{en} = \frac{\sum G_ü}{\sum X_{en}}$$

burada $\sum G_ü$- kompleksin illik gəlirinin ümumi məbləği, $\sum X_{en}$ - enerji resurslarına çəkilən xərclərdir.

b) enerji resurslarının mənfəətlilik əmsalı:

$$Ə_M^{en} = \frac{\sum M_b}{\sum X_{en}}$$

burada $\sum M_b$ - kompleksin ümumi mənfəətinin məbləğidir

4. Əmək resurslarının səmərəli istifadə göstəriciləri:

a) əmək resurslarının gəlirlilik əmsalı:

$$Ə_G^{ər} = \frac{\sum G_ü}{\sum Ə_{hf}}$$

Burada, $\sum G_ü$- kompleksin illik gəlirinin ümumi məbləği, $\sum Ə_{hf}$ - illik əmək haqqı fondudur.

b) əmək resurslarının mənfəətlilik əmsalı:

$$Ə_M^{ər} = \frac{\sum M_b}{\sum Ə_{hf}}$$

5. Maliyyə resurslarının səmərəli istifadə göstəriciləri:

a) uzun müddətli kreditin gəlirlilik əmsalı:

$$Ə_g^{uk} = \frac{\sum G_ü}{\sum UK},$$

burada $\sum G_ü$- təsərrüfatın illik gəlirinin ümumi məbləği, $\sum UK$ - uzun müddətli kreditin illik məbləğidir.

b) uzun müddətli kreditin mənfəətlilik əmsalı:

$$Ə_M^{uk} = \frac{\sum M_b}{\sum UK},$$

v) qısa müddətli kreditin gəlirlilik əmsalı:

$$Ə_g^{qk} = \frac{\sum G_ü}{\sum QK},$$

burada $\sum G_ü$- təsərrüfatın illik gəlirinin ümumi məbləği, $\sum QK$ - qısa müddətli kreditin illik məbləğidir.

d) qısa müddətli kreditin mənfəətlilik əmsalı:

$$Ə_M^{qk} = \frac{\sum M_b}{\sum QK}.$$

Maliyyə resurslarının səmərəli istifadəsini xarakterizə edən digər göztəricilər bunlardır:

- kompleksin rentabelliyi:

a) kompleksin ümumi rentabelliyi:

$$R_ü = \frac{\sum M_b}{Ə_{if} + d_f} 100,$$

burada $Ə_{if}$ - kompleksin əsas istehsal fondlarının orta illik dəyəri, $d_f$ - kompleksin dövriyyə fondunun dəyəridir.

b) $R_ü^{xid}$ kompleksin hesabi rentabelliyi:

$$R_h = \frac{\sum M_h}{(Ə_{if} + d_f) - g_i} 100,$$

burada $Ə_{if}$ - kompleksin güzəştli istehsal fondlarının dəyəri, $\sum M_h$- kompleksin sərvətlərinin və resurslarının qorunması və istifadəsindən əldə ediləcək hesabi (xalis) mənfəətin ümumi məbləğidir.

- kompleksdə xidmətin rentabelliyi:

a) xidmətin ümumi rentabelliyi:

$$R_ü^{xid} = \frac{\sum M_b^{xid}}{\sum İ_x} 100$$

burada $\sum M_b^{xid}$- kompleksdə sərvətlərin və resursların qorunması və istifadəsindən əldə ediləcək balans mənfəətinin ümumi məbləği, $\sum İ_x$ - kompleksdə sərvətlərin və resursların qorunması ilə əlaqədar cari xərclərin ümumi məbləğidir.

b) xidmətin hesabi rentabelliyi:

$$R_h = \frac{\sum M_{S.R}^h}{\sum İ_x} 100$$

burada $\sum M_{S.R}^h$- kompleksdə sərvətlərin və resursların qorunması və istifadəsindən əldə ediləcək hesabi (xalis) mənfəətin ümumi məbləği, $\sum İ_x$ - kompleksdə sərvətlərin və resursların qorunması ilə əlaqədar cari xərclərin ümumi məbləğidir.

Aqrosənaye kompleksinin işinin səmə-rəliliyinin yüksəldilməsi istiqamətlərindən

biri də həmin sahə üzrə dövlət konserninin yaradılmasıdır. Yaradılacaq bu dövlət konserninin əsas fəaliyyəti aşağıdakı istiqamətlər üzrə təşkil edilməlidir:

– mütəmadi olaraq resursların səmərəli istifadəsini xarakterizə edən göstəricilərin təhlili əsasında kompleksin biznes fəaliyyətinin səmərəliliyini qiymətləndirmək lazım gəlir. Resursların səmərəli istifadəsi bir sıra göstəricilərlə xarakterizə oluna bilər. Bu göstəricilərdən resursların gəlirlilik və mənfəətlilik dərəcəsini xarakterizə edən əmsallar planlaşdırılır, uçota alınır, təhlil edilir və qiymətləndirilir. Deməli, resursların yuxarıda ifadə olunan göstəriciləri nəqliyyat və rabitə müəssisələrinin biznes fəaliyyətinin səmərəliliyinin təhlili və qiymətləndirilməsində geniş istifadə edilə bilər;

– enerji resurslarının planlaşdırılmasında müxtəlif növ enerjilərə (elektrik, istilik və s.) olan tələbat marketinq tədqiqatları əsasında müəyyən edilir. Aqrosənaye kompleksindəki bütün təsərrüfat vahidləri enerji ilə mərkəzləşdirilmiş qaydada təmin edilə bilər. Bunun üçün lazımi maddi-texniki şərait yaradılmalıdır. Bəzi enerji növlərinin təsərrüfatın özündə istehsalı əlverişli olduqda, bunun üçün lazım olan maddi-texniki şəraitin yaradılması kompleksin əsaslı tikinti planında nəzərdə tutulur;

– kompleksdə kadrların seçilməsi: müxtəlif kateqoriyalı əməkçilər, ixtisaslı kadrlar, mühəndis-texniki işçilər, qulluqçular, müdiriyyət, qoruyucular, köməkçi fəhlələr, habelə, kiçik xidmət işçilərinin səmərəli istifadəsinin planlaşdırılması prinsipləri, metodları və təşkili formalarına əsaslanmalıdır;

– bu kadrların səmərəli istifadəsi isə gəlirlilik və mənfəətlilik əmsalları ilə qiymətləndirilməlidir;

– əmək resurslarının səmərəli istifadəsinin mənfəətlilik nöqteyi-nəzərdən planlaşdırılması, uçotu və təhlili diqqət mərkəzində olmalıdır;

– kompleksdə maliyyə resurslarının səmərəli istifadəsinin mənfəətlilik nöqteyi-nəzərdən planlaşdırılması, uçotu, təhlili və qiymətləndirilməsi mütəmadi xarakter daşımalıdır;

– resursların səmərəli istifadəsi əsasında kompleksin biznes fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin planlaşdırılmasının təkmilləşdirilməsi meliorasiya sistemində yaradılacaq dövlət konserninin diqqət mərkəzində olmalıdır.

Aqrosənaye kompleksinin biznes fəaliyyətinin planlaşdırılmasının təkmilləşdirilməsinin əsas istiqamətləri bunlardır:

– Aqrosənaye kompleksinin sərəncamında olan köməkçi və yardımçı təsərrüfatlarının hərtərəfli fəaliyyətinin planlaşdırılmasının informasiya-kommunikasiya texnologiyaları tətbiqi əsasında təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin yerləşdiyi ərazidə onun sərəncamına verilmiş təbii resursların mənfəətlilik meyarı ilə səmərəli istifadəsinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin material-texniki resurslarının mənfəətlilik meyarı ilə səmərəli istifadəsinin təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin enerji resurslarının mənfəətlilik meyarı ilə planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin əmək resurslarının mənfəətlilik meyarı ilə planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin maliyyə resurslarının mənfəətlilik meyarı ilə səmərəli istifadəsinin planlanşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin sərəncamına ayrılan uzunmüddətli kreditin mənfə-

ətlilik meyarı ilə səmərəli istifadəsinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin sərəncamına ayrılan qısamüddətli kreditin mənfəətlilik meyarı ilə səmərəli istifadəsinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin maşın və avadanlıqlarının mənfəətlilik meyarı ilə modernləşdirilməsinin səmərəliliyinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində avtomatlaşdırılmış idarəetmə sistemlərinin mənfəətlilik meyarı ilə tətbiqinin iqtisadi səmərəliliyinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin kadrlara olan tələbatının mənfəətlilik meyarı ilə planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin istehsal proqramının əsas göstəricilərinin mənfəətlilik meyarı ilə planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində kompleks amillərin təsiri nəzərə alınmaqla əmək məhsuldarlığının mənfəətlilik meyarı ilə yüksəldilməsinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində xidməti daşımanın maya dəyərinin mənfəətlilik meyarı ilə aşağı salınmasının planlaşdırılmasının təkmilləşdirilməsi.

– Meliorasiya sistemində müəssisələrin hərtərəfli fəaliyyəti ilə əlaqədar cari-istismar xərclərinin mənfəətlilik meyarı ilə aşağı salınmasının planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində əməyin elmi təşkilinin mənfəətlilik meyarı ilə planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində əsas və əlavə əmək haqqının planlaşdırılmasının təkmilləşdirilməsi.

– Kollektivin sosial inkişafının mənfəətlilik meyarı ilə planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində maddi həvəsləndirmə fondunun mənfəətlilik meyarı ilə səmərəli istifadəsinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində sosial mədəni tədbirlər və mənzil tikintisi fondunun mənfəətlilik meyarı ilə planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində istehsalın inkişafı fondunun mənfəətlilik meyarı ilə səmərəli istifadəsinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində yeni texnika və yeni texnologiyaların mənfəətlilik meyarı ilə tətbiqinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin əsas istehsal fondlarının mənfəətlilik meyarı ilə səmərəli istifadəsinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin dövriyyə vəsaitlərinin mənfəətlilik meyarı ilə səmərəli istifadəsinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində daşımaların mənfəətlilik meyarı ilə optimallaşdırılmasının təkmilləşdirilməsi, daşımanın təşkilinin optimal variantının seçilməsi əsasında şəhərdaxili və beynəlxalq daşımaların təşkili metodlarının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində ixtiraçılıq və səmərələşdiricilik bölməsinin yaradılması və onun işinin səmərəli təşkilinin təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində ixtiraların mənfəətlilik meyarı ilə tətbiqinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksində səmərələşdirici təkliflərin mənfəətlilik meyarı ilə

tətbiqinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin maliyyə göstəricilərinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin sifarişçilərlə qarşılıqlı əlaqələrinin planlaşdırilmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin banklarla kredit qarşılıqlı əlaqələrinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin dövlət büdcəsi ilə qarşılıqlı əlaqəsinin planlaşdırılmasının təkmilləşdirilməsi.

– Aqrosənaye kompleksinin sərəncamında olan resursların səmərəli istifadəsinin gəlirlilik və mənfəətlilik meyarı ilə təhlili və qiymətləndirilməsi.

– Elektron hökumət layihələri nəzərə alınmaqla aqrosənaye kompleksində kağızsız informasiya axınlarının optimallaşdırılmasının planlaşdırılması və təşkili.

## ƏDƏBİYYAT SİYAHISI:

1. S.Q.Cümşüdov, T.T. Məmmədova. Meliorasiya və su təsərrüfatının idarə edilməsində informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi məsələləri. Ekologiya və su təsərrüfatı jurnalı, № 4, sentyabr, 2016, səh. 91-95.
2. S.Q. Cümşüdov. Xidmət sahələrinin sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi. «Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalı, № 1 (9), Bakı, Çaşıoğlu, 2005, s. 96-104.
3. S.Q. Cümşüdov. Dövlət idarəçiliyi sistemində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi isqtisamətləri. AzTU-nun Elmi əsərləri, №3, Bakı, 2006, s.37-39.
4. S.Q. Cümşüdov. İdarəetmə qərarlarının qəbulu. Bakı, təhsil, NPM, 2010, c.160
5. S.Q. Cümşüdov. Azərbaycanda "Elektron hökumətin formalaşmasının metodoloji prinsipləri. Elektron hökumət Azərbaycanda: nailiyyətlər və perspektivlər. Beynəlxalq konfransın məruzə materialları. AzTU, Bakı, 26-28 aprel 2010, s. 157-160.

**Сабир Гамбар оглы ЖУМШУДОВ и.е.д. проф,**
Академия государственного управления при Президенте Азербайджанской Республики

**Гюнель Вагиф МАМЕДОВА**
Азербайджанский Технический Университет,

**Хасан Рауф оглы КАНГЕРЛИ**
Азербайджанский Технический Университет

# ПЛАНИРОВАНИЕ РАЦИОНАЛЬНОГО ИСПОЛЬЗОВАНИЯ РЕСУРСОВ В АГРОПРОМЫШЛЕННЫМ КОМПЛЕКСЕ

## РЕЗЮМЕ

В статье рассмотрены классификации ресурсов в агропромышленным комплексе и планирование показатели их эффективного использования. Особое внимание уделено показателям доходности и прибыльности ресурсов при разработке текущего и стратегического бизнес-

планов с учетом прибыльности. Рассмотрены разделы бизнес-плана и их показатели с учетом прибыльности всесторонней деятельности подразделений агропромышленного комплексе.
**Ключевые слова:** агропромышленный комплекс, ресурсы, доходность, прибыльность, краткосрочный кредит, долгосрочный кредит, эффективность, рентабельность, финансы, критерия.

**Sabir Gambar oglu JUMSHUDOV i.e.d. prof,**
Academy of Public Administration under the President of the Republic of Azerbaijan

**Gunel Vagif MAMMADOVA**
Azerbaijan Technical University,

**Hasan Rauf oglu KANGERLI**
Azerbaijan Technical University

## PLANNING OF RATIONAL USE OF RESOURCES IN AGRICULTURAL INDUSTRIAL COMPLEX

### RESUME

The article considers the indicators of resource protection in the agro-industrial complex and evaluates the indicators of their efficiency of use. Particular attention is paid to indicators of profitability and profitability of resources in the development of private and strategic business plans, taking into account profitability. Sections of the business plan and their calculations are excluded, taking into account the profitability of all operations of the agro-industrial complex.
**Key words:** agro-industrial complex, resources, profitability, profitability, short-term credit, long-term credit, efficiency, profitability, finance, criteria

**Daxil olub:** 12.04.2022

**Тим Расимович РОСС**

# ОЦЕНКА ВЛИЯНИЯ ПРАВ СОБСТВЕННОСТИ НА ЭКОНОМИЧЕСКИЙ РОСТ: НА ПРИМЕРЕ ПОСТСОВЕТСКИХ СТРАН (ПАНЕЛЬНЫЙ АНАЛИЗ)

## РЕЗЮМЕ

В статье проведен сравнительный анализ и оценка различных исследований, связанных с эмпирической оценкой влияния прав собственности на экономический рост. Также проведен эмпирический анализ на примере постсоветских республик. Результаты панельного анализа показывают, что уровень защиты прав собственности в постсоветских республиках положительно влияет на ВВП. Вот почему важно принять меры по защите прав собственности, особенно по совершенствованию правовой базы и повышению международного рейтинга Азербайджана в этой сфере. Улучшение рейтинга страны в области защиты прав собственности увеличивает объем прямых иностранных инвестиций в страну и создает новые рабочие места.

**Ключевые слова:** *право собственности, экономический рост, международный рейтинг, уровень занятости, прямые иностранные инвестиции*

**UOT:** 347.77
**JEL:** H82

## Введение

İnkişaf etmiş ölkələr üzrə miqrasiya artımının müqayisəsi deməyə əsas verir ki, bu ölkələrə emiqrasiya immiqrasiyanı üstələyir. Nəzərə alsaq ki, bu ölkələrdə miqrasiya rejimləri çox sərtdir və əsasən yüksək ixtisaslı kadrlar bu ölkələrdə işləmək üçün icazə ala bilirlər, onda rejimin yumşalması şəraitində bu ölkələrə emiqrasiya axının güclənə biləcəyini fərz etmək olar. Məsələn, Avropa ölkələri Şengen vizası tətbiq edirlər. Bu vizanın alınması hələ orada işlə təmin edilmək üçün əsas vermir. Bu ölkələrdə bir neçə ay ərzində yaşamaq üçün tələb olunan xərclərdən, tibbi sığortadan, yaşayış yerlərinin kirayə haqqından və sair xərclərdən ibarət olan miqrasiya xərcləri Azərbaycanda orta əmək haqqı ilə müqayisədə çox yüksəkdir. ABŞ və Kanadaya miqrasiya xərcləri də çox yüksəkdir. Buna baxmayaraq, Azərbaycanda ABŞ, Kanada, Avstraliya və Avropa ölkələrinə emiqrasiya davam edir. Bu ölkələr üzrə miqrasiya artımı mənfidir, yəni gedənlərin sayı gələn-

lərdən çoxdur. Nəzərə almaq lazımdır ki, bu ölkələrə gedənlər daha yüksək ixtisaslı kadrlardır. Maraqlıdır ki, Azərbaycandan Böyük Britaniyaya emiqrantlar çox azdır.

Keçmiş sovet respublikalarında isə miqrasiya rejimləri inkişaf etmiş ölkələrlə müqayisədə xeyli yumşaqdır və buna görə də Azərbaycandan bu ölkələrə miqrasiya hələ də üstünlük təşkil edir. Rusiyaya, Belarusa və Qazaxıstana Azərbaycandan emirasiya digər respublikalara nisbətən daha yüksəkdir. Ukrayna-Rusiya müharibəsi başlayana qədər, yəni 2022-ci ilin fevralına qədər bu ölkəyə miqrasiya həcmi yüksək idi. Lakin son 10 ildə Ukrayna üzrə miqrasiya artımı müsbət idi, yəni ölkəyə gələnlərin sayı gedənlərin sayından çox idi.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Mathias Czaika Hein de Haas, 2013. The Effectiveness of Immigration Policies.Population and development review 39(3): 487–508 (September 2013)
2. Ulf Rinne, 2012. The Evaluation of Immigration Policies. Discussion Paper No. 6369 February 2012 IZA P.O. Box 7240 53072 Bonn Germany
3. Francesc Ortegay and Giovanni Peri, 2013. The effect of income and immigration policies on international migration. *Migration studies* volume 1, number 1, 2013, 47–74

**Акифа Акиф кызы Агаярова**
Диссертант Института Экономики НАНА

## ОЦЕНКА ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ МИГРАЦИИ В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

В статье исследована сущность миграционных процессов на основе динамики численности эмигрантов и мигрантов в Азербайджане в период 1990-2019 гг. Основываясь на динамике численности мигрантов в развитых и развивающихся странах, автор делает вывод, что в 90-е годы прошлого века в миграционных процессах в Азербайджане ключевую роль играли этнические детерминанты, а в последние десятилетия - экономические детерминанты.

**Ключевые слова**: *эмиграция, иммиграция, миграционный процесс, управление миграцией*

**Akifa Akif Agayarova**
Dissertant of the Institute of Economics NANA

## EVALUATİON OF THE STATE REGULATİON OF MİGRATİON İN AZERBAİJAN

**Resume**

The article examines the essence of migration processes based on the dynamics of the number of emigrants and immigrants in Azerbaijan in the period 1990-2019. Based on the dynamics of the number of migrants in developed and developing countries, the author concludes that in the 90s of the last century, ethnic determinants played a key role in migration processes in Azerbaijan, and in recent decades - economic determinants.

**Keywords**: *emigration, immigration, migration process, management of migration*

**Daxil olub:** 26.04.2022

**Firudin Eldar oğlu HƏTƏMOV**
**AMEA-nın Şərqşünaslıq İnstitutunun dissertantı**

# NEFT QİYMƏTLƏRİ ŞOKUNUN YAXIN ŞƏRQ ÖLKƏLƏRİNDƏ MƏCMU İSTEHLAKA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## XÜLASƏ

Məqalədə dünya bazarında neft qiymətləri şokunun Səudiyyə Ərəbistanı, Küveyt və Birləşmiş Ərəb Əmirliklərində məcmu istehlaka təsirinin ekonometrik hesablanması aparılmışdır. Müəllif belə nəticəyə gəlir ki, Səudiyyə Ərəbistanında istehlak xərcləri uzunmüddətli dövrdə neft qiymətlərindən asılıdır. Neft qiymətlərinin artması istehlak xərclərini artırır. BƏƏ üçün də neft qiymətlərinin artması istehlak xərclərini artırır. BƏƏ istehlak xərclərinin neft qiymətlərindən qısamüddətli dövrdə deyil, uzunmüddətli dövrdə asılılığı, böyük ehtimalla, neft rentasının ÜDM-dəki payının neftlə zəngin digər ərəb ölkələri ilə müqayisədə o qədər də yüksək olmaması ilə bağlıdır. Lakin üzunmüddətli dövr üçün bu ölkədə neft qiymətlərindən asılılıq güclüdür. İrakda da istehlak xərcləri neft qiymətlərinə pozitiv cavab verir. Neft qiymətlərinin artması ilə istehlak xərcləri də artır.

**Açar sözlər:** *neft qiymətləri, iqtisadi artım, istehlak həcmi, neft rentası*

**UOT**: 338.5
**JEL**: – E30

## Giriş

Təbii sərvətlərlə zəngin olan və belə sərvətləri ixrac edən ölkələrin əksəriyyətinin əsas gəlirləri bu sərvətlərin rentasından yaranır. Neftlə zəngin ərəb ölkələrində də neft rentası onların gəlirlərinin mühüm hissəsini təşkil edir. Buna görə də neft qiymətlərinin dünya bazarında artması və ya azalması həm ölkənin milli gəlirinin həcmində, həm də ev təsərrüfatlarının gəlirlərinin həcmində özünü göstərir. Neft ixrac edən ölkələrdə ev təsərrüfatlarının gəlirlərinin neft qiymətlərinin volatilliyindən asılılığı ölkədə məcmu tələbin dəyişməsinə, həmçinin məcmu təklifə təsir edir. Buna görə də bu iki göstərici arasında, yəni neft qiymətləri və ya onun dəyişməsi ilə istehlak arasında əlaqələrin kəmiyyətcə qiymətləndirilməsi iqtisadi siyasətin müəyyən edilməsində mühüm əhəmiyyətə malikdir. Lakin nəzərə almaq lazımdır ki, belə təsirlər qısamüddətli və uzunmüddətli ola bilər. Əksər ölkələrdə əhalinin gəlirlərinin mühüm hissəsini neft rentası təşkil etdiyindən neft qiymətlərinin dəyişməsi qısamüddətdə ev təsərrüfatlarının gəlirlərində əkd olunur. Bəzi ölkələrdə isə belə dəyişmələr yalnız uzunmüddətli dövrdə hiss edilir. Təsirlərin qısa və ya uzunmüddətli olması ÜDM həcmində neft rentasının payından çox asılıdır.

## Ədəbiyyata baxış

Neft qiymətlərinin volatilliyinin neft məhsulları idxal edən və ixrac edən ölkələrdə təsirləri bir-birindən fərqlidir. Dünya bazarında neft qiymətləri dəyişəndə neft rentası azalır və ixracatçı ölkənin gəlirləri azalır. Bu, hər şeydən əvvəl hökumətin həyata keçirdiyi sosial proqramların, infrastruktur layihələrinin reallaşmasına problem yaradır. Qiymətlərin artması isə hökumətə öz xərclərini artırmaqda geniş imkanlar açır. Neft ixrac edən ölkələrdə isə vəziyyət bir qədər fərqlidir. İdxal malları arasında neft məhsulları çox olarsa, neftin istifadə edildiyi bütün iqtisadi fəaliyyət sahələrində qiymətlər artmış olur. Digər tərəfdən, neftdən aralıq

məhsul kimi istifadə edilmiş digər məhsulların idxal qiymətləri də artır. Beləliklə, neft qiymətlərinin artması neft ixrac edən ölkələrin gəlirlərini artırmaqla yanaşı, onların idxal etdikləri məhsulların qiymətinə də təsir edir. Əksər hallarda bu, artmış qiymətlərlə müşahidə edilir.

Neft qiymətlərinin dünya bazarında artması hər bir ölkənin məcmu tələbinə, o cümlədən istehlak həcminə də təsir göstərir. İxracatçı ölkənin gəlirlərinin artması, təbii kimi, milli valyutanı gücləndirir və istehlak həcmi həm nominal, həm də real qiymətlərlə artmış olur. Qiymətlərin azalması isə əksinə, həm nominal qiymətlərlə, həm də real qiymətlərlə istehlakın azalmasına səbəb ola bilər. Neft qiymətlərinin neft idxal edən ölkələrdə istehlak həcminə təsirləri bir qədər fərqli olsa da ümumi tendensiya ondan ibarətdir ki, qiymətlərin artması fonunda idxal mallarının da qiyməti artdığından istehlak həcmi azala bilər.

Müxtəlif ölkələrin timsalında neft qiymətlərinin istehlak həcminə təsirlərinə həsr edilən tədqiqatlara iqtisadi ədəbiyyatda rast gəlinir. Məsələn, Zhang və Broadstock (2014) [1] tərfindən aparılan tədqiqatda ASEAN və Şərqi Asiya regionunda yerləşən bəzi ölkələrin iqtisadiyyatına, o cümlədən istehlak həcminə neft qiymətlərinin təsiri araşdırılıb. Müəlliflər neft qiymətlərini istehlak nəzəriyyəsinin makroiqtisadi modellərinə daxil edərək bu qiymətlərin şok dəyişmələri zamanı istehlak həcminin dəyişməsini öyrəniblər. Əldə edilən nəticə ondan ibarətdir ki, neft qiymətləri ilə istehlak həcmi arasında əlaqə mövcuddur və bu əlaqə assimmetrikdir. Digər tərəfdən, belə təsirlərin xarakterində və həcmində ölkədən ölkəyə fərqlər var.

ABŞ timsalında Michelis və digərləri (2020) [2] tərfindən aparılan tədqiqatda da ABŞ və ayrı-ayrı ştatlarda istehlak həcminin neft qiymətlərindən asılı olaraq dəyişməsi kəmiyyətcə qiymətləndirilib. Məqalədə digər ölkələrlə müqayisələr də aparılıb. 1975-2018-ci illərarası dövrdə 55 ölkə üzrə 1989-2018-ci illərarası dövrdə isə ABŞ statları üzrə istehlak həcmi ilə neft qiymətləri arasındakı əlaqənin müqayisəli təhlili deməyə əsas verir ki, neft qiymətlərinin azalması neft idxal edən ölkələrdə istehlak həcminə müsbət təsir göstərir. Tədqiqat göstərir ki, neft qiymətlərinin azalması neft ixrac edən ölkələrdə istehlak həcmini də azaldır.

Yu Shan Wang (2013) [3] tərəfindən aparılan tədqiqatda istehlak xərclərinin neft qiymətlərindən asılılığının qeyri-xətti və asimmetrik olması təsdiq edilir. Bu tədqiqatda da iddia edilir ki, neftin qiymətinin artması istehlak xərclərinin azalmasına səbəb olur. Hətta neft qiymətlərinin artması ilə bağlı gözləntilər də istehlak həcminə neqativ təsir edir. Lakin uzunmüddətli dövrdə neft qiymətinin artımı istehsal amillərinin də qiymətini artırır. Bu davamlı qiymət artımını və inflyasiyanı yaradır. Sonda istehlak xərcləri artmış olur. Bu tədqiqatın əsas nəticələrindən biri ondan ibarətdir ki, istehlak həcmi ilə neft qiymətləri arasındakı əlaqə ölkədən ölkəyə dəyişir. Belə fərqliliklər digər səbəblərlə yanaşı, həm də ölkədə həyata keçirilən monetar siyasətlə bağlıdır.

**Metodologiya və məlumatlar bazası**

Tədqiqat zamanı neft qiymətlərinin illik orta qiymətindən istifadə olunub. Bu məlumatlar US Energy İnformastion Administration (US EİA, 2022) [4] təşkilatının rəsmi internet səhifəsindən əldə edilib. Tədqiqat zamanı neft qiymətləri həm nominal ($OİLP_t$), həm də real qiymətlər (**$ROİLP_t$**), kimi hesablanıb. Real qiymətlərin hesablanması zamanı 1995-ci il baza ili olaraq qəbul edilib.

Adambaşına istehlak həcminin heaablanmasında da nominal ($\mathbf{NCONS_t}$), real qiymətlərdən ($\mathbf{RCONS_t}$), istifadə edilib. Bu məlumatlar Dünya Bankının rəsmi informasiya bazasından (WB, 2022) [5] əldə edilib.

Tədqiqatda qısamüddətli təsirlərin öyrənilməsi üçün cüt reqresiya analizlərinndən, uzunmüddətli təsirlərin qiymətləndirilməsi üçün isə kointeqrasiya metodundan istifadə edilib. Neft qiymətlərinin volatilliyinin istehlak xərclərinə qısamüddətli və uzun müddətli təsirlərini öyrənmək üçün cüt reqresiya tənliklərindən və kointeqrasiya metodundan istifadə olunub. Alınan nəticələrin dürüstlüyünü təmin etmək məqsədilə zaman sıralarının stasionarlığı həm "səviyyə", həm də "1-ci fərq" hallarında yoxlanılıb. Hər iki halda "kəsişmənin və trendin olmadığı", "kəsişmənin olduğu, lakin trendin olmadığı" və "kəsişmənin və trendin olduğu" variantlarda stasionarlıq yoxlanılıb. Bu zaman lag=1 il götürülüb. Stasionarlığın yoxlanılması "vahid kök metodunun" tətbiqi ilə həyata keçirilib:

**Empirik hesablamalar:**

Qeyd etdiyimiz kimi tədqiqata 4 ərəb ölkəsi daxil edilib. Bunlar Səudiyyə Ərəbistanı, BƏƏ, İraq və Küveytdir. Bu ölkələrin fərqli cəhətləri ilə yanaşı, həm də oxşar cəhətləri var. Əsas fərqlilik bu ölkələrdə həyata keçirilən iqtisadi siyasət və 1986-cı ildən sonrakı dönəmdə bu ölkələrdəki siyasi sabitliklə bağlıdır. Belə ki, keçən əsrin 90-cı illərinin əvvəllərində İraq-Küveyt müharibəsi, 2003-cü ildə İraq-ABŞ müharibəsi öz təsirini həm neft qiymətlərində. Həm də istehlak xərclərində göstərdi. İstehlak həcminə təsir edən çoxlu sayda amillər mövcuddur ki, onların təsirləri fonunda neft qiymətlərinin təsirlərini modelləşdirmək çətinləşir. Buna baxmayaraq, biz hesab edəcəyik ki, bu ölkələrdə neft qiymətlərinin istehlak xərclərinə təsirlərini xətti reqresiya analizi ilə modelləşdirmək olar:

$$cons_t = \beta_1 + \beta_2 * oilp_t + u_t$$

Burada $cons_t$-istehlak həcminin orta illik həcmi, $oilp_t$- dübya bazarında neftin orta illik qiyməti, $\beta_1$ və $\beta_2$- əmsallardır. Bu zaman digər amillərinin təsirini təsadüfi $u_t$ qalığının üzərinə qoyacağıq. 1-ci cədvəldə dünya bazarında nominal və real neft qiymətlərinin zaman sırasının stasionarlığı ilə bağlı əldə edilən nəticələr verilib. Cədvəldən görünür ki, hər iki zaman sırası "səviyyə" halında stasionar deyil. Lakin "1-ci fərq" halında hər iki zaman sırası stasionardır.

**Cədvəl 1**

**Dünya bazarında nominal və real neft qiymətlərinin zaman sırasının stasionarlığı**

| | kəsişmə və trend olmadan | | kəsişmə ilə və trend olmadan | | kəsişmə ilə və trend olmadan | |
|---|---|---|---|---|---|---|
| | Səviyyə | Birinci fərq | Səviyyə | Birinci fərq | Səviyyə | Birinci fərq |
| $\boldsymbol{OİLP_t}$ | | | | | | |
| *t-statistika* | -0.2967 | -6.2133 | -1.5862 | -6.1783 | 2.2013 | -6.0554 |
| *P-qiymət* | 0.5717 | 0.0000 | 0.4789 | 0.0000 | 0.4742 | 0.0001 |
| $\boldsymbol{ROİLP_t}$ | | | | | | |
| *t-statistika* | -0.7137 | -4.5677 | -1.0300 | -4.4565 | -1.2408 | -5.0529 |
| *P-qiymət* | 0.3947 | 0.0001 | 0.7215 | 0.0027 | 0.8731 | 0.0037 |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

Səudiyyə Ərəbistanı, BƏƏ, İrak və Küveyt üçün nominal istehlak həcminin zaman sıralarının stasionarlığı da yuxarıda qeyd etdiyimiz metodla yerinə yetirilmişdir. Hesablamalar göstərir ki, tədqiqata cəlb edilən bu ölkələr üçün istehlak həcmi zaman sırası "səviyyə" halında, yəni bu ölkələr üçün $cons_t$ zaman sırası stasionar deyil, lakin "1-ci fərq", yəni $\Delta cons_t$ zaman sırası "kəsişmə və trend olmadığı", həmçinin "kəsişmənin olduğu, lakin trendin olmadığı" hallar üçün stasionardır. "Kəsişmə və trendin olduğu üçüncü halda BƏƏ-nə, İraka və Küveytə aid istehlak xərcləri zaman sırasının 1-ci fərqi stasionardır. Səudiyyə ərəbistanına aid istehlak xərcləri zaman sırası isə stasionar deyil.

**Cədvəl 2**

**Bəzi ərəb ölkələrində nominal istehlak həcminin zaman sıralarının stasionarlığı**

| | kəsişmə və trend olmadan | | kəsişmə ilə və trend olmadan | | kəsişmə ilə və trend olmadan | |
|---|---|---|---|---|---|---|
| | Səviyyə | Birinci fərq | Səviyyə | Birinci fərq | Səviyyə | Birinci fərq |
| BƏƏ | | | | | | |
| *t-statistika* | -0.2082 | 3.7568 | -1.6136 | -3.6373 | -1.8993 | -3.5143 |
| *P-qiymət* | 0.5972 | 0.0009 | 0.4556 | 0.0163 | 0.6133 | 0.0699 |
| **İrak** | | | | | | |
| *t-statistika* | -0.9233 | -7.9504 | -2.1453 | -7.9217 | -2.4209 | -7.8370 |
| *P-qiymət* | 0.3116 | 0.0000 | 0.2285 | 0.0000 | 0.3647 | 0.0000 |
| **Kuveyt** | | | | | | |
| *t-statistika* | 1.6715 | 5.3667 | -0.3411 | -5.6866 | 2.3642 | -5.6261 |
| *P-qiymət* | 0.9756 | 0.0000 | 0.9109 | 0.0000 | 0.3931 | 0.0001 |
| **S.Ərəbistanı** | | | | | | |
| *t-statistika* | 0.4132 | -2.8658 | -1.2665 | -3.1694 | -2.2883 | -3.118980 |
| *P-qiymət* | 0.7988 | 0.0050 | 0.6382 | 0.0277 | 0.4324 | 0.1130 |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

**Cədvəl 3**

**Bəzi Ərəb ölkələrində qısamüddətli dövrdə neft qiymətlərinin dəyişməsinin ($\Delta OİLP_t$) istehlak həcminin dəyişməsinə ($\Delta cons_t$) təsirləri**

**($\Delta cons_t = \beta_2 * \Delta OİLP_t + u_t$)**

| | | **BƏƏ** | **İrak** | **Kuveyt** | S. Ərəbistanı |
|---|---|---|---|---|---|
| $R^2$ | | 0.422419 | 0.014422 | -0.209487 | 0.005755 |
| Müşahidələrin sayı | | 18 | 33 | 30 | 35 |
| $\beta_2$ | əmsal | 96.61504 | 10.03736 | 280.1771 | 160.0798 |
| | Standart xəta | 27.39777 | 14.33766 | 17.45919 | 11.71003 |
| | t-statistika | 3.526383 | 0.700070 | 16.04755 | 13.67031 |
| | P-qiymət | 0.0026 | 0.4889 | 0.0000 | 0.0000 |
| Darbin-Uatson əmsalı | | 1.006674 | 2.366304 | 0.417872 | 0.334501 |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

Tədqiqata cəlb edilən ərəb ölkələri üzrə istehlak həcminin ($cons_t$) və dünya bazarında neft qiymətlərinin ($OİLP_t$) zaman sıralarının stasionarlığı ilə bağlı 1-ci və 2-ci

cədvəldə əldə edilən nəticələri nəzərə alaraq, qeyd edə bilərik ki, qısamüddətli dövr üçün onlar arasındakı cüt reqresiya tənliklərinin analiz edilməsinə ehtiyac yoxdur. Çünki əldə edilən nəticələrin etibarlılığı şübhə doğurur. Lakin bu ölkələr üçün $\boldsymbol{\Delta cons_t}$ zaman sıralarının, həmçinin dünya bazarında neft qiymətlərinin zaman sırasının ($\boldsymbol{\Delta oilp_t}$) I(1) dərəcədən stasionar olduğunu nəzərə alsaq, bu göstəricilər arasındakı əlaqəni

$$\Delta cons_t = \beta_2 * \Delta OİLP_t + u_t$$

kimi cüt reqresiya tənliyi vasitəsilə qiymətləndirə bilərik. Əldə edilən nəticə 3-cü cədvəldə verilmişdir.

**Cədvəl 4**

**Bəzi Ərəb ölkələrində qısamüddətli dövrdə neft qiymətlərinin dəyişməsinin ($\boldsymbol{\Delta OİLP_t}$) istehlak həcminin dəyişməsinə ($\boldsymbol{\Delta cons_t}$) təsirləri**

($\boldsymbol{\Delta cons_t = \beta_2 * \Delta OİLP_t + u_t}$)

| | | **BƏƏ** | **İrak** | **Kuveyt** | S. Ərəbistanı |
|---|---|---|---|---|---|
| $R^2$ | | 0.422419 | 0.014422 | -0.209487 | 0.005755 |
| Müşahidələrin sayı | | 18 | 33 | 30 | 35 |
| $\boldsymbol{\beta_2}$ | əmsal | 96.61504 | 10.03736 | 280.1771 | 160.0798 |
| | Standart xəta | 27.39777 | 14.33766 | 17.45919 | 11.71003 |
| | t-statistika | 3.526383 | 0.700070 | 16.04755 | 13.67031 |
| | P-qiymət | 0.0026 | 0.4889 | 0.0000 | 0.0000 |
| Darbin-Uatson əmsalı | | 1.00667 | 2.36630 | 0.41787 | 0.33450 |

($\boldsymbol{\Delta cons_t = \beta_1 + \beta_2 * \Delta OİLP_t + u_t}$)

| | | **BƏƏ** | **İrak** | **Kuveyt** | S. Ərəbistanı |
|---|---|---|---|---|---|
| $R^2$ | | 0.425454 | 0.014627 | 0.256545 | 0.071066 |
| Müşahidələrin sayı | | 18 | 33 | 30 | 34 |
| $\boldsymbol{\beta_1}$ | əmsal | -144.9353 | 15.68894 | 391.6238 | 250.3596 |
| | Standart xəta | 498.5744 | 195.4474 | 216.6131 | 84.96481 |
| | t-statistika | -0.290699 | 0.080272 | 1.807942 | 2.946627 |
| | P-qiymət | 0.7750 | 0.9365 | 0.0814 | 0.0059 |
| $\boldsymbol{\beta_2}$ | əmsal | 97.41966 | 9.925611 | 48.05661 | 9.839878 |
| | Standart xəta | 28.30236 | 14.63194 | 15.46037 | 6.288902 |
| | t-statistika | 3.442103 | 0.678352 | 3.108375 | 1.564642 |
| | P-qiymət | 0.0033 | 0.5026 | 0.0043 | 0.1275 |
| Darbin-Uatson əmsalı | | 1.006786 | 2.366441 | 1.409590 | 1.002331 |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

4-cü cədvəldə verilmiş nəticələr deməyə əsas verir ki, neft qiymətlərinin dəyişməsinin ($\Delta OİLP_t$) Səudiyyə Ərəbistanı, İrak, BƏƏ və Küveytdə qısamüddətli dövrdə istehlak həcminin dəyişməsinə ($\Delta cons_t$) təsirləri güclü deyil. Yalnız Küveytdə müəyyən səviyyədə əlaqə hiss edilir. Belə qiymətləndirmə zamanı müəyyən olunub ki, BƏƏ, Səudiyyə Ərəbistanı və Küveyt üzrə qiymətləndirmələrdə avtokorrelyasiya yüksəkdir və bu ölkələrdə hər hansı ildəki istehlak xərcləri əvvəlki illərdəki qiymətlərdən müəyyən dərəcədə asılıdır.

Tədqiqata cəlb edilən ölkələr üçün istehlak xərclərinin neft qiymətlərindən asılılığı qəsamüddətli dövr üçün əhəmiyyətli olmasa da uzunmüddətli dövr üçün əhəmiyyətli hesab edilə bilər. Belə ki, 5-ci cədvəldə

Səudiyyə Ərəbistanı üzrə həm istehlak xərclərinin, həm də belə xərclərin dəyişməsinin neft qiymətləri və onun dəyişməsi ilə kointeqrasiya analizinin nəticələri verilmişdir. Əldə edilən nəticələrə əsasən iddia edə bilərik ki, Səudiyyə Ərəbistanında istehlak xərcləri uzunmüddətli dövrdə neft qiymətlərindən asılıdır. Neft qiymətlərinin artması istehlak xərclərini artırır.

**Cədvəl 5**

**Uzunmüddətli dövrdə neft qiymətlərinin və onun dəyişməsinin Səudiyyə Ərəbistanında istehlak həcminə və onun dəyişməsinə təsirləri**

| | | | $OİLP_t$ | | | | $\Delta OİLP_t$ | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan |
| $cons_t$ | $R^2$ | | -0.0083 | 0.4384 | 0.806507 | $\Delta cons_t$ | -0.2257 | 0.0786 | 0.191809 |
| | $\beta_1$ | əmsal | - | 4168.130 | 2740.936 | | - | 255.9055 | -49.6393 |
| | | Standart xəta | - | 1137.487 | 847.6248 | | - | 111.3750 | 204.1963 |
| | | t-statistika | - | 3.664333 | 3.233666 | | - | 2.297694 | -0.2431 |
| | | P-qiymət | - | 0.0009 | 0.0029 | | - | 0.0285 | 0.8096 |
| | $\beta_2$ | əmsal | 169.4766 | 98.96111 | 18.00368 | | 13.40385 | 11.63449 | 15.25105 |
| | | Standart xəta | 17.33579 | 21.53927 | 20.76642 | | 10.49165 | 8.132879 | 6.973622 |
| | | t-statistika | 9.776113 | 4.594450 | 0.866962 | | 1.277573 | 1.430550 | 2.186962 |
| | | P-qiymət | 0.0000 | 0.0001 | 0.3926 | | 0.2106 | 0.1626 | 0.0367 |
| | trend | əmsal | - | - | 266.9211 | | - | - | 17.13813 |
| | | Standart xəta | - | - | 58.75724 | | - | - | 10.01968 |
| | | t-statistika | - | - | 4.542778 | | - | - | 1.710447 |
| | | P-qiymət | - | - | 0.0001 | | - | - | 0.0975 |
| | Uzunmüddətli varians | | 28496832 | 12154623 | 5523291 | | 681220.9 | 408546.1 | 295720.3 |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

Səudiyyə Ərəbistanı üçün 5-ci cədvəldə əldə edilən nəticələr BƏƏ üçün 6-ci cədvəldə verilmiş nəticələrə uyğundur. Belə ki, BƏƏ üçün də neft qiymətlərinin artması istehlak xərclərini artırır. BƏƏ istehlak xərclərinin neft qiymətlərindən qısamüddətli dövrdə deyil, uzunmüddətli dövrdə asılılığı, böyük ehtimalla, neft rentasının ÜDM-dəki payının neftlə zəngin digər ərəb ölkələri ilə müqayisədə qədər də yüksək olmaması ilə bağlıdır. Belə ki, son illərdə BƏƏ –nin ÜDM həcmində neft rentasının payı 16% ətrafındadır.

İrak üçün bu iki göstərici arasındakı əlaqənin xarakteri S.Ərəbistanı və BƏƏ üçün

olan əlaqədən fərqlənir. Lakin üzunmüddətli dövr üçün bu ölkədə neft qiymətlərindən asılılıq güclüdür. İrakda da neft qiymətlərinə istehlak xərcləri pozitiv cavab verir. Neft qiymətlərinin artması ilə istehlak xərcləri də artır. İrakda da neft rentasının ÜDM-də payı çox yüksəkdir. Son illərdə bu pay 30%-dən yüksəkdir. İstehlak xərclərinin həcminin neft qiymətlərindən asılılığı da bu faktdan çox asılıdır.

**Cədvəl 6**

**Uzunmüddətli dövrdə neft qiymətlərinin və onun dəyişməsinin BƏƏ istehlak həcminə və onun dəyişməsinə təsirləri**

| | | | $OİLP_t$ | | | | $\Delta OİLP_t$ | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan | | Kəsişmə və trend olmayan | Kəsişmə olan, amma trend olmayan | Həm kəsişmə, həm də trend olan |
| $const_t$ | $R^2$ | | -4.5886 | 0.486636 | 0.223429 | $\Delta const_t$ | 0.410414 | 0.417189 | 0.476143 |
| | | əmsal | - | 27160.88 | 25667.28 | | - | -184.97 | -1320.7 |
| | $\beta_1$ | Standart xəta | - | 4557.599 | 3339.042 | | - | 694.3208 | 1603.265 |
| | | t-statistika | - | 5.959470 | 7.687019 | | - | -0.2664 | -0.8238 |
| | | P-qiymət | - | 0.0001 | 0.0000 | | - | 0.7936 | 0.4239 |
| | $\beta_2$ | əmsal | 300.7476 | 27160.88 | -21.5385 | | 78.46925 | 79.96348 | 94.79643 |
| | | Standart xəta | 43.27469 | 4557.599 | 46.70275 | | 37.20998 | 38.30387 | 38.93708 |
| | | t-statistika | 6.949735 | 5.959470 | -0.4612 | | 2.108823 | 2.087608 | 2.434606 |
| | | P-qiymət | 0.0000 | 0.0001 | 0.6513 | | 0.0511 | 0.0543 | 0.0289 |
| | trend | əmsal | - | - | -246.308 | | - | - | 112.1611 |
| | | Standart xəta | - | - | 205.4032 | | - | - | 143.3486 |
| | | t-statistika | - | - | -1.1991 | | - | - | 0.782436 |
| | | P-qiymət | - | - | 0.2491 | | - | - | 0.4470 |
| | Uzunmüddətli varians | | 1.62E+08 | 1950561 | 19073309 | | 7733977.0 | 8113459. | 7692305. |

Qeyd: müəllif tərəfindən eViews proqram paketi vasitəsilə hesablanıb

Küveytin neft rentasının ÜDM-də payı çox yüksəkdir. Son illərdə bu çəki 40% ətrafındadır və neftin dünya qiymətindən asılı olaraq dəyişir. Elə buna görə də neft qiymətlərinin hər hansı istiqamətdə dəyişməsi Küveytdə istehlak xərclərinin həcminə təsir edir. Küveytdə istehlak xərcləri ilə neft qiymətlərinin uzunmüddətli dövrdə pozitiv əlaqəsi mövcuddur.

**Nəticə**

Səudiyyə Ərəbistanında istehlak xərcləri uzunmüddətli dövrdə neft qiymətlərindən asılıdır. Neft qiymətlərinin artması istehlak xərclərini artırır. BƏƏ üçün də neft qiymət-

lərinin artması istehlak xərclərini artırır. BƏƏ istehlak xərclərinin neft qiymətlərindən qısamüddətli dövrdə deyil, uzunmüddətli dövrdə asılılığı, böyük ehtimalla, neft rentasının ÜDM-dəki payının neftlə zəngin digər ərəb ölkələri ilə müqayisədə qədər də yüksək olmaması ilə bağlıdır. Lakin üzünmüddətli dövr üçün bu ölkədə neft qiymətlərindən asılılıq güclüdür. İrakda da neft qiymətlərinə istehlak xərcləri pozitiv cavab verir. Neft qiymətlərinin artması ilə istehlak xərcləri də artır.

### ƏDƏBİYYAT SİYAHISI:

1. Dayong Zhang David C. Broadstock, 2014. Impact of International Oil Price Shocks on Consumption Expenditures in ASEAN and East Asia. ERIA-DP-2014-24
2. Andrea De Michelis, Thiago Ferreira, and Matteo Iacoviello, 2020. Oil Prices and Consumption across Countries and U.S. States. *International Journal of Central Banking.* Vol. 16 No. 2
3. Yu Shan Wang, 2013. Oil price effects on personal consumption expenditures. Energy Economics 36 (2013) 198–204
4. US EİA, 2022. https://www.eia.gov/dnav/pet/hist/LeafHandler.ashx?n=pet&s=rwtc&f=a
5. WB, 2022. www.data.worldbank.org

**Фирудин Эльдар оглы ХАТАМОВ**
Диссертант Института Востоковедения НАНА

## ОЦЕНКА ВЛИЯНИЯ СКАЧКОВ ЦЕН НА НЕФТЬ НА СОВОКУПНОЕ ПОТРЕБЛЕНИЕ В СТРАНАХ БЛИЖНЕГО ВОСТОКА

### РЕЗЮМЕ

В статье исследуется влияние шоков цен на нефть на совокупное потребление в Саудовской Аравии, Кувейте и Объединенных Арабских Эмиратах. Автор приходит к выводу, что потребительские расходы в Саудовской Аравии в долгосрочной перспективе зависят от цен на нефть. Рост цен на нефть увеличивает потребительские расходы. Для ОАЭ рост цен на нефть увеличивает потребительские расходы. Зависимость потребительских расходов ОАЭ от цен на нефть в долгосрочной, а не в краткосрочной перспективе, скорее всего, связана с тем, что доля нефтяной ренты в ВВП не так высока по сравнению с другими богатыми нефтью арабскими странами. Однако в долгосрочной перспективе зависимость от цен на нефть в этой стране сильная. В Ираке потребительские расходы также положительно реагируют на цены на нефть. С ростом цен на нефть растут и потребительские расходы.

**Ключевые слова:** *цены на нефть, экономический рост, объем потребления, нефтяная рента.*

**Firudin Eldar HATAMOV**
Candidate for PhD degree,
the Institute of Oriental Studies of ANAS

# ESTİMATİNG THE İMPACT OF OİL PRİCE SHOCKS ON AGGREGATE CONSUMPTİON İN MİDDLE EASTERN COUNTRİES

## SUMMARY

In the paper is investigated the impact of the oil price shocks on aggregate consumption in Saudi Arabia, Kuwait and the United Arab Emirates. The author concludes that consumer spending in Saudi Arabia depends on oil prices in the long run. Rising oil prices increase consumer spending. For the UAE, the increase in oil prices increases consumer spending. The dependence of UAE consumer spending on oil prices in the long term rather than in the short run is most likely due to the fact that the share of oil rent in GDP is not that high compared to other oil-rich Arab countries. However, for the long run, dependence on oil prices in this country is strong. In Iraq, consumer spending also responds positively to oil prices. With the increase in oil prices, consumer spending also increases.

**Key words**: *oil prices, economic growth, consumption volume, oil rent*

**Səbuhi Mübariz oğlu ABBASOV**
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: sebuhi.finance@gmail.com

# ANTİİNFLYASİYA YÖNÜMLÜ PUL-KREDİT SİYASƏTİNİN NƏZƏRİ ASPEKTLƏRİ

**Xülasə**

Tədqiqat zamanı müxtəlif iqtisadi məktəblərin inflyasiya ilə bağlı səsləndirdikləri fikirlər öyrənilmiş, onlar tərəfindən səsləndirilən inflyasiya nəzəriyyələri və ortaya qoyulan antiinflyasiya vasitələri araşdırılmışdır. Qeyd olunan fikirlər ümumiləşdirilərək vahid nəticəyə gəlinməyə çalışılmış, tarixən antiinflyasiya yönümlü nəzəriyyələrin ideoloji baxımdan necə fərqlilik göstərdiyi müşahidə edilmişdir. Məqalədə həmçinin müasir şəraitdə inflyasiya dərəcələrini aşağı həddə saxlamaq üçün atılan addımlar nəzəri aspektdən qiymətləndirilmişdir.

**Açar sözlər:** pul-kredit siyasəti, inflyasiya, antiinflyasiya siyasəti, iqtisadi nəzəriyyə, iqtisadi məktəblər.

**UOT**: 336.7
**JEL**: – E52

## Giriş

Pul-kredit siyasətinin əsas məqsədi milli valyutanın möhkəmliyini və dayanıqlılığını təmin etmək, onun dəyərini qoruyub saxlamaqla iqtisadi sabitliyə nail olmaqdır. Buna görə də, inflyasiya ilə mübarizə aparılması və təsirli antiinflyasiya siyasətinin qurulması baxımından pul-kredit siyasəti əvəzsiz rola malikdir. Antiinflyasiya siyasəti dedikdə inflyasiya probleminin həllinə yönəldilmiş tədbirlər toplusu və onlar üzərində nəzarət başa düşülür.[1] Müxtəlif iqtisadi şəraitdən, coğrafiyalardan və iqtisadi dövrlərdən asılı olaraq həm inflyasiyanın, həm də onun həllinə istiqamətlənən antiinflyasiya siyasətinin strukturu müxtəliflik göstərir. İEÖ-nün iqtisadiyyatı və milli valyutaları inflyasiyaya daha dayanıqlı olması baxımından İOÖ-dən xeyli fərqlənir. İnkişaf etməkdə olan ölkələr xüsusilə də ikinci dünya müharibəsindən sonra güclü iqtisadiyyata malik ölkələrlə rəqabətə girməyə çalışmış və iqtisadi inkişaf əldə etmək istəmişdilər. Yüksək texnologiyaya və spesifik iqtisadi modellərə sahib olan Koreya, Çin kimi bir sıra uzaq şərq ölkələri bunu bacarmışdırlar.

**Mövzunun aktuallığı.** Post-müharibə dövründə İOÖ-nün çoxu iqtisadiyyatlarını qurarkən inflyasiyaya lazım olan diqqəti verməmiş, hətta bəzi ölkələr iqtisadiyyatını qurarkən inflyasiyadan alət kimi istifadə etməyə çalışmışdır. Lakin sonralar inflyasiyanın davamlı inkişaf qarşısında ən böyük əngəl olduğu, milli valyutaya zərbə vuraraq daxili və xarici borcu artırdığı, insanların pul itirməsinə səbəbiyyət verdiyindən rifah səviyyəsini aşağı saldığı ortaya çıxmışdır. Antiinflyasiya siyasəti də məhz bu zərurətdən yaranmış və inkişaf etdirilmişdir. Bu baxımdan nəzəri olaraq antiinflyasiya yönümlü pul-kredit siyasətini tətqiq etmək olduqca vacibdir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədi müxtəlif tarixi dövrlərdə və şəraitlərdə iqtisadi məktəblərin antiinflyasiya yönümlü pul-kredit siyasətinə dair səsləndirdikləri fikirləri öyrənmək və zəruri

məqamları bir elmi işdə cəmləyərək nəticə əldə etməkdir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti rolunda müxtəlif ölkələrin antiinflyasiya siyasətlərinin nəzəri quruluşu, iqtisadi məktəblərin antiinflyasiya yönümlü fikirləri, o cümlədən monetarist iqtisadi fikirlər çıxış etmişdir.

**Tədqiqatın metodları.** Tədqiqat işində sistemli yanaşma, nəzəri əsaslandırma, müşahidə, təhlil, məntiqi ümumiləşdirmə və digər metodlar tədbiq edilmişdir.

**Materiallar və müzakirələr**

Antiinflyasiya yönümlü pul-kredit siyasətinin nəzəri aspektlərinə baxan zaman müxtəlif iqtisadi dövrlərdə iqtisadi məktəblərin inflyasiya haqda hansı fikirdə olduqlarını nəzərdən keçirmək xüsusi önəmə sahibdir. Çünki istənilən iqtisadiyyatlarda antiinflyasiya tədbirləri işlənib hazırlanmazdan əvvəl mütləq həmin iqtisadiyyata xas inflyasiyanın forması, yaranma səbəbləri, strukturu, təsir obyektləri və s. kimi amillər araşdırılır. İnflyasiya anlayışını daha aydın başa düşmək və antiinflyasiya siyasətinin nəzəri yanaşmalarını fərqləndirmək baxımından müxtəlif fikirlərə nəzər salmaq xeyli əhəmiyyətlidir. İnflyasiya və antiinflyasiya nəzəriyyələri iqtisadi məktəblərə uyğun olaraq aşağıdakı kimi qruplaşdırılır [2]:

1. Klassik iqtisadi məktəbin yanaşmaları, inflyasiyanın klassik modeli.
2. Neo-Klassik yanaşmalar.
3. Keynsçi yanaşmalar, inflyasiyanın Keyns təlimi.
4. Neo-Keynsçi yanaşmalar.
5. İnflyasiyanın strukturalist nəzəriyyəsi.
6. İnflyasiyanın fiskal nəzəriyyəsi.
7. Monetarist inflyasiya nəzəriyyələri.

Klassik iqtisadi məktəbin fikirləri 1929-cu ildə başlayan "Böyük iqtisadi böhran"a qədər aktuallığını qoruyub saxlamışdır. İqtisadiyyatın ilk dəfə bir elm şəklində formalaşdırılması və sistemləşdirilməsi baxımından klassik iqtisadi məktəbin rolu əvəzsizdir. İlk klassik iqtisadçılar Adam Smith, John Stuart Mill, David Ricardo və Jean-Baptiste Say iqtisadiyyatın bir çox sahəsinə toxunmuş və ilk əsaslı iqtisadi nəzəriyyələrin formalaşdırılmasında iştirak etmişdilər. Klassik iqtisadçılar inflyasiya və onunla mübarizə istiqamətində də bir sıra fikirlər səsləndirmişdilər. İnflyasiya haqda ilk əsaslı nəzəriyyə pul miqdarı nəzəriyyəsi hesab olunur. Bu nəzəriyyə ilk dəfə XVI əsrdə Jean Bodin tərəfindən səsləndirilmiş, daha sonralar David Ricardo tərəfindən inkişaf etdirilərək nəzəriyyə şəklini almışdır. Pulun miqdar nəzəriyyəsinə görə bir ölkə iqtisadiyyatında mövcud bazar qiymətləri dövriyyədə olan pulun həcmindən asılıdır. Dövriyyədə pul nə qədər çox olarsa alıcılıq qabiliyyəti yüksələr və tələb artar, bu da qiymətlərin bahalaşmasına və pulun dəyərinin düşməsinə gətirib çıxarar. Pulun miqdar nəzəriyyəsi bir çox zəruri amil nəzərə alınmadan səthi şəkildə ifadə olunsa da özlüyündə bir xeyli tutarlı və əsaslı bir yanaşmadır. Bu nəzəriyyə sonralar digər iqtisadçılar, xüsusilə də neoklassik iqtisad məktəbinin nümayəndələri tərəfindən inkişaf etdirilmişdir. Pulun miqdar nəzəriyyəsinin tam şəkildə reallaşdırılması üçün əsas dörd amil mövcud olmalıdır: Birincisi, ölkə iqtisadiyyatında tam rəqabətlilik təmin olunmuş olmalıdır; ikincisi, pulun əsas funksiyası mübadilədir və operativ xarakter daşıyır - pulun ayrılıqda heç bir dəyəri yoxdur; üçüncüsü, iqtisadi subyektlərin hər biri tam rasional olmalı və bu şəkildə davranmalıdırlar – cari vəziyyət haqda tam şəkildə məlumatlı olmalı, istehlakçılar maksimum fayda, istehsalçılar isə maksimum mənfəət əldə etmək üçün addımlar atmalıdırlar; dördüncüsü, ölkə iqtisadiyyatında mütləq tələb və təklif ara-

sında tarazlıq olmalıdır, Jean-Baptiste Say tərəfindən irəli sürülən *"hər təklif öz tələbini yaradır"* qanunu keçərli olmalıdır. Bu qeyd etdiyimiz amillərin hər birinin mövcud olduğu iqtisadiyyatlarda klassiklərin fikrinə görə inflyasiya pul təklifinin artıq olması səbəbindən yaranacaqdır. Bununla mübarizə vasitəsi kimi də pulun miqdarının azaldılması, pul təklifinin lazımi səviyyəyə salınmasına istiqamətlənmiş antiinflyasiya siyasətinin işlənib hazırlanması göstərilir.

Neoklassik iqtisadi məktəbin nümayəndələri əsasən özlərindən əvvəl mövcud olan klassik iqtisadi məktəbin fikirlərini alaraq inkişaf etdirmişdilər. Bu baxımdan neoklassik iqtisadçılar arasında Alfred Marshall, Irving Fisher, Leon Walras, Arthur Pigou kimi iqtisadçılar xüsusilə fərqləndirilir. Onlar əvvəl qeyd etdiyimiz inflyasiyanın pulun miqdar nəzəriyyəsini alaraq daha da inkişaf etdirmiş, riyazi bərabərsizliklər vasitəsilə modelini işləyib hazırlamışdırlar. Fisher bu baxımdan aşağıdakı bərabərsizliyi təklif etmişdir:

$$M*V=P*T \qquad (1)$$

Bu bərabərsizlikdə, M – pul təklifini, V – pulun tədavül sürətini, P – qiymətlərin səviyyəsini, T isə ümumi transaksiyaların həcmini bildirir. Bu bərabərsizlikdə pul təklifi (M) və qiymətlər (P) arasında asılılığı daha aydın görmək üçün komponentlər arasında yerdəyişmə etsək aşağıdakı bərabərsizliyi alarıq:

$$P=(V/T)*M \qquad (2)$$

Göründüyü kimi qiymətlərlə pul təklifi arasında birbaşa asılılıq vardır. Bu da klassik inflyasiya nəzəriyyəsinin əsasını formalaşdıran *"pul təklifi nə qədər çoxdursa qiymətlər də bir o qədər yüksək olacaq"* fikrini riyazi şəkildə əsaslandırır. Klassiklər tərəfindən (2) saylı düsturda V və T sıfıra bərabər fərz edildiyindən, inflyasiya sadəcə pul təklifinin səbəbiyyət verdiyi bir iqtisadi hadisə kimi xarakterizə edilir. Buna bənzər digər bir mənzərəni də A.Marshall tərəfindən irəli sürülən "Cambridge pul tələbi" nəzəriyyəsində müşahidə etmək mümkündür:

$$M=k*P*T \qquad (3)$$

Cambridge nəzəriyyəsini Fisher nəzəriyyəsindən ayıran yeganə fərq odur ki, burada pulun tədavül sürəti (V) əvəzinə insanların əllərində saxladıqları pulun onların ümumi gəlirlərinə nisbətini əks etdirən *k* əmsalından istifadə olunmuşdur. Nəticə etibarı ilə həm klassiklər, həm də neoklassiklər inflyasiya ilə mübarizənin ən effektiv yolu kimi pul təklifinin azaldılmasını görürdülər. Onların fikrincə antiinflyasiya siyasəti aparılarkən dövriyyədə olan pulun miqdarını aşağı salmaq və bununla da pulun dəyərinin artmasına nail olmaq lazımdır. [4]

İnflyasiya və onunla mübarizə haqqında digər əsaslı fikirlərdən birinin müəllifi kimi John Maynard Keynes çıxış etmişdir. Xüsusilə 1929-cu ildə baş vermiş böyük iqtisadi böhran zamanı klassik iqtisadi məktəbin fikirlərinin kifayət qədər təkmil olmadığını və mürəkkəb iqtisadi vəziyyətlərdə öz reallığını tapmadığını müşahidə edən Keyns klassiklərin fikirlərinə etiraz olaraq öz nəzəriyyələrini formalaşdırmış və beləliklə iqtisadiyyat elmində Keynsçi məktəbin əsasını qoymuşdur. Keynsin ilk etirazı pul təklifindəki artıqlığın birbaşa inflyasiyaya səbəbiyyət verməsinə qarşı olmuşdur. Onun fikrincə bu yalnız tam işsizlik səviyyəsinin əldə olunduğu halda mümkün ola bilər. Çünki bazarda qiymətlərin formalaşması dövriyyədə olan pulun miqdarından çox işsizlik səviyyəsindən asılıdır. Keyns inflyasiyaya baxarkən əsas amillər kimi əməkhaqqı, qiymət və faiz dərəcələrini nəzərdən keçirmişdir. Keynsə görə əməkhaqqı səviyyəsinin aşağı salınması istehlak xərclərini aşağı salacaq, məhsul satışı

azaldığından şirkətlər işçiləri ixtisar etməli olacaq və işsizlik səviyyəsi artacaq. Bu proseslər də birbaşa bazarda qiymətlərə təsir edəcək. Pulun miqdarından çox işsizlik səviyyəsi qiymətlərə və inflyasiyaya təsir göstərəcəkdir.

Ümumiyyətlə Keyns inflyasiyanın iki növünü xüsusilə fərqləndirmişdir: Bunlardan birincisi qiymətlərin təbii artması ilə xarakterizə olunan inflyasiya növüdür, bu zaman qiymətlərin artımı iqtisadi zərurətdən yaranır; ikincisi isə iri şirkətlər arasında rəqabətdən qaynaqlanan süni qiymət artımı ilə xarakterizə olunan inflyasiya növüdür.

Keynsin klassik iqtisadçılarla fikir ayrılığına düşdüyü bir digər məsələ isə pul ilə bağlıdır. Klassiklərin əksinə Keyns pulu sadəcə bir tədavül vasitəsi kimi görmürdü. Onun fikrincə pul həm də ehtiyat vasitəsi kimi saxlanılır və spekulyativ məqsədlər üçün aktiv bir şəkildə istifadə olunur. İqtisadi subyektlər gələcək dövrlər üçün gözlənti içində olurlar və gözləntilərinin yaxşı və ya pis olmasına uyğun olaraq əllərindəki pulu ehtiyat kimi saxlayırlar. Bu ehtiyatların dəyərləndirilməsi birbaşa faiz dərəcələrindən asılıdır və dövriyyədəki pul miqdarına əsaslı şəkildə təsir edir. Keyns gələcək dövr üçün inflyasiya proqnozlaşdırılması aparılarkən və ya antiinflyasiya siyasəti formalaşdırılarkən bu məsələnin diqqətə alınmasının önəmini xüsusən vurğulamışdır. Keynsə görə insanlar əlində nə qədər çox pul saxlasalar bu işsizlik səviyyəsini bir o qədər artıracaqdır. Hətta bu məsələnin önəmini vurğulamaq üçün Keyns demişdir: "Nə zaman ki, kənara 5 şillinq pul qoyursunuz, bir adamı bir günlük işindən etmiş olursunuz"

Keynsin fikirləri daha sonralar neokeynçi iqtisad məktəbinin nümayəndələri tərəfindən inkişaf etdirilmişdir. Keynsin hər zaman önəmlə vurğuladığı inflyasiya və işsizlik arasındakı əlaqə ilk dəfə Alban William Phillips tərəfindən modelləşdirilmişdir. Bu model iqtisadi ədəbiyyatlara "Phillips əyrisi" adı ilə düşmüşdür. Phillips əyrisi daha sonralar Robert Sollow və Paul Samuelson kimi iqtisadçılar tərəfindən inkişaf etdirilmişdir. Phillips əyrisinə görə işsizlik ilə inflyasiya arasında qarşılıqlı tərs bir əlaqə vardır, inflyasiya səviyyəsi nə qədər yüksəkdirsə işsizlik səviyyəsi bir o qədər aşağıdır və ya əksinə aşağı inflyasiya səviyyəsində işsizlik bir o qədər yüksək olacaqdır. Phillips əyrisi aşağıdakı şəkildədir şəkil 1.




Şəkil 1: Phillips əyrisi

XX əsrin 60-cı illərindən etibarən iqtisadiyyatda həm yüksək işsizlik, həm də yüksək inflyasiyanın xarakterik olduğu staqflyasiya halları müşahidə olundu. Bu hal istər Phillips əyrisi timsalında neokeynsçi nəzəriyyələr, istərsə də digər neoklassik nəzəriyyələrlə izah oluna bilmədi. Bu da öz növbəsində yeni iqtisadi məktəb olan Monetarist iqtisadi məktəbin yaradılmasını zəruri etdi. Monetarist iqtisadi məktəb ölkədə baş verən iqtisadi prosesləri pul və faiz aspektindən təhlil edən və bu istiqamətdən yanaşan iqtisadi fikir məktəbidir. Monetaristlərin inflyasiya və antiinflyasiya siyasəti ilə bağlı səsləndirdikləri fikirlər mövzu ilə daha çox əlaqədar olduğundan əvvəlcə strukturalist və fiskal nəzəriyyələrə toxunmaq daha məqsədəuyğun olardı.

İnflyasiyanın strukturalist nəzəriyyəsi struktural və neo-struktural olmaqla iki versiyada təqdim olunmuşdur. Bunlardan ilk versiya olan struktural yanaşma XX əsrin 60-cı illərində Latın Amerikalı iqtisadçılar tərəfindən ikinci dünya müharibəsindən sonra Latın Amerikası ölkələrində baş vermiş yüksək qiymət artımını və onunla mübarizə yollarını xarakterizə etmək üçün ortaya atılmışdır. İkinci versiya olan neo-strukturalist yanaşma isə Skandinaviya ölkələrinə xas olub XX əsrin 70-ci illərindən etibarən iqtisadi ədəbiyyatlara daxil edilmişdir. Ümumiyyətlə strukturalist inflyasiya nəzəriyyəsi daha sonra ətraflı şəkildə bəhs edəcəyimiz monetarist iqtisadi görüşə qarşı olaraq ortaya atılmışdır. Strukturalist nəzəriyyəyə görə inflyasiyada iki amil xüsusilə fərqləndirilməli və diqqətə alınmalıdır: Bunlardan birincisi inflyasiyanın səbəbləridir; ikinci amil isə inflyasiyanın inkişaf etmə, yayılma mexanizmidir.

Strukturalist nəzəriyyəyə görə "inflyasiyanın yaranma səbəbi yalnız pul təklifindəki artım və ya məcmu tələbdəki artışdır" deyən iqtisadi nəzəriyyələr yanılırlar. Strukturalistlərin fikrincə məsələyə daha geniş aspektdən yanaşmaq iqtisadi strukturun hər bir həlqəsinin inflyasiyadakı rolunu müəyyən etmək, sosial iqtisadi sistemin təməllərini daha diqqətlə tədqiq etmək lazımdır. İnflyasiyanın səbəbi, genişlənmə mexanizmi və onunla mübarizə yolları müəyyənləşdirilən zaman ümümilikdə ölkədəki hüquq sistemi, əhalinin sosial tərkibi, əhalinin bölgədə məskunlaşma səviyyəsi, texnologiyanın hansı səviyyədə inkişaf etmiş olması, ölkə iqtisadiyyatının nə qədər müstəqil və ya digər ölkələrdən asılı olması, gəlir bölgüsü, təbii resursların bol və ya məhdud olması, effektiv vergi sisteminin mövcudluğu, iqtisadi savadlılıq və qənaət səviyyəsi, ayrı-ayrı iqtisadi subyektlərin davranışı və sair kimi bir çox amil struktural şəkildə nəzərdən keçirilməli və qiymətləndirilməlidir. Əlbəttə ki, strukturalist nəzəriyyə inflyasiyada pulun rolunu tam şəkildə təkzib etmir. Monetaristlər pul təklifini inflyasiyaya səbəb olan əsas amil kimi dəyərləndirirdilər, strukturalistlər isə əksinə inflyasiyanın pul təklifində artıqlığa səbəb olduğunu deyirdilər (inflyasiya halında məcmu tələb artır, bu da birbaşa pul təklifinin artmasına səbəbiyyət verir). Onların fikrincə pul sadəcə vasitə rolunu oynayır. Strukturalist nəzəriyyə tərəfdarları bildirirlər ki, ölkə iqtisadiyyatında tam tarazlıq əldə edildikdə bu zaman inflyasiya monetarist modellər vasitəsilə izah oluna bilər, lakin əksər hallarda bu tarazlığa nail olmaq mümkün olmur həmin qeyri-tarazlıq şəraitində inflyasiya yalnız strukturalist modellər tərəfindən effektiv şəkildə qiymətləndirilə bilər.

İnflyasiyanın digər bir nəzəriyyəsi də fiskal nəzəriyyədir. Fiskal nəzəriyyə inflyasiyanın təbiətini və onunla mübarizə yollarını ölkənin mövcud vergi və büdcə sistemi aspektindən tədqiq edir. Ümumi mənada fiskal nəzəriyyə vergi dərəcələrinin və büdcə xərclərinin artırılıb azaldılması yolu ilə inflyasiya ilə mübarizə aparılmasına nail olmaq məqsədi daşıyır. Keynsçi iqtisadi məktəbin müasir nümayəndələri tərəfindən təklif olunan fiskal antiinflyasiya nəzəriyyəsi fəal büdcə siyasətinin aparılması ilə xarakterizə olunur. Bu siyasət ilk növbədə dövlətin vergilərin səviyyəsini artırması və büdcə xərclərini azaltması şəklində özünü göstərir. Bu tədbirlərin nəticəsi kimi tələb azalır, qiymətlər aşağı düşür və inflyasiya səviyyəsi də aşağı çəkilmiş olur. Fiskal antiinflyasiya siyasətinin ən böyük mənfi cəhəti bəzi hallarda ölkə iqtisadiyyatında durğunluğa gətirib çıxara bilməsidir. Belə ki, vergilərin artırılması sahibkarlıq fəaliyyətinin zəifləməsinə, bu da öz növbəsində investisiyanın

və istehsalın azalmasına səbəb ola bilər. Bir çox sosial sahə üzrə büdcə xərclərinin azaldılması rifah səviyyəsinin aşağı düşməsinə, istehsalatın zəifləməsi təsərrüfat subyektlərində işçi ixtisarlarına və işsizlik səviyyəsinin yüksəlməsinə gətirib çıxara bilər.

Fiskal antiinflyasiya siyasəti nəzəri olaraq uzunmüddətli və qısamüddətli dövr üçün fərqləndirilir. Qabaqcıl iqtisadiyyata sahib İEÖ-nün təcrübəsinə əsaslanaraq deyə bilərik ki, bu iki dövrün əlaqələndirilərək fiskal tədbirlərin kompleks şəkildə icra edilməsi xüsusi önəm daşıyır. Qısamüddətli siyasət müvəqqəti xarakter daşıyır və qısa müddətə sürətli şəkildə inflyasiyanın aşağı salınmasını hədəfləyir. Qısamüddətli tədbirlərə vergilərin stimullaşdırılması, istehsalatın artırılması üçün təsərrüfat subyektlərinə vergi güzəştlərinin verilməsi, büdcə gəlirinin və xərcinin tarazlaşdırılması kimi bir sıra amillər aid edilir. Uzunmüddətli siyasətə dövlət büdcəsinin xərclərinin əsaslı şəkildə azaldılması, vergilərin artırılması, vergilərin tərkibində dolayı vergilərin çəkisinin artırılması və vergi hesabına büdcə kəsrinin minimum səviyyədə saxlanılması kimi tədbirlər aid edilir.

Monetarist inflyasiya nəzəriyyələri öz əhəmiyyəti baxımından günümüzdə də aktuallığını qoruyub saxlayır. Təsadüfi deyil ki, müasir pul-kredit siyasəti nəzəriyyəsinin təməlləri ilk dəfə monetaristlərin səsləndirdikləri fikirlər əsasında atılmışdır. İlk dəfə monetaristlər pulun və faizin ölkə iqtisadiyyatında necə önəmə sahib olduğunu vurğulamış, inflyasiya və işsizlik kimi iqtisadi problemlərin həm yaranmasında həm də həllində pul siyasətinin əhəmiyyətini gözlər önünə sərmişdilər. Monetarizmin iqtisadi məktəb kimi formalaşdırılması 1976-cı il Nobel mükafatına layiq görülmüş amerikalı iqtisadiyyatçı Milton Friedmanın adı ilə bağlıdır. Milton Friedman özünün Anna Schwartz ilə birlikdə yazdığı "A Monetary History of the United States, 1867–1960" ("1867-1960 illərdə Birləşmiş Ştatların Monetarist Tarixi") əsərində "*inflation is always and everywhere a monetary phenomenon*" (inflyasiya hər zaman və hər yerdə monetar fenomendir) fikirlərini səsləndirərək monetarist inflyasiya nəzəriyyəsinin də əsasını qoymuşdur.

Monetarizm mərkəzi bankların fəaliyyətlərinin və pul təklifinin makroiqtisadi təsirlərinin tədqiqinə yönəlmiş iqtisadi nəzəriyyədir. Monetarist iqtisadi məktəbin nümayəndələri hökümətlərin rolunun düzgün pul-kredit siyasəti aparmaqla iqtisadi inkişafa nail olmaqdakı önəmini xüsusi şəkildə vurğulamışdırlar.

Anna Schwartz və Edmund Phelps kimi ilk monetarist iqtisadiyyatçıların fikrincə ölkə iqtisadiyyatında özəl sektor xarakteri etibarı ilə dövlət sektorundan daha dayanıqlı olduğundan onun iqtisadiyyatı hər hansı iqtisadi geriləmə və ya durğunluq halından sonra elastik bir şəkildə əvvvəlki vəziyyətinə qayıdır və bununla da ümumi işsizlik səviyyəsi də lazımi həddə geri dönür. Bunun əsas səbəbi kimi özəl sektorda təsərrüfat subyektlərinin baş verən iqtisadi proseslərə daha aktiv bir şəkildə reaksiya verməsi, vəziyyəti öyrənməsi və öz fəaliyyətinə uyğun ən rasional addımı atması göstərilir. Sırf bu baxımdan ölkə iqtisadiyyatında sabitliyin əldə olunmasında hökumətin rolunu xüsusilə vurğulamış, effektiv pul-kredit siyasətinin önəmini ayrıca qeyd etmişdirlər. [5]

İnflyasiyanın səbəbinin hər zaman pul olduğunu irəli sürən monetaristlər onun klassiklər tərəfindən pul miqdarı nəzəriyyəsi vasitəsilə izah edilməsini qəbul etmir, özlərinin pula tələb nəzəriyyəsi vasitəsilə izah olunmasını təklif edirdilər. Monetaristlərə görə pul tələbi klassiklərin qeyd etdiyi kimi sabit bir əmsal deyil, sərvət sahiblərinin akti-

vində yer alan bir varlıq kimi dəyərləndirilməlidir. Tələb olunan pul miqdarı bir sıra dəyişilənin daxil edildiyi mürəkkəb bir düstur şəklində nəzərdən keçirilməli, bu bərabərsizlik formalaşdırılarkən pul təklifi və qiymət səviyyəsi ilə yanaşı nominal gəlir səviyyəsi, tələb edilən pul miqdarı, qeyri bəşəri sərvətin (və ya mülkiyyətdən əldə edilən gəlirin) həcmi, bir sıra aktivlərin və pulun gətirdiyi fayda kimi amillər nəzərə alınmalıdır. Monetaristlər sözügedən bərabərsizliyi aşağıdakı şəkildə vermişdirlər:

$$\frac{M}{P} = f\left( y, w; r_m, r_b, r_e, \frac{1}{P}\frac{dP}{dt}; u \right)$$

Burada, M – pul təklifini, P – qiymətlərin səviyyəsini, y – nominal gəliri, w – qeyri bəşəri sərvəti, r – aktivlərin verdiyi fayda miqdarını, 1/P*dP/dt – proqnoz olunan qiymət dəyişikliyi miqdarını, u – gəlir sayılmayan digər dəyişilənlərin məcmu miqdarını bildirir.

Monetaristlərin fikrincə pul təklifi hər hansı bir səbəbdən artarsa bankların və iqtisadi subyektlərin əlində lazım olandan artıq pul cəmləşmiş olacaq. Belə olan halda həmin subyektlər əllərində olan artıq pul ilə yeni aktivlər almaq istəyəcəklər və bu da bazarda aktivlərin qiymətini artıracaq, əlindəki pulu kredit şəklində vermək istəyən bankların təşəbbüsü ilə isə faiz dərəcələri aşağı enəcək. . Real sektor bundan təsirlənəcək, mal və xidmətlər bazarında da qiymət artımı müşahidə olunacaq, pulun real dəyəri düşəcək. Nəticə etibarı ilə, qeyd edilən inflyasiya halı faiz dərəcələrinin yenə əvvəlki həddə yüksələcəyi və real pulda tələb-təklif tarazlığı yaranacağı ana qədər davam edəcək. Odur ki, bunu nəzərə alan hökumətlər antiinflyasiya yönümlü pul-kredit siyasəti yeridən zaman ilk növbədə faiz dərəcələrini artırırlar və beləliklə təsərrüfat subyektlərinin əlində daha az pul cəmləşməsinə nail olurlar, bu da öz növbəsində pulun real dəyərinin artmasına gətirib çıxarır. Pul-kredit siyasətinin bir vasitəsi hesab olunan faiz dərəcələrinin artırılması inflyasiya ilə mübarizə baxımından xeyli effektiv olsa da, uzunmüddətli tədbiq edilməsi ölkədə sahibkarlıq fəaliyyətinin geriləməsinə, investisya və istehsalatın zəifləməsinə əsaslı şəkildə zəmin hazırlayır.

Monetaristlər inflyasiya ilə işsizlik arasındakı əlaqəyə də toxunmuşdular. Onlar Phillips əyrisini birmənalı şəkildə qəbul etməmişdirlər. Monetarist iqtisadçıların fikrincə pul təklifindəki artım ilk başlarda iqtisadiyyatı canlandırır, hətta işsizlik səviyyəsini aşağı çəkir, ancaq bu sadəcə qısamüddətli xarakter daşıyır, uzunmüddətli dövrdə iqtisadi canlanma tədricən yox olur və pulun miqdarındakı artış yalnız inflyasiya səviyyəsini artırmağa xidmət edir. Digər bir sözlə, Philips əyrisinin ifadə etdiyi yüksək inflyasiya zamanı aşağı işsizlik səviyyəsinə nail olunur fikri yalnız qısamüddətli dövr üçün xarakterikdir, bir müddət sonra pulun təsiri neytrallaşır – inflyasiya səviyyəsi yüksəlməyə davam etdiyi halda işsizlik səviyyəsi azalmır, təbii səviyyəsində qalır.

Monetaristlərin digər bir inflyasiya nəzəriyyəsi də subyektlərin gələcək dövrlə əlaqədar gözləntilərinə əsaslanır. Onlar iqtisadiyyatın hər zaman əvvəlki tarazlıq halına geri dönməsinin də gözləntilərin strukturuna bağlı olduğunu qeyd etmişdirlər. İqtisadi subyektlər hər daim qiymətlərdəki dəyişikliklər barəsində gözlənti içində olurlar, lakin bu gözləntilər zamanı bütün informasiyalara sahib olmurlar və proqnozlarında səhvlərə yol verirlər. Məsələn, pul təklifi artdıqda işsizlik səviyyəsi də düşür və bunun əsas səbəbi bir çox hallarda bildiyimiz kimi tələb miqdarındakı artım yox, işçilərin qiymət artımını səhv proqnozlaşdırmaları olur. İşçilər ilk əvvəl qiymətlərin düşəcəyini və ya

əməkhaqqındakı artım ehtimalını proqnozlaşdırırlar, odur ki işlərin səviyyəsində heç bir geriləmə müşahidə olunmur. Hətta tam əksinə, ilk əvvəllər işverənlər daha çox işçi işlədə bilirlər və istehsalatın həcmini də artıraraq yüksək gəlir əldə edirlər. Bunun nəticəsində də ilk dövrlərdə iqtisadiyyatda canlanma yaranır. Daha sonra işçilər yalnış gözlənti içində olduqlarını anlayırlar, inflyasiya artdıqca qiymətlər də artmağa davam edir, işçilər həvəsdən düşürlər - əmək bazarında təklif azalır. Əmək bazarında təklif azaldığından işçiyə olan tələb artır və əməkhaqları yüksəlir. Uzunmüddətli dövrdə əmək bazarında iqtisadi tarazlığa nail olunur, lakin inflyasiyanın miqdarı yüksəldikcə yüksəlir. Qeyd etdiyimiz, iqtisadi subyektlərin gözləntilərinin önəmi məsələsi monetarist iqtisadçılar tərəfindən riyazi şəkildə aşağıdakı formada ifadə olunmuşdur:

$$\pi_t^e = \pi_{t-1} + \gamma\left(\pi_{t-1}^e - \pi_{t-1}\right)$$

Bu düstur $\gamma$ subyektinin keçmiş dövrdə gözləntiləri nəticəsində etdiyi xətalara bu gün verdiyi reaksiyanı ifadə edir. Burada, ($\pi_{t-1}$) - əvvəlki dövrdə qeydə alınmış inflyasiya dərəcəsini, $(\pi_{t-1})^e$ – gələcək dövr üçün proqnozlaşdırılan inflyasiya dərəcəsini göstərir. İqtisadçıların fikrincə uzunmüddətli dövrdə iqtisadi subyektlər əvvəlki dövrdə baş vermiş inflyasiyadan daha effektiv nəticə çıxaracaqları üçün gələcək üçün proqnozları düzgün olacaqdır. Belə olan halda praqnoz xətası sıfır (düsturda $\pi^e = \pi_{t-1}$ halını nəzərə alsaq) və ya sıfıra yaxın olacaqdır.

Qısacası, monetarist iqtisadi məktəbin nümayəndələri inflyasiyanın hər zaman pul ilə əlaqədar bir problem olduğunu vurğulamış, inflyasiya ilə effektiv mübarizənin yalnız pul-kredit siyasətinin düzgün aparılması yolu ilə mümkün ola biləcəyini bildirmişdirlər. Həmçinin monetaristlər pul təklifindəki artıqlığın səbəb olduğu inflyasiyanın bir müddət sonra tarazlıq halına gələcəyini də iddia etmiş, sırf bu baxımdan bir çox iqtisadçılar tərəfindən tənqid olunmuşdular. Bunlara misal kimi strukturalist iqtisadi məktəbin nümayəndələrini göstərmək olar. Strukturalistlər iqtisadiyyatın dayanıqlı təbiətə malik olması, həmişə tarazlıq halına geri dönməsi fikrini qəbul etməmişdilər. İnflyasiyanın hər daim struktural problemlərə yol açdığını, bu problemlər həll edilmədiyi müddətcə heç bir iqtisadi dayanıqlılıqdan söhbət gedə bilməyəcəyini bildirmişdilər. Yeni klassik iqtisadi məktəbin nümayəndələri isə monetaristlərin "gözləntilərin inflyasiyaya təsiri" nəzəriyyəsi ilə tam razılaşmamış, işçilərin proqnoz xətası etdikləri iddiasına şübhə ilə yanaşmışdılar. [6]

**Nəticə**

Antiinflyasiya yönümlü pul-kredit siyasətinin nəzəri aspektlərini tədqiq edən zaman tarix boyunca iqtisadi məktəblərin bu haqda səsləndirdiyi fikirlərin necə müxtəlif və çoxşaxəli olması xüsusilə nəzərə çarpır. Bu müxtəlifliyin əsas səbəbi də odur ki, iqtisadi məktəblərin hər biri öz fikirlərini formalaşdıran zaman aid olduqları tarixi dövrü, öz ölkələrinin coğrafi, siyasi və sosial-iqtisadi şəraitini nəzərə almış, hər bir iqtisadi məktəbin nəzəri fikirləri özündən sonra gələn məktəblər tərəfindən daha da inkişaf etdirilmiş və dövrün tələblərinə uyğunlaşdırılmışdır. Müasir antiinflyasiya yönümlü pul-kredit siyasətlərinə də nəzər salan zaman bu sözü gedən müxtəlifliyi müşahidə edə bilirik. Lakin bu müxtəlifliklərə baxmayaraq, qeyd olunan inflyasiya yönümlü nəzəriyyələrin hamısında əsasən iki fikrin xüsusilə fərqləndirildiyi nəticəsinə gələ bilərik: Birincisi, inflyasiyanı yaradan ən əsas səbəb dövriyyədə olan pulun miqdarının artıqlığı, pul təklifinin normadan daha yüksək olmasıdır; ikincisi, inflyasiya ilə mübarizə aparan zaman qiymətlərdəki artımın

səbəbinin müəyyənləşdirilməsi xüsusi önəmə sahibdir və diqqətlə tədqiq olunmalıdır.

**Tədqiqat işinin yeniliyi.** Tədqiqat zamanı ilk dəfə antiinflyasiya yönümlü pul-kredit siyasətinin nəzəri aspektləri iqtisadi məktəblərin fikirləri əsasında araşdırılmış, araşdırılan fikirlər tarixi ardıcıllıqla sıralanmış və bu vasitə ilə daha aydın mənzərə gözlər önünə sərilmişdir.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Tədqiqat zamanı çoxşaxəli iqtisadi fikirlərə nəzər salınmış, ənənəvi iqtisadi modellər təhlil edilmişdir. Bunun sonunda əldə olunan nəticələr gələcəkdə müasir antiinflyasiya nəzəriyyələrinin formalaşmasında yardımcı rol oynayacaq, həmçinin digər tədqiqatçılar üçün referans mənbəyi kimi çıxış edəcəkdir.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** Tədqiqat işi nəzəri aspektləri təhlil edərək inkişafa nail olunması istiqamətində aparılmışdır. Nəzəri olaraq inkişaf etdirilmiş antiinflyasiya siyasəti öz növbəsində praktiki olaraq da daha yüksək fayda verəcək, bu yolla gələcəkdə inflyasiyanın aşağı həddinə nail olunacaqdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. "İnflyasiyanın anatomiyası" Tofiq Quliyev. Bakı. 2016.

2. "İqtisadi nəzəriyyə" Bakı, 2014.

3. "Azərbaycanda monetar idarəetmə sisteminin inkişafının aktual problemləri" Babayev A, Abdullayev X. Bakı. 2015.

4."Dünya iktisat tarihi." Mesud Küçükkalay. İstanbul. 2021

5. "Anti-inflationary policies:alternative approaches" Dennis J. Weidenaar. Purdue. 2020.

6. "Anti-Inflationary Policies in a Democratic Free Market Society" Barry Bosworth. Massachusetts. 06.2018

7. "Финансы и банковское дело" Г.Р. Державина. Москва. 2019.

**Sabuhi Mubariz oglu ABBASOV**
Azerbaijan State Economic University

## THEORETICAL ASPECTS OF ANTI-INFLATION FACING MONETARY POLICY

**Abstract**

The study examined the views of various economic schools on inflation, the theories of inflation voiced by them and the anti-inflationary tools developed. By summarizing the above-mentioned ideas, an attempt was made to come to a single conclusion, and it was observed how historically anti-inflation theories differed from the ideological point of view. The article also evaluates the steps taken to keep inflation rates low in modern conditions from a theoretical point of view.

**Keywords:** monetary policy, inflation, anti-inflation policy, economic theory, economic schools.

**Сабухи Мубариз оглы АББАСОВ**
Азербайджанский Государственный Экономический Университет

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ АНТИИНФЛЯЦИОННОЙ ДЕНЕЖНО-КРЕДИТНОЙ ПОЛИТИКИ

### Резюме

В ходе исследования были рассмотрены взгляды различных экономических школ на инфляцию, озвученные ими теории инфляции и разработанные антиинфляционные инструменты. Обобщая вышеизложенные идеи, была сделана попытка прийти к единому выводу, и было замечено, насколько исторически антиинфляционные теории различались с идеологической точки зрения. В статье также с теоретической точки зрения оцениваются предпринимаемые шаги по удержанию низких темпов инфляции в современных условиях.
**Ключевые слова:** денежно-кредитная политика, инфляция, антиинфляционная политика, экономическая теория, экономические школы.

**Daxil olub:** 14.04.2022

**Qurban Rauf oğlu MİRZƏYEV**
ADAU-nun "Mühasibat uçotu və audit" kafedrasının dissertantı
E-mail: qurbanmirzeyev@gmail.com

# MHBS ƏSASLI UÇOTUN APARILMASINDA LİZİNQ ƏMƏLİYYATLARININ UÇOTUNUN XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Məqalədə Respublikamızda aparılan lizinq əməliyyatlarının müasir uçot metodları və MHBS əsasında mühasibat uçotunun müasir istiqamətləri göstərilmişdir. Postpandemiya dövründən sonra iqtisadiyyatda olan qismən canlanmaya əsasən TTA alınmasında lizinq əməliyyatlarının xüsusi çəkisinin artması, lizinq əməliyyatlarının uçotunun MHBS uyğunlaşdırılmasının vacibliyi araşdırılmışdır. Bu baxımdan məqalədə müasir icarə münasibətləri, bu tip əməliyyatların dünyada dərk edilməsi baxışları, bu yeni baxışların respublikamızda da beynəlxalq standartların tələbləri əsasında uçotunun qurulması və aparılması məsələləri öz əksini tapmışdır.

**Açar sözlər:** lizinq, lizinq əməliyyatları, icarə əməliyyatları, beynəlxalq maliyyə hesabatı standartları.

**UOT:** 336
**JEL:** M 00

## Giriş

Qloballaşan dünyamızda inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərin bu təmərküzləşməyə cavab verən müasir uçot sistemlərinə ehtiyac yaranmışdır. Belə ki, MHBS üzrə artıq "İcarə" adlı standartın da yaranması uçotda mövcud olan icarə münasibətlərinə fərqli baxışların bir standartla tənzimlənməsini labüd etməkdədir. Bildiyimiz kimi MHBS-in lizinq əməliyyatlarında tələblərindən biri odur ki, icarəyə verən tərəf TTA-nı öz qeydiyyatından çıxarıb, bu icarə dəyərini debitor borc kimi müxabirləşdirir. Eyni əməliyyatı qarşı icarəyə alan tərəf adekvat olaraq icarə dəyərini (TTA-nı) öz hesabatlarında hüququnu qəbul etmiş TTA kimi reystrlərə qeyd etməklə, lizinq müqaviləsinə əsasən uzun müddətli kreditor borc kimi müxabirləşdirir. Biz bilirik ki, "İcarələr" adlı MUBS-a əsasən icarə ödənişləri aktual və ya kumulyativ üsulla hesablanır.

Göründüyü kimi son dövrlər üzrə postpandemiya şəraitində lizinq xidmətləri sahəsində hiss ediləcək müəyyən azalmaya baxmayaraq, ölkədə MHBS-nın tətbiqi məcburidir və uçotda şəffaflığın yaradılması, qəbul edilən qərarların gələcəkdə faydalılığına nail olunması bu standartların tam mənumsənilməsi və düzgün tətbiqi ilə birbaşa əlaqədardır. Əks təqdirdə istər yerli, istərsə də xarici investorlar investisiya qoyuluşlarında maraqlı olmayacaq və lizinq əməliyyatlarının uçotu istər mülkiyyət hüquqlarının dəqiqləşdirilməsi, istərsə də TTA-nın tanınması və təqdim olunması zamanı maliyyə hesabatlarında düzgün əks olunmayacaq.

Lakin son zamanlar lizinq əməliyyatlarının uçotu problemlərindən biri kimi əsasən MHBS keçid məsələləri göstərilir. Hesab edirik ki, araşdırmalarımıza əsasən mühasibat uçotu üzrə keçid problemləri əsasən aşağıdakı istiqamətlərə bölünə bilər:

a) ənənəvi uçot metodlarına daha çox etibar edilməsi

b) kadr hazırlığı və professional kadrlarla təmin edilmə

c) MHBS-a keçidin "sağlam" aparılması

d) 2018-ci il üzrə qanuna dəyişikliklə bağlı tələblərin tam yerinə yetirilməsinə olan əminlik

e) qloballaşma ilə əlaqədar postpandemiya dövrünün nəticələrinin mənfi təsirliyi

Beləliklə, son müşahidələr göstərir ki, qanunla müəssisələrin tam MBS keçidinin labudlüyü göstərilsə də hələ də ənənəvi uçot formalarında istifadə edilir. Xüsusilə də köhnə hesablar planının tətbiqi, bir sıra əhəmiyyətsiz hesab edilən rekvizitlərə malik olan sənədlərdən istifadə, elektron yeniliklərdən istifadə əmsalının az olması və sairə məsələlərdə hələ də problemlər mövcüddür. Bu kimi problemlərin həlli əfsuslar kı, digər problemin həllindən keçir. Bu bütün inkişaf etmiş ölkələrin də vaxtı ilə üzləşdiyi kadr çatışmazlığı problemidir. Kadr çatışmazlığı probleminin kökü əsasən elmi-texniki yeniliklərə uyğunlaşma ilə əlaqədardır. Bu konteks də yeni qanun dəyişikliyi tələb edir ki, bütün müəssisələr MHBS-ə keçid etsinlər və mühasibat uçotunun aparılmasında bunu nəzərə alsınlar. Lakin kifayət qədər ənənəvi üsuldan fərqli olan MHBS-nı tam mənasında anlayan mütəxəssislərin kafi dərəcədə mövcudluğu nəzərə alınmamışdır. Hətta qanunvericilik bazası üzrə zəngin biliyə malik olan mütəxəssis də bəzən MHBS üzrə məlumatların öyrənilməsində çətinlik çəkir. Bu problemin həlli digər məsələlərin həlli ilə əlaqəqardır. Bu zaman MHBS-a keçidin "sağlam" aparılması məsələsinə dövlət tərəfindən yardım edilməlidir. Əlbəttə istər Maliyyə Nazırliyinin himayəsi ilə aparılmış proqramların icrasının müsbət nəticəsi, istərsə də çoxlu sayda müxtəlif təlimlər öz müsbət nəticəsini versə də, hələ ki bu məsələ tam həllini tapmamışdır.

Lizinq əməliyyatlarının uçotu zamanı digər bir məsələ lizinq predmetinin MHBS əsasında amortizasiya edilməsidir. Burada bir incə məqama fikir verməк lazımdır. Belə ki, əgər müqavilə risk və mükafatlar lizinqi qəbul edənə ötürülmür və ya lizinq alan aydın şəkildə lizinq üzrə müqavilənin sonunda heç bir mülkiyyət hüququ istəmir, onda lizinq alan aldığı avadanlığa görə amortizasiya hesablamayacaqdır. Belə əməliyyatın maraqlı tərəfi ondadır ki, bir çox tədqiqatçılar bu əməliyyatları lizinq adlandırmır və əməliyyat icarəsinin bir forması hesab edir. Lakin hesab edirik ki, bu yanlış yanaşmadır. Çünki, müqavilənin sonunda belə risk və mükafatlar icarəçiyə ötürülməsə də; a) lizinq əməliyyatlarının xarakterinə uyğun olaraq aktivlərə görə verilən vəsaitin girovu kimi lizinq predmetinin özü çıxış edir; b) aktivin ömrünün əsas hissəsi icarəçidə istifadə olunarsa və dəyərinin əsas hissəsi hissə- hissə xərclərə silinərsə bu artıq maliyyə icarəsi hesab edilir. Digər tərəfdən əvvəlcədən uçotun aparılmasına əsaslı təsir edən bütün üsullar uçot siyasətində əks olunduğu kimi təşkilatın uçot siyasətində də qeyd edilməlidir. Ənənəvi mühasibat uçotu aparan bəzi müəssisələrdə əfsuslar olsun ki, hələ də lizinq yolu ilə icarəçinin tabeliyinə keçən TTA balansarxası hesablarda uçota alınır, bu isə MHBS-ə uyğun gəlmir və bu dəyərin maliyyə hesabatlarından kənarda qalmasına səbəb olur. Bu isə mühasibat uçotunun başdan-başa və fasiləsiz aparılması prinsipinə ziddir.

Xüsusilə, Azərbaycan Respublikasının Vergi Məcəlləsində bu yanaşma konkret olaraq konturlanmış və dəqiq sərhədlər müəyyənləşmişdir.(3)

- ✓ maliyyə lizinqinin obyekti uzunmüddətli aktivlərə aid olan daşınar və daşınmaz əmlak olmalıdır.

✓ aktiv içarəyə verilirsə və bu icarə maliyyə icarəsi kimi qeyd ediləcəksə, onda mütləq surətdə tərəflər arasında maliyyə lizinqi müqaviləsi bağlanmalıdır.

✓ vergitutma məqsədləri üçün icarəçi əmlakın sahibi, icarə ödəmələri isə icarəçiyə verilmiş ssuda üzrə ödəmələr sayılır.

✓ lizinq alan kimi yalnız hüquqi şəxslər və ya fərdi sahibkarlar ola bilərlər.

✓ müqavilənin sonunda əmlakın bütün risk və mükafatlarının icarəçinin mülkiyyətinə verilməsi baş verir.

✓ icarə müddəti sonunda icarəçi aktivi əvvəlcədən müəyyən edilmiş dəyərdə özününküləşdirmək hüququna malik ola bilər.

✓ icarə müddəti aktivin istismar müddətinin 75 faizindən artıqdır.

✓ icarə müddəti sonunda qalıq dəyəri icarənin əvvəlinə olan bazar qiymətinin 20 faizindən azdır.

✓ icarə haqqı üzrə ödənilmiş (və ya ödəniləcək) dəyər aktivin icarənin əvvəlinə olan bazar dəyərinin 90 faizindən artıqdır

✓ xüsusi hal kimi icarə obyekti sifarişlə hazırlanır və müddət bitdikdən sonra onu icarəçidən qeyrisi istifadə edə bilməz. (Maddə 140. Maliyyə lizinqi)

✓ əqddə (və ya müqavilədə) aktivi icarədarın satması və icarəçinin satın alması kimi göstərilməsi maliyyə lizinqi hesab edilir.

Yuxarıda göstərilən vergi uçotu yanaşmasından fərqli olaraq maliyyə uçotunda aşağıdakı hallar nəzərə alınmalıdır (4):

➢ lizinq TTA üzrə sahiblik hüququnun demək olar ki, əsas hissəsində risk və mükafatların ötürülməsinə əsaslanan icarə növüdür. Lakin mülkiyyət hüququ icarəçiyə əvvəlcədən razılaşdırılmış əqdə əsasən ötürülə və ya ötürülməyə bilər.

➢ aktivin icarəyə verilməsi forma olaraq əsasən tərəflər arasında imzalanmış qəbul-təhvil aktı ilə sənədləşir.

➢ İcarədar lizinqə verilmiş aktiv üzrə amortizasiya hesablamır. Deməli icarəçi sahib kimi lizinqə qəbul etdiyi avadanlıqlara görə amartizasiya hesablayır və ehtiyac yaranarsa onları təmir edir.

➢ lizinqə verilmiş aktivin ilkin dəyərinə 174, 214 saylı hesabların uyğun subhesablarının debeti və 111 saylı hesabın uyğun subhesablarının krediti üzrə;

➢ lizinqə verilmiş aktiv üzrə hesablanmış amortizasiya və ya qiymətdəndüşmə zərərinə 112 saylı hesabın uyğun subhesablarının debeti və 174, 214 saylı hesabların uyğun subhesablarının krediti üzrə

➢ lizinq üzrə hesablanmış faiz məbləğinə 216 saylı hesabın uyğun subhesablarının debeti və 631-3 saylı subhesabın krediti üzrə müxabirləşmə yazılır.

➢ Lizinq üzrə uzunmüddətli öhdəliklər cari dəyərlə hesablandıqda (öhdəliyin dəyəri ilə cari dəyər arasındakı fərq) 406 saylı hesabın uyğun subhesablarının debeti və 631-3 saylı subhesabın krediti üzrə müxabirləşmə yazılır.

➢ Lizinq üzrə qısamüddətli kreditor borclar cari dəyərlə hesablandıqda (öhdəliyin dəyəri ilə cari dəyər arasındakı fərq) 535 saylı hesabın uyğun subhesablarının debeti və 631-3 saylı subhesabın krediti üzrə müxabirləşmə yazılır.

➢ Lizinq üzrə gəlir hesabat dövrünün mənfəəti olaraq 631-3 saylı subhesabın debeti və 801 saylı hesabın krediti üzrə müxabirləşmə yazılır.

➢ İcarə ödənişləri icarədar üçün əməliyyat gəlirləri kimi, icarəçi üçün isə kapital qoyuluşları kimi əks olunur.

17 saylı MUBS-da ilkin tanınma kimi göstərilir ki, "icarə müddətinin başlanması tarixində icarəçi maliyyə icarəsini öz balansında icarəyə götürülmüş əmlakın ədalətli dəyərinə bərabər olan məbləğlə, yaxud, əgər bu məbləğ aşağıdırsa, minimal icarə ödəniş-

lərinin hər birinin icarə şərtlərinin qəbul edilməsi tarixində müəyyən edilmiş diskontlaşdırılmış dəyərilə aktiv və öhdəlik kimi tanımalıdır” (1). Standartın izahlarına görə isə “minimal icarə ödənişləri – şərti icarə haqqı, xidmət xərcləri və icarəyə verən subyekt tərəfindən ödənilən və ya ona geri qaytarılan vergi tutmaları ilə bərabər aşağıda qeyd edilən məbləğlərlə bağlı ödənişlər istisna olmaqla, icarə müddəti ərzində icarəçidən tələb olunan yaxud tələb olunması mümkün olan ödənişlərdir”. Lakin izah etməyə ehtiyac var ki, icarəçi üçün bu ödəniş icarəçinin zəmanət verdiyi məbləğdir. İcarədar üçün isə icarəçi, icarəçi ilə əlaqədar tərəf və ya icarədar ilə əlaqəsi olmayan lakin icarə öhdəliyini ödəməyə razı üçüncü şəxs subyektlər tərəfindən zəmanət verilmiş hər hansı qalıq dəyəridir. Bir çox mütəxəssislərin də razılaşdığı kimi minimal icarə ödənişlərini hesablayanda diskont dəyər kimi formalaşmaya diskont dərəcə lizinq müqaviləsində nəzərdə tutulmuş və adətən müqavilədə öz əksini tapan faiz dərəcəsidir. Standart bu faizin təyin olunmaması şəraitində icarəyə götürənin borc kapitalı üzrə artan faiz dərəcəsindən istifadə edilməlidir. Maraqlı şərtlərdən biri də lizinqin bir çox hallarda TTA kimi özünü göstərməsidir. Məsələn, icarəçi tərəfindən ödənilən ilkin birbaşa xərclər TTA kimi tanınan məbləğə əlavə edilir.

Müasir maliyyə uçotu bəzən lizinq əməliyyatlarında hadisənin maliyyə icarəsi kimi tanınmasını aşağıdakı şərtlər daxilində qəbul edir:

a) icarəyə qəbul edilmiş TTA icarə müddətinin sonunda mülkiyyət hüququ icarəyə qəbul edənə keçir;

b) lizinq əməliyyatlarının uçotunda istifadə edilən ədalətli dəyər anlayışı ənənəvi ədalətli dəyər anlayışından fərqli olub bu şəkildə istifadə edilə bilər: icarəyə qəbul edən TTA onun ədalətli dəyərindən əhəmiyyətli dərəcədə aşağı qiymətə almaq hüququnu icarənin başlanması tarixinə təsdiqlənmiş müqaviləyə əsasən təyin etmək hüququna malikdir. Göründüyü kimi ədalətli dəyərin tələbləri pozulmasa da müqavilə ilə bazar dəyərindən əhəmiyyətli dərəcədə kənarlaşmaya sanki “göz yumulur”. Buna səbəb isə mahiyyətin formadan üstünlüyü prinsipidir. Belə ki zaman daxilində TTA-nın dəyərinin əhəmiyyətli hissəsinin ödənilməsi, onun son qalıq dəyərinin qiymətləndirilməsində bazar dəyərindən əhəmiyyətli fərqlə dəyərləndirilməsini müqavilə ilə tənzimləməyə icazə verir;

c) lizinq əməliyyatlarının digər xüsusiyyətlərindən biri də odur ki, hətta özününküləşdirilməsi hüquqi olaraq ötürülməsə və icarə müddəti TTA istifadə müddətinin əhəmiyyətli hissəsini təşkil edirsə belə əməliyyatlar lizinq əməliyyatları hesab edilir;

d) lizinq müqaviləsində minimal icarə ödənişinin diskont dəyəri, aktivin ən azından ədalətli dəyərinə bərabər olmalıdır;

e) icarə obyekti olan TTA-lar bütövlükdə ancaq icarəyə qəbul edən subyekt tərəfindən istifadədə olmalıdır;

f) standartın tələbləri çərçivəsində ləğv edilmiş lizinq müqaviləsi icarədarın ləğv edilmə ilə əlaqəli xərclərinin icarəçi tərəfindən ödənilməsini tələb edir;

g) lizinq obyekti olan TTA-nın dəyərinin dəyişməsi və nəticədə fayda və ya zərər yaranması icarəçinin uçotunda qeyd edilir (məsələn, müqavilənin sonunda verilmiş güzəştin TTA-dan daxil olan satışdan əldə olunan gəlirə adekvat hesablanması formasında);

h) hər iki tərəfin razılığı ilə müqaviləyə yenidən baxaraq ədalətli dəyərdən əhəmiyyətli dərəcədə azaldılmış qiymət üzrə müqavilənin yenilənməsinə malik olmaq.

İndi gəlin lizinq münasibətlərinin həm icarəçi, həm də icarədar münasbətləri üzrə mühasibat uçotunda praktiki əks olunmasına nəzər yetirək. Belə ki, icarəçi üzrə TTA əldə edilərsə, 111 saylı hesabda ya ədalətli dəyərlə (və ya ona bərabər dəyərlə), ya da minimal icarə ödənişinin əqdlə təyin edilmiş tarixə diskondlaşmış dəyərilə uçota alınır. Bu zaman 111 saylı hesabın uyğun hesabının debeti və kreditorlar üzrə hesabların (əsasən 406 və 535 saylı hesablar) krediti yazılışı verilir. Əgər lizinq əməliyyatları ilə əlaqədar birbaşa xərclərə aid edilməyən xərclərdirsə, 111 saylı hesaba (bəzən 113 saylı hesabdan da istifadə edilir) debet və 435 saylı, 445 saylı, 538 saylı və 545 saylı hesabların kreditində uçota alınır. Əgər lizinq obyektinin ədalətli dəyərlə qiymətləndirilməsi labüdlüyü yaranarsa, onda bu aktivlər yenidənqiymətləndirmə obyektinə çevriləcəklər. Bu zaman lizinq üzrə bir ildən az müddətə görə ödənişlər aparılarsa, 535 saylı hesabın debeti və pul hesablarının (kassa, bank və sairə) krediti üzrə müxabirləşmə veriləcəkdir. Qısa müddətli faiz xərclərinin ödənilməsi isə (xatırlatmaq istərdik ki, faiz xərcinin hesablanması hələ faiz xərcinin xərc kimi tanınması deyil) 537 saylı hesabın debeti və müvafiq pul-ödəniş hesablarının krediti kimi qeyd ediləcəkdir. Müqavilə əsasında göstərilmiş müddət üzrə hesablanan faiz xərcinə (hesablanmış faiz məbləğinin xərc kimi tanınması) isə 751 saylı hesabın müvafiq subhesabının debeti və 537 saylı hesabın krediti müxabirləşməsi verilir. İlin sonunda isə maliyyə nəticəsinin müəyyənləşməsi prosesində bu xərc maddəsi (751 saylı hesab) 801 saylı hesabın debetinə silinəcəkdir (5). Göründüyü kimi müvafiq standart maliyyə icarəsinin tanınmasında kifayət qədər izahlı və aydın göstərilmişdir. Lakin, maliyyə uçotunun aparılmasında ilkin tanınma əsas məsələlərdən biridir. Standart şərt qoyur ki, lizinq verən tərəf TTA-nı öz balans hesabatında tanımalı və debitor borc kimi xalis investisiya dəyərində təqdim etməlidir. Tutaq ki, "Şərq" müəssisəsi "Qərb" müəssisəsinə 200 000 dəyərində 4 il müddətinə lizinq müqaviləsinə əsasən texnika verib. Əqdə görə texnikanın qiyməti 150 000 manat, faiz məbləği isə 50 000 manatdır. "Qərb" müəssisəsi 4 il ərzində borcu proporsional olaraq ödəyəcək. Həmçinin bu şərtlərlə icarədar öz TTA-sını lizinqə verir. Yuxarıda göstərilmiş nümunəvi lizinq əməliyyatlarının uçot yazılışları icarəçi ilə əlaqədar olan məsələlər idi. İndi isə lizinq əməliyyatlarında icarədar kimi çıxış edən tərəfin uçot məsələlərinə baxaq. Beləliklə, TTA lizinqə verilərsə, onda icarədar aktivi öz ilkin dəyərində 111 saylı hesaba kredit yazaraq bu məbləği debitot borc kimi 174 saylı və ya 214 saylı hesablarda debetləşdirir. Eyni zamanda, lizinq okyekti üzrə toplanmış köhnəlmə məbləğini 112 saylı hesaba debet və 174 saylı və ya 214 saylı hesablara kredit verməklə ədalətli dəyərdə və ya müqavilə dəyərində icarəçiyə ötürür. Nəzərə almaq lazımdır ki, 112 saylı hesabda təkcə toplanmış amortizasiya məbləğindən başqa eyni zamanda qiymətdəndüşmə zərər də uçota alınır. Hesablanmış maraq faizi isə 216 saylı hesabın debetinə və gəlir kimi tanıdılaraq 631 saylı hesabın müvafiq subhesabının kreditinə müxabirləşmə verilir. Bir çox hallarda lizinq əməliyyatlarının cari dəyəri yenidən hesablandıqda cari dəyərlə müqavilə dəyəri arasındakı fərq 406 saylı hesaba (əgər uzunmüddətli olarsa) və ya 535 saylı hesaba (əgər qısa müddətli olarsa) debet kimi yazılır və bu artım fərqi hesab edilirsə, onda gəlir kimi göstərilərək 631 saylı hesabın müvafiq subhesabına kredit kimi müxabirləşmə verilir. Əlbəttə, ilin sonunda maliyyə nəticələrinin qiymətləndirilməsi üçün 631 saylı hesab 801 saylı hesaba bağlanır (631 saylı hesab debet

və 801 saylı hesab kredit kimi). Qeyd etmək lazımdır ki, müasir uçot qaydalarına əsasən ödənişlər icarədar üçün gəlir, icarəci üçün isə investisiya qoyuluşu hesab edilir. Gəlin yuxarıda göstərilən hər iki tərəf üçün lizinq əməliyyatlarının müxabirləşməsini izah edən nümunəvi əməliyyat cədvəli tərtib edək.

| s/s | Əməliyyatın məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|---|
| **İcarəyə qəbul edən şəxs (icarəçi) üzrə uçot əməliyyatları.** | | | | |
| 1 | Uzunmüddətli lizinq obyekti balansa alınır | 111 "Torpaq, tikili və avadanlıqların dəyəri" | 406 "Maliyyə icarəsi üzrə uzunmüddətli öhdəliklər" | 150 000 |
| 2 | Əqdə görə ümumi faiz xərcləri | 191 "Gələcək hesabat dövrlərinin xərcləri" | 434 "Faizlər üzrə uzunmüddətli kreditor borcları" | 50 000 |
| 3 | Cari ilə hesablanmış faiz xərcləri | 434 "Faizlər üzrə uzunmüddətli kreditor borcları" | 537 "Faizlər üzrə qısamüddətli kreditor borcları" | 12 500 |
| 4 | Cari ilə hesablanmış faiz xərclərinin xərcə tanıdılması | 751-3 "Maliyyə icarəsi üzrə faiz xərcləri" | 191 "Gələcək hesabat dövrlərinin xərcləri" | 12 500 |
| 5 | Cari ilə düşən borc üzrə əsas hissə | 406 "Maliyyə icarəsi üzrə uzunmüddətli öhdəliklər" | 535 "İcarə üzrə qısamüddətli kreditor borcları" | 37 500 |
| 6 | Əsas hissə üzrə carı ilin öhdəliyi ödənilir | 535 "İcarə üzrə qısamüddətli kreditor borcları" | 223 "Bank hesablaşma hesabları" | 37 500 |
| 7 | Faiz hissə üzrə carı ilin öhdəliyi ödənilir | 537 "Faizlər üzrə qısamüddətli kreditor borcları" | 223 "Bank hesablaşma hesabları" | 12 500 |
| **İcarədar (icarəyə verəndə) üzrə uçot əməliyyatları.** | | | | |
| 1 | TTA lizinq verilərək balansdan silinib | 174 "İcarə üzrə uzunmüddətli debitor borcları" | 111 "Torpaq, tikili və avadanlıqların dəyəri" | 180 000 |
| 2 | Yığılmış amortizasiya məbləği balansdan silinir | 112 "Torpaq, tikili və avadanlıqlar üzrə yığılmış amortizasiya və qiymətdəndüşmə zərərləri" | 174 "İcarə üzrə uzunmüddətli debitor borcları" | 30 000 |
| 3 | Ümumi hesablanmış faizlər balansa alınır. | 176 "Faizlər üzrə uzunmüddətli debitor borcları" | 442 "Gələcək hesabat dövrlərinin gəlirləri" | 50 000 |
| 4 | 1-ci il üçün hesablanmış faizlər | 216 "Faizlər üzrə qısamüddətli debitor borcları" | 176 "Faizlər üzrə uzunmüddətli debitor borcları" | 12 500 |
| 5 | 1-ci ilin faizlərin gəlir kimi tanınması | 442 "Gələcək hesabat dövrlərinin gəlirləri" | 631-3 "Maliyyə icarəsi üzrə gəlir" | 12 500 |
| 6 | 1-ci il hesablanmış faizlər ödənilir | 223 "Bank hesablaşma hesabları" | 216 "Faizlər üzrə qısamüddətli debitor borcları" | 12 500 |
| 7 | 1-ci il üzrə əsas borcun təyin edilməsi | 214 "İcarə üzrə qısamüddətli debitor borcları" | 174 "İcarə üzrə uzunmüddətli debitor borcları" | 37 500 |
| 8 | 1-ci il üzrə əsas borcun ödənilməsi | 223 "Bank hesablaşma hesabları" | 214 "İcarə üzrə qısamüddətli debitor borcları" | 37 500 |

Göründüyü kimi lizinq əməliyyatları iqtisadiyyatın bütün sahələrində uzunmüddətli aktivlərlə təmin olunmasına görə ən müasir metodlardan biri sayılmaqdadır, lakin iqtisadiyyatın dili olan mühasibat uçotu olmadan bu əməliyyatların düzgün qeyd edilməsi, məlumatların toplanması, onların emal edilməsi və maliyyə hesabatları halında təqdim edilməsi və ən əsası düzgün qərarların qəbulu mümkünsüzdür.

## ƏDƏBİYYAT SİYAHISI

1. “İcarələr” adlı 17 saylı MUBS
2. "İcarə haqqında" AR Qanunu.
3. AR Vergilər məcəlləsi
4. BMHS üzrə Milli Diplom I nəşr 2010 səhifə 665

5. https://www.muhasib.az/article.php? cat=2&n=251

**Гурбан Рауф оглы МИРЗАЕВ**
Диссертант кафедры «Бухгалтерский учет и аудит» АГАУ

## ОСОБЕННОСТИ УЧЕТА ЛИЗИНГОВЫХ ОПЕРАЦИЙ В МСФО

### РЕЗЮМЕ

В статье показаны современные методы учета лизинговых операций в республике и современные тенденции бухгалтерского учета на основе МСФО. На основании частичного восстановления экономики после постпандемического периода, увеличения доли лизинговых операций в приобретении основные средства изучена важность гармонизации учета лизинговых операций с МСФО. С этой точки зрения в статье отражены взгляды на современные арендные отношения и понимание этих операций в мире, а также установление и поддержание этих новых взглядов в нашей стране в соответствии с требованиями международных стандартов.
**Ключевые слова**: *лизинг, лизинговые операции, лизинговые операции, международные стандарты финансовой отчетности.*

**Gurban Rauf MİRZAYEV**
Dissertant of the department "Accounting and audit" ASAU

## FEATURES OF ACCOUNTİNG FOR LEASİNG OPERATİONS İN IFRS

### ABSTRACT

The article shows modern methods of accounting for leasing operations in the republic and modern accounting trends based on IFRS. Based on the partial recovery of the economy after the post-pandemic period, the increase in the share of leasing operations in the acquisition of fixed assets, the importance of harmonizing the accounting for leasing operations with IFRS has been studied. The article reflects the views on modern lease relations and understanding of these operations in the world, as well as the establishment and maintenance of these new views in our country in accordance with the requirements of international standards.
**Key words**: *leasing, leasing operations, leasing operations, international financial reporting standards.*

**Daxil olub:** 13.04.2022

**Yetər İsrayıl qızı QASIMOVA**
*Azərbaycan Texnologiya Universiteti (UTECA) – baş müəllim*
E-mail: etabdullaeva@mail.ru

**Leyla Yusif qızı RZAYEVA**
*Azərbaycan Texnologiya Universiteti (UTECA) – baş müəllim*
E-mail: rzaevaleyla@yandex.ru

**Şəhla Yasin qızı ƏLİYEVA**
*Azərbaycan Texnologiya Universiteti (UTECA)* – doktorant
E-mail:shehla2020@mail.ru.

**Gülgün Zeynal qızı ABDİYEVA**
*Azərbaycan Texnologiya Universiteti (UTECA)* – doktorant
E-mail: g.abdiyeva@mail.ru

**Aysel Xasay qızı MEHDİYEVA**
*Azərbaycan Texnologiya Universiteti (UTECA)* – assistent
E-mail:a.mehdiyeva@uteca.edu.az

# RESPUBLİKANIN İQTİSADİ REGİONLARINDA QİDA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN İNKİŞAF STRATEGİYASI

## XÜLASƏ

Qida sənayesinin ölkə iqtisadiyyatında rolu danılmazdır. Ölkə əhalisinin düzgün və balanslı qidalanması və ərzaq təminatı məsələlərinin həllində, vətəndaşların ilkin tələbatlarının ödənilməsində qida sənayesi həlledici rol oynayır. Eyni zamanda, regionların inkişafında da qida sənayesinin rolu danılmazdır. Bunların hamısı ilə yanaşı qida məhsulları istehsalının səciyyəvi xüsusiyyətləri də qida sənayesinin inkişafına dair regional proqramların və ölkənin iqtisadi regionlarında qida sənayesi müəssisələrinin inkişaf strategiyasının işlənib hazırlanması zərurətini şərtləndirir. Bu baxımdan məqalədə yer alan məsələlərin tədqiqi kifayət qədər aktualdır. Məqalədə qida sənayesi müəssisələrinin xarakterik xüsusiyyətləri, onların ölkə regionlarının inkişafında, sosial-iqtisadi problemlərinin həllində rolu araşdırılmışdır. Habelə, Respublikanın iqtisadi reqionlarında qida sənayesi müəssisələrinin inkişaf strateqiyası təhlil edilmişdir.

**Açar sözlər:** qida sənayesi, qidalanma, iqtisadi region, sahə strukturu, xammal, emal, ərzaq kompleksi, məşğulluq, intensivləşdirmə, investisiya, Dövlət proqramları, infrastruktur

**UOT:** 314:001
**JEL:** F 14

## Giriş

Qida sənayesi ölkə sənayesinin ən böyük sahələrindən biridir. Bura dörd blokda birləşən onlarla yarımsahələr daxildir: ət-süd, balıq konservləri istehsalı, tərəvəz və meyvə konservləri istehsalı, un və çörək məmulatlari istehsal edən sahələr daxildir. Ölkədə ərzaqla özünütəminatın səviyyəsi, əhalinin həyat səviyyəsi və fiziki sağlamlığı regionlarda istehsal olunan qida məhsullarının çeşidindən, keyfiyyətindən, qiymətindən və istehsal həcmindən asılıdır.

Buna görə də, qida sənayesini ölkənin xalq təsərrüfatı sistemində sosial baxımdan xüsusi ilə əhəmiyyətli sahələrə aid edirlər və müxtəlif yollarla daha da inkişaf etdirməyə çalışırlar. Belə yollardan biri də regionlarda qida sənayesi müəssisələrinin yaradılması və daha da inkişaf etdirilməsidir.

**Tədqiqatın aktuallığı**. Qida sənayesi ölkə əhalisinin düzgün və balanslı qidalanması və ərzaq təminatı məsələlərinin həllində, vətəndaşların ilkin tələbatlarının ödənilməsində həlledici rol oynayır. Ölkənin iqtsadi dayanıqlılığını və siyasi təhlükəsizliyini xarakterizə edən milli təhlükəsizliyinin vacib hissəsi olan ərzaq təhlükəsizliyinin təmin olunmasında qida sənayesi mühüm yerlərdən birini tutur. Bu sahə ölkə əhalisinin düzgün və balanslı qidalanması və ərzaq təminatı məsələlərinin həllində, vətəndaşların ilkin tələbatlarının ödənilməsində həlledici rol oynayır. Eyni zamanda regionların inkişafında da qida sənayesinin rolu danılmazdır. Bunların hamısı ilə yanaşı qida məhsulları istehsalının səciyyəvi xüsusiyyətləri də qida sənayesinin inkişafına dair regional proqramların və ölkənin iqtisadi regionlarında qida sənayesi müəssisələrinin inkişaf strategiyasının işlənib hazırlanması zərurətini şərtləndirir. Bu baxımdan məqalədə yer alan məsələlərin tədqiqi kifayət qədər aktualdır.

**Tədqiqatın metodikasını** makroiqtisadi nəzəriyyənin, ümumi iqtisadi nəzəriyyənin və menecmentin fundamental müddəaları, iqtisadiyyatın tənzimlənməsinin elmi konsepsiyaları, ölkə alimlərinin monoqrafiya və məqalələri, respublikada qida sənayesinin fəaliyyətinə dair elmi konfransların materialları, nəzəri tədqiqatlar, mövcud ədəbiyyatlar və internetdə verilən materialların təhlili və s. təşkil edir.

**Materiallar və müzakirələr**

Qida sənayesi ölkə sənayesinin ən böyük sahələrindən biridir. Bura dörd blokda birləşən onlarla yarımsahələr: ət-süd, balıq konservləri istehsalı, tərəvəz və meyvə konservləri istehsalı, un və çörək məmulatlari istehsal edən sahələr daxildir. Azərbaycanda bu sahələrin tərkibində 2020-ci ildə 9 dövlət müəssisəsi olmaqla 487 müəssisə və 6042 qeydə alınmış fərdi sahibkar fəaliyyət göstərir. Onlar xammalın ilkin (qənd, meyvə-tərəvəz, un istehsalı və s.) və ikincil (çörək, makaron, qənnadı məmulatları istehsalı və s.) emalı yolu ilə ərzaq məhsullarının istehsalı üzrə ixtisaslaşmışlar.

Qida sənayesinin məhsulları hesabına ərzaq fondunun 80%-ə qədəri və ölkənin strateji ərzaq ehtiyyatları (konservlər, quru qarışıqlar və s.). formalaşır. Ölkədə ərzaqla özünütəminatın səviyyəsi, əhalinin həyat səviyyəsi və fiziki sağlamlığı regionlarda istehsal olunan qida məhsullarının çeşidindən, keyfiyyətindən, qiymətindən və istehsal həcmindən asılıdır. Buna görə də qida sənayesini ölkənin xalq təsərrüfatı sistemində sosial baxımdan xüsusi ilə əhəmiyyətli sahələrə aid edirlər və müxtəlif yollarla daha da inkişaf etdirməyə çalışırlar. Belə yollardan biri də regionlarda qida sənayesi müəssisələrinin yaradılması və daha da inkişaf etdirilməsidir.

Qida sənayesi müəssisələrinin xüsusiyyətlərindən biri də onların ölkənin aqrar sənaye kompleksinin bir hissəsi olmasıdır. Həmin müəssisələrin əsas məqsədi kənd təsərrüfatı xammalını emal edib əhalinin əsas tələbatlarını ödəyən qida məhsullarını istehsal etməkdir. Bu istehsal sahəsinə kənd təsərrüfatının inkişafı əhəmiyyətli dərəcədə təsir edir. O regionların qida sənayesi müəssisələrinin sahə tərkibini, istehsal gücünü müəyyən edir.

Qida sənayesinin sahə strukturu onun aşağıdakı sahələrdə qruplaşdırılmasını nəzərdə tutur:

- gətirilən xammalla işləyən qida sənayesi müəssisələri. Onları iri nəqliyyat qovşaqları yaxınlığında yerləşdirirlər /dəmir yolu, dəniz limanları və s.;
- yerli xammalla işləyən müəssisələr. Onları xammala və son istehlakçıya yaxın yerlərdə yerləşdirirlər. Bu tip müəssisələrin çoxu emal sahələrinə aiddir. Onlardan yalnız bəziləri hasilat xarakterlidir. Misal üçün duz və balıq istehsalı. İlkin xammalı keyfiyyətli emal etmək üçün hər bir zavod öz texnoloji sxemlərindən istifadə edir, lakin hamısının məqsədi son məhsulun təhlükəsizliyini təmin etməkdir.

Qida sənayesi dövlətin ərzaq kompleksinin vacib həlqəsidir, o əhalinin ərzaq məhsulları ilə təminatı məsələlərinin həllində aparıcı rol oynayır. Digər sahələrdən fərqli olaraq qida sənayesinin regional səciyyəsi var. Region əhalisinin məşğulluq probleminin həllində, regionun kənd təsərrüfatı sahələrinin məhsullarının emalında, region əhalisinin rifahının yüksəldilməsində qida sənayesinin əhəmiyyəti böyükdür. Qida məhsulları istehsalının əsas xüsusiyyətləri qismində aşağıdakıların adını çəkmək olar: məhsulun kütləviliyi və müxtəlifliyi; xammal mənbələrinin və son istehlakçıların yerləşməsindən asılılığı; bir sıra yarım sahələrdə (şəkər istehsalı, şərabçılıq və s.) istehsalın mövsümiliyi; xammal və hazır məhsulun saxlanması müddətinin məhdudluğu; məhsulun keyfiyyətinə irəli sürülən tələblərin yüksək olması (təravətli olması, tərkibində vitaminlərin olması, tamı və s.); keyfiyyətin xammalın xüsusiyyətlərindən asılı olması və s. Qida sənayesinin unikallığı onun regionlara sıx bağlanmasını şərtləndirir. Qida sənayesi sahəsinin xüsusiyyətlərinin səciyyəsi bününla müəyyən olunur.

Qeyd etmək lazımdır ki, Azərbaycanda hər zaman, xüsusən də son zamanlarda qeyri-neft sahələrinin inkişaf etdirilməsi ilə bağlı, qida sənayesinin inkişafına böyük diqqət yetirilir, xüsusi regional proqramlar təsdiqlənir və onların reallaşdırılmasına büdcədən maliyyə dəstəyi ayrılır. Regionlar üçün sahənin strateji idarəetməsini həyata keçirmək çox çətin olduğundan qida sənayesinin inkişafına dair məsələlərin həllinə regional poqramlarda xüsusi yer ayrılır. Çünki qida ənayesi müəssisələrinə təsir etmək üçün zəruri olan bütün alətlər və təsir mexanizmləri respublika hökümətinin əlindədir. Regionlarda qida sənayesi müəssisələrinin inkişafına dair dövlətin strategiyası aşağıdakı prinsiplərə söykənməlidir: qida sənayesinin regionların inkişafında prioritet istiqamət almasının qəbul edilməsi; qida məhsullarının istehsalı, idxalı və ixracı məsələlərində fərqləndirilmiş regional yanaşmanı təmin etmək üçün Azərbaycan ərazilərinin demoqrafik, iqtisadi və sosial-mədəni xüsusiyyətləri ilə şərtlənən müxtəlifliyinin nəzərə alınması; dövlət və region səviyyəsində tənzimləmə və dəstək tədbirlərinin səmərəli uzlaşdırılması (regional problemlərin həllinin ilk növbədə olması şərti ilə). Beləliklə regionlarda qida sənayesinin inkişaf etdirilməsi problemi region iqtisadiyyatı üçün çox vacib məsələlərdəndir, bu problemin həlli nəticəsində regionların və burada yerləşən qida sənayesi müəssisələrinin vəziyyəti xeyli yaxşılaşacaq, regionda və ölkədə ərzaq təminatının yaxşılaşdırılması ilə yanaşı regionların əhalisinin məşğulluq problemi də həll olunacaq.

Qida sənayesi Azərbaycanda istehsal edilən məhsulların miqdarına və bu sahədə məşğul olan əhalinin sayına görə də sənaye sahələri arasında ön yerlərdən birini tutur.

Respublikamızda yeyinti sənayesinin inkişaf etdirilməsi ilə bağlı bir sıra üstünlüklər vardır:

- qida sənayesinin tarixi ənənələri;

- qida sənayesinin istehsalı üçün zəngin xammal bazası;
- ölkəmizdə yetişdirilən meyvə-tərəvəz məhsullarının bir çoxunun dünyada analoqunun olmaması;
- bir sıra istehsalatların respublikanın kiçik və orta şəhərlərində yerləşdirilməsi imkanı və ərazi ehtiyatı;
- nəqliyyat daşımaları baxımından əlverişli iqtisadi-coğrafi mövqe [1].

2016-ci ildə təsdiq edilən Azərbaycan Respublikasında Milli iqtisadiyyatın inkişaf perspektivlərinə dair strateji yol xəritələri milli iqtisadiyyatın inkişafının bir çox istiqamətlərində strateji məqsədlər müəyyən etmişdir, o cümlədən qida sənayesinin inkişafına dair [1]. Qeyd etmək lazımdır ki, qida sənayesinin inkişafı əvvəllər də Azərbaycan üçün prioritet məsələlərdən idi [2]. Hələ SSRİ dönəmində respublikada bir çox iri qida sənayesi müəssisələri fəaliyyət göstərirdi. Lakin SSRİ dğıldıqdan sonra demək olar ki, bu müəssisələrin hamısı öz fəaliyyətini dayandırdılar - bəziləri ləğv edildi, qalanları özəlləşdirildi, lakin yeni texnologiyalara uyğun modernləşdirilmədi və öz rəqabət qabiliyyətini yüksəltməyi bacarmadılar. Buna görə də, Azərbaycanda yeni modernləşdirilmiş və rəqabətqabiliyyətli qida sənayesi müəssisələrinin yaradılmasına ehtiyac var idi. 2004-cü ildən başlayaraq ölkədə qəbul edilib reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarında regionlarda yeni müasir tələblərə uyğun qida sənayesi müəssisələrinin açılması və fəaliyyətə başlaması nəzərdə tutulurdu. Nəticədə bu gün regionlarda taxıl, şəkər, bitki yağları, çay, ət, süd, meyvə tərəvəz üzrə böyük emal müəssisələri, çörək və çörək məmulatlarının istehsalı üzrə müəssisələr yerləşdirilib.

**Cədvəl 1.**

**Qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri**

| **Göstəricilər** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı - cəmi | 393 | 449 | 487 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin cari qiymətləri ilə, milyon manat | 3050,8 | 3584,8 | 3884,3 |
| Sənaye məhsulunun fiziki həcm indeksi, əvvəlki ilə nisbətən, faizlə | 101,3 | 110,8 | 97,3 |
| Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, faizlə | 6,4 | 7,6 | 10,4 |
| Əsaskapitalainvestisiyalar, milyonmanat | 196,6 | 140,4 | 225,1 |
| **Əsas məhsul növlərinin natura ifadəsində istehsalı** | | | |
| Kolbasa məmulatları, ton | 16410,0 | 17728,9 | 25833,6 |
| Yağlılıq dərəcəsi 1-3% olan süd, min ton | 911,3 | 945,4 | 946,4 |
| Yağlılıq dərəcəsi 6-29% olan süd, ton | 6947,0 | 7620,2 | 7742,2 |
| Pendir və kəsmik, ton | 50080,9 | 51346,0 | 53472,6 |
| Kərə yağı, minton | 23,6 | 24,1 | 25,8 |
| Yeməli balıq məhsulları (balıq konservləri daxil olmaqla), min ton | 1,8 | 1,1 | 1,7 |
| Konservləşdirilmiş tərəvəz və meyvələr, min ton | 164,7 | 191,5 | 186,7 |
| Makaron məmulatları, min ton | 4,2 | 4,2 | 11,8 |
| Bitki yağları, min ton | 71,1 | 75,1 | 75,1 |
| Marqarin, ton | 47211,2 | 47269,2 | 49894,2 |
| Qənnadı məmulatları, min ton | 79,4 | 69,3 | 69,7 |
| Qənd və şəkər, min ton | 203,1 | 271,0 | 246,5 |
| Un, min ton | 1602,9 | 1781,7 | 1842,9 |
| Çörək və çörək-bulka məmulatları, min ton | 1235,0 | 1256,4 | 1294,6 |
| Təbii çay, min ton | 9,3 | 9,8 | 10,6 |
| Yodlaşdırılmış duz, ton | 64410,0 | 74672,3 | 74253,3 |

Mənbə: https://www.stat.gov.az/source/industry

Bundan başqa regionlarda makaron və qənnadı məhsulları istehsalı, şərabçılıq məhsullarının istehsalı üzrə müəssisələr şəbəkəsi vardır. Son on ildə Azərbaycanda qeyri-neft sənayesinin inkişafına dair ciddi və kompleks tədbirlər həyata keçirilir. Elə sahələr var ki, əlavə dəyər yaradırlar və ölkə iqtisadiyyatının artımına səbəb olurlar. Bu nöqteyi nəzərdən qida sənayesi aktuallığı ilə seçilir və iqtisadi təhlükəsizliyin gücləndirilməsi üçün vacib əhəmiyyət kəsb edir [7]. Belə ki, qida sənayesində ildən ilə yeni rəqabətqabiliyyətli müəssisələrin yaradılması sahəsində və məhsul istehsalının həcmində artım gözə çarpır. Qida sənayesinin ayrı-ayrı sahələrinin istehsal gücü aşağıdakı kimidir:

- Qənd və şəkər istehsalı. 2020-ci ildə ölkədə 69,7 min ton qənd və şəkər istehsal edilmişdir. Burada əsas xammal ölkədə istehsal olunan şəkər çuğunduru olmuşdur.
- Yağ-piy sənayesində əsasən yağ, marqarin, bitki piyləri, mayonez və s. istehsal edilir. Bu sahənin müəssisələri də əsasən ölkədə istehsal edilən xammaldan istifadə edirlər. 2020-ci ildə ölkədə 75,1 min ton bitki yağları, 49,9 min ton marqarin istehsal edilmişdir.
- Ət-süd sənayesi. Bu sahənin əsas məhsulu müxtəlif yağlılıqda süd, kəsmik, pendir və digər məhsullardır. Ölkədə 2020-ci ildə 954 min ton süd, 53,5 min ton pendir və kəsmik, 25,8 min ton kərə yağı istehsal edilmişdir. 2020-ci ildə 25,8 min ton kolbasa məmulatları istehsal edilmişdir.
- Balıq sənayesi. Bu sahənin müəssisələri balıq və kürü istehsal edirlər, əsasən Xəzər dənizi və Kür çayı ətrafında yerləşirlər. 2020-ci ildə ölkədə 1,7 min ton balıq, 0,1 min ton nərə kürüsü istehsal olunmuşdur.
- Konserv sənayesi. Bu sahə müəssisələri yerli xammalı emal edirlər. 2020-ci ildə ölkədə 186,7 min ton meyvə və tərəvəz konservləri istehsal edilmişdir.
- Un, çörək və makaron sənayesi. Ölkə əhalisinin çörək və un məmulatlarına olan tələbatını tam ödəyir. Ölkə ərazisində demək olar ki, hər yerdə bu sahənin müəssisələri yerləşdirilib. 2020-ci ildə 11,8 min ton makaron məmulatları, 1842,9 min ton un, 1294,6 min ton çörək və çorək-bulka məmulatları istehsal edilmişdir.
- şərabçılıq, pivə və içki sənayesi. Ölkədə bu sahəyə aid 131 müəssisə və 260 qeydiyyatdan keçmiş fərdi sahibkar fəaliyyət göstərir. Onlar 2020-ci ildə 39861,4 min dekalitr mineral və qazlı sular, 28619,3 min dkl. alkoqolsuz içkilər, 0,4 min dkl. şampan şərabı, 1718,7 min dkl. araq, 50,8 min dkl. Brendi (konyak), 5466,5 min dkl. pivə istehsal etmişdilər. . [12]

Qeyd etmək lazımdır ki, regionlarda qida sənayesi müəssisələrinin inkişaf etdirilməsi məsələləri daim dövlətin diqqəti mərkəzindədir. Son illərdə xüsusən də regionlarda qida sənayesi müəssisələrinin potensialının genişləndirilməsi üzrə ardıcıl tədbirlər işlənib hazırlanmış və həyata keçirilmişdir. Bir tərəfdən regionlarda kənd təsərrüfatının inkişaf etdirilməsi, digər tərəfdən isə regionların infrastruktur təminatının yaxşılaşdırılması yeni rəqabət qabiliyyətli qida sənayesi müəssisələrinin yaradılmasına təkan verdi [13]. Bakıda balıq kombinatı, Abşeron rayonunda duz istehsalı üzrə zavod, Sumqayıtda "Azərsun" holdinqin bitki yağlarının emalı üzrə zavodu, İmişlidə şəkər zavodunu regionlarda böyük qida sənayesi müəssisələrinin inkişaf etdirilməsinə misal kimi göstərmək olar. Ölkədə şərabçılıq üzrə müəssisələr, meyvə və tərəvəz konservlərinin istehsalı üzrə konserv zavodları, ət-süd məhsullarının istehsalı üzrə zavodlar inkişaf etdirilmişdir.

2014-cü ilin dekabr ayında qəbul edilmiş "Azərbaycan Respublikasında 2015-2020-ci illərdə sənayenin inkişafına dair Dövlət

Proqramı" çərçivəsində ölkədə yeni yüksək texnologiyalar əsasında qida sənayesinin ən yeni emal müəssisələrinin tikintisi nəzərdə tutulmuşdur [13].

Regionların sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlərin davam etdirilməsi, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, yerlərdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası regionlarda qida sənayesi müəssisələrinin inkişaf etdirilməsinə daha da güclü təkan vermişdir.

Proqramda sənayenin inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi nəzərdə tutulmuşdur, o cümlədən [14]:

nisbətən yeni mühit kimi müasir biznesdə iqtisadi münasibətləri formalaşdıran mühüm elementə çevrilmişdir. İnformasiya texnologiyalarının tətbiqinin yüksək tempi, o cümlədən iqtisadi fəaliyyətin müxtəlif aspektləri: menecment, marketinq, korporativ maliyyə və s. biznesin təşkilində və həyata keçirilməsində əhəmiyyətli dəyişikliklərə, əhalinin yaşayış, mədəni və təhsil səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Bu da əhalinin istehlak məsrəflərinin tərkib hissəsi kimi xidmətlərə çəkilən xərclərin mütləq və nisbi artması ilə müşayiət olunur. Koronavirus (COVID-19) pandemiyası dövründə bir çox müəssisələr, dövlət təşkilatları, eləcə də iaşə obyektlərinin və iri ticarət mərkəzlərinin fəaliyyəti dayandırıldığından və həmin obyektlərin fəaliyyəti onlayn ticarətə keçdiyindən e-ticarət əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Amma pandemiya dövründə onların fəaliyyəti elmi əsaslarla dəyərləndirilməmişdir. Bu da mövzunun aktuallığını təsdiq edir. Tədqiqatın məqsədi Koronavirus (COVİD-19) pandemiyası zamanı E-Ticarət fəaliyyətinin elmi cəhətdən əsaslandırılması və Azərbaycanda səmərəli idarə edilməsi məsələlərinin araşdırılması, eləcə də onun iqtisadi mənfəətə təsirinin qiymətləndirilməsidir.

**Açar sözlər:** *e-ticarət, iqtisadiyyat, mənfəət, informasiya*

**UOT:**339
**JEL:** I 17

## Giriş

Pandemiya dövründə iqtisadiyyatın demək olar ki, 70-80%-i e-ticarət sisteminə müraciət edərək öz fəaliyyətlərini dəyişdirməyə məcbur olmuşlar. Bütün ticarət əməliyyatları və ödəmələr onlayn sistemdə aparılmışdır. Bu da təkmilləşdirilmiş elektron sistem tətbiqlərinin hazırlanmasına

ehtiyac yaratmışdır. Plastik kartlarla edilən ödənişlər zamanı kart sahibləri haker hücumlarına məruz qalmışlar, onlayn sistemdə ödənişlərinin kütləvi xarakter daşıması səbəbindən sistemdə donmalar da müşahidə olunmuşdur. Bütün bu problemlər təkmilləşdirilmiş e-ticarət sistemlərinin yaradılmasını zəruri etmişdir. Bu cür problemlərin qarşısını almaq üçün bir çox alim və tədqiqatçılar müəyyən araşdırmalar aparmışdır.

Covid-19 şəraitində e-ticarətin Azərbaycan iqtisadiyyatına təsirinin təhlili

Ənənəvi ticarət alıcı ilə satıcı arasında birbaşa əlaqəni nəzərdə tutur, e-ticarət isə onlayn satış vasitəsilə xidmətdir. E-ticarət distant ticarət üsullarını özündə əks etdirir. Məsələn, kataloq və sayt səhifələrində bütün məlumatları təqdim edir ki, bu da istehlakçı üçün əlverişli, satıcı üçün isə qənaətcildir. Buna baxmayaraq, bütün malları online şəkildə almaq rahat deyil və bir sıra müştərilər sadəcə olaraq "hiss etmədən" bir şey almağı sevmirlər. Online ticarət zamanı əlverişli marketinq strategiyası hazırlamaq və effektiv merchandising üsulundan istifadə etmək vacibdir.

İnternet ticarəti e-ticarətin bir hissəsidir və çox sürətlə inkişaf edir. Bu konsepsiya malların və xidmətlərin alınması/satılması prosesi zamanı (kommersiya/maliyyə əməliyyatının bütün dövrü və ya onun bir hissəsi) internet texnologiyalarından istifadə etməklə elektron şəkildə həyata keçirildiyi onlayn kommersiya fəaliyyətinə aiddir. İnternet vasitəsilə ticarət əməliyyatları bir çox təşkilat və mal/xidmət istehsalçıları, distribyutorlar və pərakəndə satıcılar tərəfindən həyata keçirilə bilər.

**Cədvəl 1**

**Debet və kredit kartları ilə aparılan əməliyyatlar, 2010 – 2021-ci illər**

| İllər | Ödəniş kartlarının ümumi sayı, min ədəd, (dövrün sonuna) | Debet və kredit kartları vasitəsilə aparılan əməliyyatların | | Ölkə daxili əməliyyatlardan: nağdsız ödənişlər Elektron ticarət vasitəsilə | | Əvvəlki ilə nisbətən növbəti ilin elektron ticarət həcmi %-i |
|---|---|---|---|---|---|---|
| | | Sayı, min əməliyyat | Həcmi, mln. manat | Sayı, min əməliyyat | Həcmi, mln. manat | |
| 2010 | 4341 | 47602 | 6056 | | | |
| 2011 | 4670 | 51854 | 7230 | | | |
| 2012 | 5118 | 58269 | 8827 | | | |
| 2013 | 5783 | 68910 | 10297 | | | |
| 2014 | 5855 | 78328 | 11870 | 7219 | 148 | |
| 2015 | 5769 | 86318 | 12472 | 11510 | 352 | 42% |
| 2016 | 5444 | 84483 | 12781 | 12344 | 325 | -7,7% |
| 2017 | 5910 | 97870 | 14729 | 17178 | 593 | 54,8% |
| 2018 | 6621 | 128644 | 17773 | 26139 | 1492 | 60,3% |
| 2019 | 7376 | 163385 | 23241 | 44499 | 3055 | 48.8% |
| 2020 | 9230 | 226455 | 28951 | 69288 | 3876 | 21,1% |
| 2021 | 11040 | 355231 | 37434 | 109458 | 7208 | 53,8% |
| 2021-də 2010-cu ilə nisbətən , % | 62 | 87 | 84 | 93 | 98 | |

**Mənbə:** https://uploads.cbar.az/assets/3a728cc0a5b06c36a06644157.xlsx, 01.01.2021

2019-cu ildə debet və kredit kartları ilə edilmiş nağdsiz ödənişlərin həcmi 23 milyard 241 milyon manat, 2020-ci ildə 28 milyard 951 milyon manat və 2021-ci ildə isə debet və kredit kartları ilə edilmiş ödənişlərin həcmi 37 milyard 434 milyon manat olmuşdur.

Cədvəldən göründüyü kimi 2021-ci ildə e-ticarət həcmində 53,8% artım müşahidə edilir. 2020-ci ilə nisbətən bir il ərzində e-ticarətdə 32,7% artım olmuşdur. Banklarda onlayn müraciətlərin qəbulu tətbiq edilməyə başlanmışdır.

Rəqəmsallaşma bəzi hökumətlərin xidmətin davamlılığını dəstəkləmək üçün istifadə etdiyi başqa bir siyasət alətinə çevrilmişdir.

Davamlı olaraq aparılan sistemli islahatların məntiqi ardıcıllığı olaraq Mərkəzi Bank qabaqcıl texnologiya və proqram təminatlarına əsaslanmış arxitekturaya malik MÖS yaratmışdır. 2020-ci ildə MÖS ilə həyata keçirilən ödəniş əməliyyatlarının ümumi həcmi 223,4 mlrd. manat, sayı isə 59,8 mln. ədəd təşkil etmiş, son 3 il ilə müqayisədə əməliyyatların həcmi 19% azalmış, sayı isə 50% çoxalmışdır. Mərkəzi Bankın operatoru olduğu, büdcə ödənişləri və kütləvi xidmətlər üzrə ödənişlərin mərkəzləşdirilmiş qaydada yığılması üçün yaradılmış Hökumət Ödəniş Portalı ilə 2020-ci il ərzində aparılan əməliyyatların ümumi həcmi 3.3 mlrd. manat, sayı isə 51.9 mln. ədəd olmuş, bu göstəricilər son 3 ilin göstəricilərindən müvafiq olaraq 34% və 39% yüksəkdir. 2020-ci il ərzində Banklararası Kart Mərkəzi ilə 53.2 mln. kart əməliyyatı həyata keçirilmiş, milli valyuta ilə əməliyyatların həcmi 2752 mln. manat, xarici valyuta ilə isə 14.6 mln. ABŞ dolları və 3.1 mln. avro olmuşdur. 2018-ci il ilə müqayisə etdikdə sistemdə emal olunan əməliyyatların ümumi sayı 1.9 dəfə, həcmi isə manat üzrə 2.8 dəfə, ABŞ dolları üzrə 2.6 dəfə, avro üzrə 1.6 dəfə yüksəlmişdir.

**Cədvəl 2**

**İnternet istifadəçilərinin yaş tərkibi (2021)**

| İqtisadi rayonlar | Cəmi | o cümlədən: | | | |
|---|---|---|---|---|---|
| | | 7-24 yaş qrupunda olan şəxslər | 25-35 yaş qrupunda olan şəxslər | 36-64 yaş qrupunda olan şəxslər | 64 yaşdan yuxarı şəxslər |
| Ölkə üzrə | 100,0 | 39,9 | 25,8 | 34,2 | 0,1 |
| şəhər | 100,0 | 37,6 | 26,1 | 36,2 | 0,1 |
| kənd | 100,0 | 41,6 | 25,4 | 32,9 | 0,1 |
| Bakı şəhəri | 100,0 | 35,2 | 27,9 | 36,7 | 0,2 |
| Abşeron | 100,0 | 45,4 | 23,5 | 31,0 | 0,1 |
| Gəncə-Qazax | 100,0 | 45,4 | 23,6 | 30,9 | 0,1 |
| Şəki-Zaqatala | 100,0 | 43,2 | 23,8 | 32,9 | 0,1 |
| Lənkəran | 100,0 | 36,4 | 26,9 | 36,6 | 0,1 |
| Quba-Xaçmaz | 100,0 | 38,9 | 24,9 | 36,1 | 0,1 |
| Aran | 100,0 | 40,7 | 25,6 | 33,6 | 0,1 |
| Yuxarı-Qarabağ | 100,0 | 40,2 | 28,4 | 31,3 | 0,1 |
| Dağlıq Şirvan | 100,0 | 40,3 | 24,6 | 35,0 | 0,1 |
| Naxçıvan Muxtar Respublikası | 100,0 | 39,5 | 26,0 | 34,3 | 0,2 |

**Mənbə:** https://www.stat.gov.az/source/information_society/az/002_18.xls

Pandemiya müddətində təhsildə TİMS (Teacher Information Management System) tətbiqinə keçid həyata keçirilmişdir, lakin bir evdə təhsil alan bir neçə şagird olduqda bu tətbiqdən istifadədə və onlayn dərslərə qoşulmalarda kompüter çatışmazlığı səbəbindən problemlər yaşanmışdır.

Azərbaycan üçün səhiyyə orqanlarının qeyri-dövlət subyektləri - tibb və sığorta təşkilatları, əlaqəli sənaye müəssisələri, könüllülərlə tam miqyaslı qarşılıqlı fəaliyyətə və tibbi xidmətin göstərilməsinə yeni yanaşmalara hazır olmaması belə zəif nöqtəyə çevrildi. İlk növbədə dövlət sektoruna və ənənəvi həllərə arxalanmaq pandemiyanın ilkin mərhələlərində e-təbib sistemini tez və effektiv şəkildə səfərbər etməyə imkan yaratsa da, xəstəliyin pik həddində onun resursları yetərli olmadı. Nəticədə, həm COVID-19 xəstələri, həm də xroniki xəstəlikləri olanlar üçün qayğıya əlçatanlığın azalması müşahidə olunmuşdur.

**Azərbaycanda E-ticarətə təsir edən texnoloji faktorların təhlili**

Azərbaycanın innovasiya yönümlü inkişafı həm elmə əsaslanan məhsul və xidmətlərin, həm də bir proses kimi informasiya texnologiyalarının inkişafından asılıdır. İnnovativ inkişafın digər sahəsi ixrac olunan elm tutumlu məhsul və xidmətlərin dövlət marketinq siyasətindən, marketinq strategiyalarından və reklam kampaniyalarından fəal istifadə etmək bacarığıdır.

Son illər Azərbaycanda internetdən istifadənin artması elektron ticarətin inkişafı üçün mühüm infrastruktur yaradır. Bu onunla bağlıdır ki, internet innovasiyalara, bir çox biznes modellərində yeni idarəetmə üsullarının tətbiqinə yönəlmiş dəyişikliklərə məruz qalır. Onların vasitəsilə internet istifadəçiləri e-ticarətin mühüm hissəsinə çevrilirlər.

Sənədli telekommunikasiya 2010-cu illə

**Cədvəl 3**

**İKT sektoru və İKT məhsullarının ticarəti üzrə əsas göstəricilər**

| | 2010 | 2015 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, milyon manat | 1146, | 1589, | 1826, | 2083, | 2315, |
| İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi, milyon manat | 715,8 | 970,7 | 1112, | 1293, | 1430, |
| İKT sektorunda yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, faizlə | 1,7 | 1,8 | 1,4 | 1,6 | 2,0 |
| İKT müəssisələri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar, milyon manat | 204,0 | 338,4 | 183,7 | 294,7 | 177,2 |
| İKT məhsullarının idxalı, milyon manat | 180,2 | 268,6 | 883,8 | 901,6 | 1055, |
| Telekommunikasiya avadanlıqları | 92,7 | 99,8 | 328,6 | 198,1 | 287,0 |
| kompüter və periferiya avadanlıqları | 52,3 | 60,0 | 315.8 | 458,2 | 503,8 |
| elektron avadanlıqlar | 15,0 | 34,0 | 145,9 | 177,4 | 176,3 |
| digər İKT məhsulları | 20,2 | 74,8 | 93,5 | 67,9 | 88,8 |
| İdxal olunmuş İKT məhsullarının ölkəyə idxal olunmuş bütün növ məhsulların dəyərində xüsusi çəkisi, faizlə | 3,5 | 2,8 | 4,5 | 3,9 | 5,8 |

**Mənbə:** https://www.stat.gov.az/source/information_society/, 01.02.2022

müqayisədə 2021-ci ildə təxminən 6 dəfə, mobil telefon rabitəsi 3 dəfə, internet xidmətləri 17 dəfə, radio və televiziya yayımı 8 dəfə artıb. Son zamanlar informasiya

texnologiyaları təkcə iqtisadi deyil, həm də sosial məkana öz təsirini göstərməkdədir. Son iki ayda pandemiyaya bənzəyən bir vəziyyətdə bütün insanlar internetə təkcə iqtisadi məsələlər üçün deyil, həm də sosial ünsiyyət üçün müraciət ediblər. Bu, bir daha göstərir ki, pandemiya dövründə informasiya texnologiyalarından istifadə artıb, ona görə də, internet bir çox infrastrukturların - bank, səhiyyə, təhsil və s.- fəaliyyətinə təsir göstərib.

Cədvəl 3-dən göründüyü kimi, İKT-də məhsul buraxılışı 2020-ci ildə 2019-cu ilə nisbətdə 11% artmışdır. İKT sektorunda yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 2020-ci ildə 2019-cu ilə nisbətdə 0,4% artmışdır. İKT məhsul idxalına nəzər saldıqda 2019-cu ilə nisbətdə 2020-ci ildə 17% artmışdır.

2010-2021-ci illərdə Azərbaycan müəssisələrində internetə qoşulmaların və saytların payı 3.8 dəfə artmışdır. Həmin dövrdə internet vasitəsilə məhsul və xidmətlər üzrə sifarişlərin payı 2 dəfə, məhsul və xidmətlər üzrə sifarişlər isə 3 dəfə artıb. Bu bir daha sübut edir ki, onlayn ticarət əməliyyatlarının həcmi artır. Pərakəndə satıcılar həmçinin evdə alıcılar üçün alış-veriş təcrübəsinin yaradılmasına diqqət yetirirlər ki, bu da tam inteqrasiya olunmuş çoxkanallı strategiya tələb edir. Tədqiq olunan seçimlərə əlavə edilmiş reallıqdan istifadə edən uyğun alətlər daxildir.

2010-2021-ci illərdə İKT sektoruna investisiyaların 10% azalmasına baxmayaraq, Azərbaycanda İKT istehsalı 1,5 dəfə, idxal isə 4,9 dəfə artmışdır. ƏDV 56% artıb, investisiyaların həcmi 10% azalmışdır.

Son illər Azərbaycanda internetdən istifadənin artması elektron ticarətin inkişafı üçün mühüm infrastruktur yaradır. Bu onunla bağlıdır ki, internet innovasiyalara, bir çox biznes modellərində yeni idarəetmə üsullarının tətbiqinə yönəlmiş dəyişikliklərə məruz qalır. Onların vasitəsilə internet istifadəçiləri e-ticarətin mühüm hissəsinə çevrilirlər.

İnternet istifadəçilərinin etibarlılıq dəyəri, təhlükəsizlik xidmətləri, onlayn ödəniş sistemləri və çatdırılma kimi bir sıra meyarlar nəzərə alınmaqla bu yaxınlarda yaradılmış UNCTAD B2C Elektron Ticarət İndeksində Azərbaycanın 2019-cu il Elektron Ticarət İndeksi 61,8 olub. 2020-ci ildə UNCTAD B2C-nin məlumatına görə, Azərbaycan onlayn ticarətdə etibarlılıq dəyərinə malik ölkələr arasında 58-ci yeri tutmuşdur.

**Nəticə**

Koronavirus pandemiyası və elektron ticarətin iqtisadi mənfəət və problemlərinin öyrənilməsi elektron ticarətin ümumi iqtisadi fayda verməsi nəticəsinə gəlməyə imkan vermişdir. İnternetdən istifadə etməklə həyata keçirilən elektron ticarətin bütün iştirakçılarının əldə etdikləri ümumi iqtisadi faydalar aşağıdakılardır.

1. Bütün təchizatçı bazarlarında qlobal iştirak və qlobal müştəri seçimi. Elektron mağazalar vasitəsilə mal və xidmət ticarətinin həyata keçirilməsi nə coğrafi, nə də milli sərhədlərlə məhdudlaşmır. Məhdudiyyət yalnız kompüter şəbəkələrinin inkişaf səviyyəsi ilə müəyyən edilir. Ən mühüm şəbəkələr qlobal olduğundan, e-ticarət sistemi hətta kiçik tədarükçülərə də bazarda iştirak etmək və qlobal miqyasda iş görmək potensialını təmin edir. Müştərilər, həmçinin coğrafi yerindən asılı olmayaraq, bazar üçün lazım olan mal və xidmətləri təklif edən bütün potensial təchizatçıların real qlobal seçimini əldə edirlər.

2. Davamlı əməliyyat. Elektron mağazalar gündə 24 saat, həftənin 7 günü və ilin 365 günü fəaliyyət göstərir. Belə olan halda, günün istənilən vaxtı istənilən potensial alıcı

üçün virtual mağazaya baş çəkmək reallığa çevrilir.

3. Dünyanın istənilən yerindən ticarət proseslərini effektiv şəkildə idarə etmək üçün real imkan əldə etmək. Elektron mağazalar onları dünyanın istənilən yerindən, internetə qoşulmuş istənilən kompüterdən idarə etməyə imkan verir. Elektron mağazaların sahibləri bütün ticarət əməliyyatlarının və davam edən anbar əməliyyatlarının avtomatik qeydiyyatı əsasında öz menecerlərinin hərəkətlərinə nisbətən asanlıqla nəzarət edirlər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Süleymanov E., İbrahimova X. Elektron ticarətin Azərbaycanda inkişaf perspektivləri, Baki Mühəndislik Universiteti, 2018

2. Abasova S.H., Səfərov R.A. Azərbaycanda Elektron Ticarətin Dəstəklənməsi üçün İnnovasiyaların İnkişafında İKT Sektorunun Rolu. Материалы XXУ–й международной научно-практической конференции «Актуальные вопросы экономики, социологии и права: проблемы и поиски решений». "İqtisadiyyat, sosiologiya və hüququn aktual problemləri" jurnalı, 2-2020, səh.8-11.

3. Gavrilov, L. P. E-commerce: textbook and workshop for undergraduate and graduate students / L. P. Gavrilov. - M. : Yurayt, 2017. - 363 p.

4. Krymsky I.A., Pavlov K.V. Problems and prospects for the development of the electronic economy in Russia. - Murmansk: Kola Scientific Center of the Russian Academy of Sciences, 2007.

5. Panasenko S.V. Marketing tools for increasing the competitiveness of organizations in the retail trade // Development of new industries and branches of innovative mesoeconomics: Proceedings of the international scientific and practical conference. - Khabarovsk, 2017. - p. 109-115.

6. Chekmarev O.P., Lukichev P.M., Konev P.A. Factors of changes in the Russian labor market under the influence of the COVID-19 pandemic and entrepreneurs' adaptation strategies // Labor Economics. 2021. V.8 No. 4. pp. 329-340.

7. Блюм М. (2020), Что важно во время пандемии? Правильно – цифровизация. О чем говорил Боронов на встрече, Кактус Медиа, Бишкек, -521 с.

8. http://www.e-qanun.az/framework/40164

9. https://www.ibm.com/thought-leadership/institute-business-value/report/covid-19-future-business )

10. https://www.statista.com/topics/5692/e-commerce-in-russia/#dossierKeyfigures

11. https://apa.az/az/xeber/maliyye/Azrbaycanda-e-ticartin-hcmi-son-3-ild-5-df-artib-632007

12. https://iclg.com/practice-areas/digital-business-laws-and-regulations

13. https://www.imf.org/en/Topics/imf-and-covid19/Fiscal-Policies-Database-in-Response-to-COVID-19

**Самира Гусейн кызы АБАСОВА**
**Айнура Физули гызы АЛИЗАДЕ**

# ПАНДЕМИЯ КОРОНАВИРУСА (COVID-19) И ЭЛЕКТРОННАЯ КОММЕРЦИЯ: ЭФФЕКТИВНОЕ УПРАВЛЕНИЕ ЭКОНОМИЧЕСКИМИ ВЫГОДАМИ И ПРОБЛЕМАМИ В АЗЕРБАЙДЖАНЕ

**РЕЗЮМЕ**

Интернет, как относительно новая среда с широким спектром возможностей работы с информацией, стал важным элементом формирования экономических отношений в современном бизнесе. Высокие показатели применения информационных технологий, в том числе в различных аспектах экономической деятельности: менеджмент, маркетинг, корпоративные финансы и др. привело к существенным изменениям в организации и осуществлении предпринимательства, повышению жизненного, культурного и образовательного уровня населения. населения сопровождается абсолютным и относительным ростом расходов на услуги в составе потребительских расходов населения, значительно развилась электронная коммерция ди. Однако во время пандемии их деятельность не оценивалась на научной основе. Это подтверждает актуальность вопроса. Целью исследования является научное обоснование вопросов деятельности электронной коммерции и эффективного управления в Азербайджане в период пандемии коронавируса (COVID-19), а также оценка ее влияния на экономические выгоды.

**Ключевые слова:** электронная коммерция, экономика, прибыль, информация.

**Samira Huseyn gizi ABASOVA**
**Aynura Fizuli gizi ALİZADE**

# CORONAVIRUS (COVID-19) PANDEMY AND E-COMMERCE: EFFECTIVE MANAGEMENT OF ECONOMIC BENEFITS AND PROBLEMS IN AZERBAIJAN

**SUMMARY**

The Internet, as a relatively new environment with a wide range of opportunities to work with information, has become an important element in shaping economic relations in modern business. High rates of application of information technologies, including various aspects of economic activity: management, marketing, corporate finance, etc. has led to significant changes in the organization and implementation of business, raising the living, cultural and educational standards of the population. The population is accompanied by an absolute and relative increase in expenditures on services as part of the population's consumption expenditures. E-commerce has developed significantly di. However, during the pandemic, their activities were not evaluated on a scientific basis. This confirms the urgency of the issue. The aim of the study is to scientifically substantiate the issues of E-Commerce activity and effective management in Azerbaijan during the Coronavirus (COVID-19) pandemic, as well as to assess its impact on economic benefits.

**Keywords:** e-commerce, economy, profit, information

**Daxil olub:** 20.04.2022

**Tünzalə Tofiq qızı QURBANOVA, i.e.n., dos.**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),

**Amalya İlqar qızı ALLAHVERDİYEVA**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), magistr
Email: amelia.allaxverdieva99@mail.ru

# KORONAVİRUS PANDEMİYASI VƏ POSTPANDEMİYA DÖVRÜNDƏ MALİYYƏ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİ

## XÜLASƏ

Postsovet məkanının iqtisadiyyatında obyektiv bazar iqtisadi qanunauyğunluqlarının və tarixi amillərin təsiri altında gedən mürəkkəb transformasiya prosesi zamanla əhəmiyyətli dərəcədə ləngiyən və son illərdə iqtisadi artımı əhəmiyyətli dərəcədə azaldan dərin böhranlarla müşayiət olunmuşdur. Tədqiqatın məqsədi pandemiya və postpandemiya dövründə ölkənin iqtisadi və maliyyə təhlükəsizliyinin təmin edilməsi sisteminin xüsusiyyətlərinin hərtərəfli elmi tədqiqi və transformasiya iqtisadiyyatında dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi metodologiyasının işlənib hazırlanmasıdır.Tədqiqat işində ilk dəfə olaraq koronavirus pandemiyası və postpandemiya dövründə maliyyə təhlükəsizliyinin təmin edilməsinin Azərbaycan üzrə mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi aparılmış, əsas istiqamətlər müəyyənləşdirilmişdir.
***Açar sözlər:*** maliyyə, sosial-iqtisadi, postpandemiya, təhlükəsizlik

**UOT:** 339
**JEL:** M17

## Giriş

Postsovet məkanının iqtisadiyyatında obyektiv bazar iqtisadi qanunauyğunluqlarının və tarixi amillərin təsiri altında gedən mürəkkəb transformasiya prosesi zamanla əhəmiyyətli dərəcədə ləngiyən və son illərdə iqtisadi artımı əhəmiyyətli dərəcədə azaldan dərin böhranlarla müşayiət olunmuşdur. Dünyada belə iqtisadi transformasiya təcrübəsi finansal idaretmənin təkmilləşdirilməsi və onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün yanaşmaların axtarışını çətinləşdirir və bu da öz növbəsində tədqiqatın mövzusunun aktuallığını təsdiqləyir.

Bu gün iqtisadi münasibətlərdə ziddiyyətlər qalmaqdadır və bütün səviyyələrdə təsərrüfat subyektlərinin təhlükəsizliyinə yeni təhdidlər yaranır. Müasir şəraitdə milli təhlükəsizliyin əsas komponentlərindən biri olan iqtisadi təhlükəsizlik xüsusi əhəmiyyət kəsb edir. İqtisadi təhlükələrin mövcud miqyası maliyyə təhlükəsizliyi probleminin həllini tələb edir.

Maliyyə təhlükəsizliyinin təmin edilməsi məsələləri elmi müzakirələrdə qaldırılır və elmi dairələrdə artan maraq doğurur, müasir dövlət idarəçiliyinin bir çox normativ sənədlərində də öz əksini tapır. Maliyyə təhlükəsizliyi iqtisadi kateqoriya kimi bu gün müxtəlif təsərrüfat subyektlərinin və iqtisadi sistemlərin idarə edilməsinin nəzəriyyə və praktikasında istifadə olunur.

Hazırda maliyyə təhlükəsizliyi və ölkənin maliyyə təhlükəsizliyi anlayışlarının mahiyyəti tamamlanmaqda və genişləndirilməkdədir. Həmçinin, ölkənin maliyyə təhlükəsizliyinin göstəriciləri sistemi və onların

həddi qiymətlərdə mübahisəli olaraq qalmaqdadır.

Ən mühüm idarəetmə vasitələri bunlardır: real və gələcək təhlükələrin müəyyən edilməsi; onların nəticələrinin aradan qaldırılması və qarşısının alınması; iqtisadi təhlükəsizliyə təhdidlərin yaranması və inkişafının səbəb və amillərinin öyrənilməsi; regional iqtisadi idarəetmənin inkişafının prioritet istiqamətləri olan iqtisadi təhlükəsizliyin təmin edilməsi mexanizmlərinin işlənib hazırlanması.

**Maliyyə təhlükəsizliyi sisteminin nəzəri əsasları.**

Maliyyə təhlükəsizliyi bütün səviyyələrdə maliyyə fəaliyyətini qorumaq üçün tədbirlər, üsullar və vasitələrin məcmusudur.

Maliyyə təhlükəsizliyi dövlətin ən mühüm funksiyasıdır. Dövlətçilik tarixində hər zaman əhalinin sabit maliyyə təminatı problemi ən mühüm məsələlərdən biri olmuşdur, çünki hər bir ölkənin iqtisadi təhlükəsizliyi ondan asılıdır. Bu problem cəmiyyətin inkişafının hər bir mərhələsində iqtisadi artımı təmin etmək vəzifəsinin törəməsidir. Maliyyə təhlükəsizliyi ölkənin makro və mikroiqtisadi təhlükəsizliyinin, o cümlədən onun iqtisadi və ümumilikdə milli komponentlərinin tərkib elementidir.

E.Koçetov və Q.Petrovaya görə, maliyyə axınlarının yeni məzmununun mahiyyəti ondan ibarətdir ki, onlar bir tərəfdən reproduksiya dövründən qoparaq virtual geoloji məkana daxil olur, digər tərəfdən, yeni məzmun üçün dəyər mübadiləsi yaradır. Bu ekvivalent mübadilədən uzaqlaşma və maliyyə axınlarının spekulyativ kapitala köçürülməsi prosesinin dərinləşməsi maliyyə vəsaitlərinin hərəkətinin ən son tarixi və qlobal tənzimlənməsinə bənzər iqtisadi vəziyyətdir ki, bu zaman maliyyə idarəetməsi və maliyyə hüququ (bir hissəsi kimi maliyyə menecmenti) yeni funksiyalar götürür. İnvestisiya prosesində vasitəçilik edən reproduktiv maliyyə ilə, qlobal maliyyə bazarının müəyyən hissəsində vasitəçilik edən virtual maliyyə arasında tarazlıq (hüquqi və iqtisadi fərq meyarlarının aydın şəkildə anlaşılması) səmərəliliyin təmin edilməsinin əsas elementlərindən birinə çevrilir.

Maliyyə-hüquqi tənzimləmənin bu iki sahəsinin (real və virtual maliyyə) fərqlənməməsi ölkənin xarici maliyyə öhdəliklərinin qlobal maliyyə dövriyyəsində real və virtual maliyyə öhdəliklərinin manipulyasiyasından asılı olaraq artdığı zaman əsassız dövlət borcunun yığılmasına səbəb olur.

Bu bəyanat maliyyə təhlükəsizliyinin təmin edilməsi zərurətinə dair qlobal baxışı təqdim edir.

Maliyyə təhlükəsizliyinin həyata keçirilməsində monetar təhlükəsizliyin yerini və işini daha rahat aydınlaşdırmaq ondan ibarətdir ki, maliyyə aktivlərinin olmaması iqtisadiyyatın müxtəlif sahələrində ən sıxıcı ehtiyacların çatışmayan subsidiyalaşdırılmasına səbəb olur və müvafiq olaraq ölkədə ictimai təhlükəsizliyə xələl gətirir.

Eyni zamanda, bu ən ümumi qarşılıqlı əlaqə iqtisadi mahiyyətinə görə fərqli olan hadisə və proseslərdə öz konkret ifadəsini tapır. Hər bir dövlətin iqtisadi rifahının tərkib hissəsi olan maliyyə təhlükəsizliyi milli, iqtisadi, sosial və demoqrafik amillərin geniş spektrini əhatə etdiyindən dövlət siyasətinin prioritet istiqamətidir.

Şəkil 1-də maliyyə təhlükəsizliyi ilə ayrılmaz şəkildə bağlı olan və milli təhlükəsizliyin əldə edilməsinə töhfə verən dövlət təhlükəsizliyinin əsas kateqoriyaları göstərilir.

Təqdim olunan sxemi daha aydın başa düşmək üçün orada göstərilən anlayışlara təriflər vermək lazımdır.

Milli təhlükəsizlik - dövlətin siyasi, sosial, iqtisadi, hərbi, ekoloji aspektləri də daxil olmaqla milli maraqların geniş mənada

qorunduğu dövlət; xarici iqtisadi fəaliyyət, kütləvi qırğın silahlarının yayılması, habelə insanların mənəvi və intellektual dəyərlərinə təhlükələrin qarşısının alınması ilə bağlı risklərdir.

Müxtəlif müəlliflər iqtisadi təhlükəsizlik və maliyyə təhlükəsizliyi anlayışlarını özünəməxsus şəkildə şərh edir. Eyni zamanda onların müxtəlifliyini və müəllif unikallığını da qeyd etmək lazımdır.

**Maliyyə təhlükəsizliyinin təmin edilməsinin əsas sahələrinin qiymətləndirilməsi**

Müasir şəraitdə iqtisadiyyatın daimi və idarəolunan tərəqqisi və maliyyə təhlükəsizliyi maliyyə bazasının təkmilləşdirilməsi şərti ilə təyin olunur.

2021-2022-ci illər üçün dövlət maliyyə planından bu ilə görə istifadə 18 milyard 495 milyon manat proqnozlaşdırılır. Bu, 2018-ci ildən fərqli olaraq 2 milyard manat və ya 12 faizdir. Bu il dövlət maliyyə planından istifadənin illik ÜDM-də xüsusi çəkisi 28 faiz təşkil edir.

2019-cu il üçün dövlət xərcləmə planı üzrə təxminlərin əvvəlki ilin göstəriciləri ilə birlikdə yaxından araşdırılması bizə müşayiət olunan nümunələri tədqiq etməyə imkan verir: məlum olur ki, xərc planının istifadələrində sosial cəhətdən yerləşdirilmiş istehlakların payı artaraq, 2018-ci illə müqayisədə məktəbdə, sosial sığortada, mədəniyyətdə və fəhləlikdə bütün istifadələrin dövlət xərcləri planının tam istehlakdakı payı 9,8 faiz genişlənərək 33,0 faizə yüksəlmişdir.

Bu il iki dəfə dövlət pulunu azaltmaq seçimindən sonra əksər ailə mallarının xərclərinin genişlənməsinə baxmayaraq, iş, annuitet və sosial taksitləri genişləndirmək üçün davam edən ilin maliyyə planında nə qədər dəstəklər bölüşdürülsə də əhəmiyyət kəsb etmir. 2019-cu ilin dövlət xərcləri planında əmək haqqı tarifləri üzrə istehlak 3523,6 milyon manat təşkil edir ki, bu da bir il öncəki göstəricidən 73,1 milyon manat və ya 3 faiz çoxdur. Rifahın, mədəniyyətin, ifadələrin və idmanın praktiki sahələrində heç bir şəkildə kompensasiyanın genişləndirilməsi normal deyil.

Təlimat sahəsində kompensasiyalardan istifadənin 70,6 milyon manat artacağı proqnozlaşdırılır ki, bu da əvvəlki illə müqayisədə 6,5 faiz çoxdur. 2019-cu ildə annuitetlərin və sosial güzəştlərin ödənilməsi üçün 1827,1 milyon manat ayrılacaq. Azərbaycan hökuməti 2019-cu il üçün normal illik genişlənməni 4,3 faiz səviyyəsində təxmin etsə də, dostluq xərclərinin normal kritik genişlənməsi güc verir.

Bu il siyasətin həyata keçirilməsi, asayişin qorunması və icra hakimiyyətinin xərcləri 23,3 faiz artacaq. 2019-cu ildə yuxarı və mərkəzi orqanlara 569,6 milyon manat vəsaitin yanması nəzərdə tutulur. Bu, ötən dövrlə müqayisədə 24,8 milyon manat və ya 4,3 faiz çoxdur. Həmçinin, bu il qanuni icra və polis orqanlarının dəstəklənməsi üçün 1 milyard 208 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da 2020-ci ildən fərqli olaraq 19 milyon manat və ya 1,5 faizdir.

Bir qayda olaraq, 2019-cu ildə siyasətin həyata keçirilməsinə, polisin şəxsi kapitalına 1 milyard 778 milyon manat xərclənəcək ki, bu da ötən dövrlə müqayisədə 6,1 milyon manat və ya 0,3 faiz çoxdur. Maliyyə planının müxtəlif seqmentləri üzrə istehlaklar arasında kəskin ziddiyyətlər mövcuddur.

Bu şəkildə, maraqlıdır ki, təxminən 2005-ci ildən başlayaraq, dövlət maliyyə planından istifadənin azalacağı proqnozlaşdırılır. Tam istifadələrdə azalma təxminən 11,9 faiz olsa da, onların ölçüsü bir-birindən fərqli idi. Bir neçə xüsusi hal ilə, dövlət xərcləri planının istehlakının bütün əhəmiyyətli sahələrində azalma oldu. Dövlət öhdəliyinin və öhdəliklərinin tənzimlənməsi xərclərinin iki dəfədən çox olması nəzərdə tutulur. 2019-

cu ildə öhdəlik və öhdəliklərin ödənilməsi üçün 1 784,1 milyon manat vəsaitin yanması proqnozlaşdırılır. Bu, 998,9 milyon manat və ya iki dəfə çoxdur.

Öz növbəsində dövlət borcunun ödənilməsi xərclərinin ümumi büdcənin xərclər hissəsində xüsusi çəkisi əvvəlki dövrlə müqayisədə 5,9 faiz artaraq 3,7 faizdən 9,6 faizə yüksəlib. Müstəqillik dövründə ilk dəfədir ki, dövlət borcunun ödənilməsinə büdcənin köməyi ilə bu qədər vəsait ayrılır. Dövlət borcu xərclərinin əsas hissəsini və ya 82,5 faizini xarici borclar, qalan hissəsini isə daxili borclar təşkil edəcək. 2020-ci ilin dövlət maliyyə planında dövlət öhdəliyi üzrə istehlaklar gəlirlərin 10,5 faizini, istifadələrin isə 9,7 faizini təşkil edir. Bu da o deməkdir ki, mövcud məsrəflərin gəlirlər və istifadələr üçün payı sürətlə qlobal praktikada icazə verilən həddə doğru irəliləyir (10%). Müqayisə üçün qeyd edək ki, 2019-cu ilin maliyyə planı göstəricisində dövlət öhdəliklərinin idarə edilməsinin xərc planı istehlakında payı 3,7 faiz təşkil edib. Manatın məzənnəsinin daha da aşağı salınması naməlum öhdəliyin tənzimlənməsi xərclərini də genişləndirəcək. Dövlət öhdəliyi və öhdəlikləri üzrə dövlət maliyyə planının istehlakının belə kəskin genişlənməsi xaricdə ən çox yayılmış əldəetmə üsulunun sürətlə genişlənməsi ilə əlaqədardır. Məsələn, 2019-cu ildə Azərbaycanın məlum olmayan öhdəliyinin həcmi 3,4 milyard manat idisə, təxminən 6 il ərzində bu aktivlər 3,5 milyard ABŞ dolları və ya 100% genişlənərək 6,9 milyard manata çatıb. 2020-ci ildə 334,3 milyon manat naməlum öhdəlik üzrə faiz taksitlərinə, 1139,7 milyon manat əsas taksitlərə xərclənmişdir. Hazırda ölkə iqtisadiyyatına neft pullarının axınının kəskin şəkildə azaldığı bir vaxtda hökumətə külli miqdarda borcların büdcə hesabına ödənilməsi ciddi narahatlığa çevrilə bilər. Dünya iqtisadiyyatında böhran meyillərinin səngiməməsi, bu səbəbdən beynəlxalq neft birjalarında "qara qızıl"ın qiymətinin hər gün aşağı düşməsi ölkənin xarici borclarının vaxtında qaytarılmaması problemini yarada bilər. Dövlət siyasətində prioritet elan edilməsinə baxmayaraq, cari ilin büdcəsində elm sahəsinə ayrılan xərclər 15,2 milyon manat (10,1 faiz), ali təhsilə ayrılan xərclər 42,2 milyon manat (14,5 faiz) azalmışdır.

COVİD-19 pandemiyası müstəqillikdən sonrakı ilk onillikdən bəri həm dünyada, həm də Azərbaycanda ən böyük iqtisadi şok ola bilər. Artımın 2022-ci ildə bərpa ediləcəyi gözlənilir, lakin ciddi fiskal təzyiqlər, əsas əmtəə ixrac bazarlarının bərpasından asılılıq və işçi qüvvəsi profisitləri və əhalinin qeyri-bərabər və yavaş peyvəndlənməsi səbəbindən bərpa sürəti olduqca qeyri-müəyyən olaraq qalır (IMF, 2021). Proqnozlar onu deməyə əsas verir ki, növbəti illərdə ölkələrin hər birində iqtisadi artım müsbət qalsa da, pandemiyadan əvvəlki dövrlə müqayisədə daha yavaş olacaq. 2008-ci il qlobal maliyyə böhranından və 2014-2015-ci illərdə əmtəə bazarının çökməsindən sonra dirçəlmə gözlənildiyindən daha yavaş olub və iqtisadiyyat böhrandan əvvəlki səviyyəyə qayıtmayıb.

2021-ci ilin birinci rübündə Azərbaycanda iqtisadi fəaliyyət səngiyib, lakin bəzi bərpa əlamətləri görünməyə başlayıb. Tranzit sərnişinlər, pərakəndə satış və iş yeri fəaliyyəti də daxil olmaqla bir sıra iqtisadi fəaliyyət göstəricilərini izləyən Google Mobility-nin məlumatları göstərir ki, 2020-ci ilin əvvəlində, pandemiya zərbə vurmazdan öncə müəyyən edilmiş baza səviyyəsi yalnız ictimai nəqliyyat tərəfindən üstələnib (Şəkil 1). Mağazaları və iş yerlərini ziyarət edən insanların sayı kimi digər fəaliyyət göstəriciləri pandemiyadan əvvəlki baza səviyyəsindən xeyli aşağıda qaldı.

2021-ci ildə Asiyada maliyyə inkişafı 6,2% səviyyəsində proqnozlaşdırılır. Bir qayda olaraq, monetar bərpa kursu günün çox hissəsini sərf edəcək və ÜDM ən tez 2022-ci ildə fövqəladə vəziyyətə qədərki səviyyəyə qayıdacaq. Yardım sahəsinin toplanma sahəsi ilə ziddiyyət təşkil etdiyi iqtisadiyyatda kritik təklifə malik yaradılan ölkələrin iqtisadiyyatları sərt şəkildə dözdü. 2018-ci ildə yaradılmış dövlətlərdə yardım sahəsində ÜDM-in 70%-i normallaşdırılıb. Yardım sahəsi ÜDM-in ABŞ-da və Fransada 80%-ni, Böyük Britaniyada 78%-ni, İtaliyada 74%-ni, Yaponiyada və Almaniyada 71%-ni, Kanada və Avstraliyada 70%-ni təşkil edirdi. Pandemiya səbəbindən nəqliyyatda, səyahət sənayesində və ictimai iaşədə azalma yaradılmış ölkələrdə yardım sahəsinin ÜDM-dəki hissəsi əsaslı şəkildə azalmışdır.

**Cədvəl 1**

**Covid-19 Azərbaycan iqtisadiyyatı təsirinin PEST analizi**

| Siyasi faktorlar |
|---|
| • Bəzi ölkələrdə uzaqdan məsləhətləşmələrin təşkili ilə bağlı texniki xərcləri ödəmək üçün tibb təşkilatlarına əlavə maliyyə vəsaiti almaq imkanı |
| İqtisadi faktorlar |
| • Bank kreditlərinin ödənilməsində güzəştlərin tətbiq edilməsi |
| Sosial faktorlar |
| • məhdud resursların bölüşdürülməsinin monitorinqi və planlaşdırılması.<br>• xəstəliklərin diaqnostikasının avtomatlaşdırılması<br>• istifadə olunan rabitə vasitələrinə və həkimin yerləşdiyi yerə məhdudiyyətlərin aradan qaldırılması |
| Texnoloji faktorlar |
| • teletibbdən istifadənin genişləndirilməsi<br>• COVID-19 xəstələrinin müalicəsi üçün lazım olan əsas resursların balansının monitorinqi üçün elektron sistemlər (ixtisaslaşdırılmış xəstəxanalarda və reanimasiya şöbələrində pulsuz çarpayılar, PPE (fərdi mühafizə vasitələri) ehtiyatları, dərmanlar və sınaq reagentləri)<br>• həkimlərin və xəstələrin distant konsultasiya imkanları barədə məlumatlandırılması<br>• adi məsləhətləşmələrin təxminən 80%-nin distant aparılması |

**Mənbə:** https://www.taxes.gov.az/az/post/1005 məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

COVID-19 xəstələrinin müalicəsi üçün lazım olan əsas resursların balansının monitorinqi üçün elektron sistemlər (ixtisaslaşdırılmış xəstəxanalarda və reanimasiya şöbələrində pulsuz çarpayılar, PPE (fərdi mühafizə vasitələri) ehtiyatları, dərmanlar və sınaq reagentləri) resurs çatışmazlığının aradan qaldırılmasında mühüm rol oynamışdır.

Buna baxmayaraq, əksər hallarda bu sistemlərin funksionallığı qərar qəbul edənlərə yaranan problemli sahələr və mövcud ehtiyatlar barədə məlumat verməklə məhdudlaşırdı, resursların yenidən bölüşdürülməsinə dair qərarlar əl ilə qəbul edilirdi. Gələcəkdə bu qərarların ən azı bəziləri (xəstələrin yerin mövcud olduğu xəstəxanalara yönləndirilməsi, , nümunələrin daha az məşğul olan laboratoriyalara göndərilməsi) avtomatlaşdırıla bilər.

Pandemiya ilə bağlı qadağanedici tədbirlər əmək bazarının və biznesin vəziyyətinə əsaslı şəkildə təsir göstərir. Beynəlxalq Əmək Təşkilatı dünyada işsizliyin 5,3 milyondan 24,7 milyona qədər insana təsir edə biləcəyini qiymətləndirir. Makroİqtisadi Təhlil və Qısamüddətli Proqnozlaşdırma Mərkəzi 25 milyon insanın öz mövqelərini itirə biləcəyini qiymətləndirir ki, bu da çox böyük rəqəmdir. Beynəlxalq Əmək Təşkilatının qeyd etdiyi kimi, Covid- 19 “işləyən

yoxsulların" sayını artıracaq: onların sayı 20,1-35,0 milyon nəfər artacaq.

Dünya İqtisadi Forumunun məlumatına görə, pandemiya səbəbindən bir neçə milyard insan sosial məsafəni kompensasiya etmək üçün evlərindən ayrılıb. Bütün dünyada pandemiya monetar hərəkətə təsir etdi, səylərdə pul çətinlikləri yaratdı və müəssisələrin işlərini məhdudlaşdırdı. Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, mövqelərin azalması kəskin xarakter alıb. Müxtəlif millətlər işğallarla ayaqlaşmağa çalışsalar da, ümumiyyətlə, bu planetdə baş verənləri həll etmək ağlasığmazdır. Müvafiq olaraq, planetdəki mövqelərin sayı 2019-cu ilin fevral ayında COVID-19 pandemiyası səbəbindən 57%, apreldə isə 85% azalıb.

Pandemiyanın yaratdığı sosial problemlərin azaldılması və ya aradan qaldırılması üçün görüləcək əsas tədbirlər Beynəlxalq Əmək Təşkilatının Koronavirus və iş həyatı hesabatında öz əksini tapıb. Qısa müddət ərzində bir neçə ölkə sosial təminat, qısa iş saatları, ödənişli məzuniyyətlər, biznesin ölçüsündən asılı olmayaraq müəssisələrə pul və ödənişli dəstək, açıq fəaliyyət sahələri üçün kredit və pul yardımını genişləndirmək üçün səy göstərdi. 2020-ci ildə ölkədə 129 000 yeni vəzifə açılıb və peşələrin 54,9%-i məxfi sahəyə düşüb. Ölkədə son dövrlərdə əldə edilmiş vəzifələrin 6,2%-i yeni qurulmuş müəssisə və birliklərdə, 0,3%-i fəaliyyətini davam etdirən təsərrüfat və birliklərdə, 74,8%-i mövcud müəssisə və birliklərdə, 18,7%-i müxtəlif tədbirlərdə görülüb (Şəkil 2). Vəzifələrin sayının genişlənməsinin səbəblərindən biri idarəetmə tədbirlərinin həyata keçirilməsi yolu ilə özəl sahədə iş müqavilələrinin başa çatdırılması və ödənişli dövlət vəzifələrində genişləndirilməsi olmuşdur. Bununla belə, Azərbaycan Respublikası Statistika Komitəsinin hesabatında bildirilir ki, 2020-ci ildə ölkədə 20,1 min vəzifə bağlanıb. Peşələrin 20,4%-i müəssisə və assosiasiyaların fəaliyyətinin dayandırılması, 79,6%-i isə mövcud müəssisə və birliklərdə ixtisar olması səbəbindən bağlanıb.

**Nəticə**

Dövlətin maliyyə təhlükəsizliyi ölkədə maliyyə axınının elə bir hərəkətidir ki, maliyyə sektorunda milli maraqların daxili və xarici maliyyə təhdidlərindən qorunmasına, habelə ölkənin maliyyə sisteminin sabit fəaliyyət göstərməsinə, fasiləsiz fəaliyyətinə zəmanət verir və maliyyə resurslarının davamlı inkişafı üçün təsərrüfat subyektlərinə ötürülməsi funksiyalarının maliyyə bazarları tərəfindən yerinə yetirilməsini təmin edir. Azərbaycan vergi sisteminin qeyri-kamilliyi ondan ibarətdir ki, o, yüksək texnologiyalı sənayenin inkişafına təkan vermir; əsasən fiskal xarakterini saxlayır; büdcə vəsaitlərinin xərclənməsində səmərəsizliyə səbəb olur; regionların vergitutma bazasının genişləndirilməsinə təkan vermir; vergidən yayınma üçün əhəmiyyətli imkanlar qaldığından rəqabət üçün qeyri-bərabər şərait yaradır. Azərbaycanın maliyyə təhlükəsizliyini təmin etmək üçün əsas vəzifəsi yüksək keyfiyyətli, suveren maliyyə və bank sisteminin yaradılması olan bir sistem qurmaq lazımdır ki, onun əsas funksiyası da maliyyənin özünü təmin etməsi olmalıdır.

2020-ci ilin mart ayından başlayaraq ölkəmizdə karantin rejimi elan edilmiş və bir sıra tədbirlər həyata keçirilmişdir. Pandemiyanin ölkəyə vurduğu mənfi iqtisadi və sosial təsirə qarşı çıxmaq üçün hökumət işsizlərə (2019-cu ildə 5,5%), o cümlədən kiçik və orta biznesə böyük dəstək göstərmiş, banklara dövlət zəmanətləri verilmişdir. Pandemiyanın mənfi təsirinə məruz qalan sektorlarda çalışan 300 min fərdi (mikro) sahibkara milyon manat (47 milyon ABŞ

dolları) vəsait ayrılmışdır. Bundan əlavə gəlir vergisi ödəyiciləri üçün də 75% güzəşt nəzərdə tutulmuş, ərzaq və tibbi təhlükəsizlik malları Əlavə Dəyər Vergisindən (ƏDV) azad edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan maliyyə təhlükəsizliyini belə bir mövqe ilə təmin edə biləcək unikal imkanlara malikdir. Əvvəla, bu, onun böyük sərvətidir. Amma bu böyük sərvət zəruri qanunvericilik bazası və infrastruktur olmadığından iqtisadi münasibətlər prosesinə cəlb olunmur və əlavə dəyər yaratmır ki, bu da milli iqtisadiyyatın səmərəliliyini bütünlüklə əhəmiyyətli dərəcədə azaldır.

Ümumilikdə isə dövlətin maliyyə təhlükəsizliyini təmin etmək üçün kənd təsərrüfatı və mədənçilik işğaldan azad edilmiş regionlarda da inkişaf etdirilməli, qeyri-neft sektoru və turizmin inkişafına güclü təkan verilməli, ölkədə kölgə iqtisadiyyatı ilə mübarizə daha aktiv şəkil almalı, vergidən yayınmaların aradan qaldırılması və şəffaflıq məqsədilə nağdsız ödənişlərə keçid geniş şəkildə vüsət almalıdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. "Ağıllı şəhər" (Smart city) və "Ağıllı kənd" (Smart village) konsepsiyalarının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 19 aprel 2021-ci il

2. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 7 iyul 2021-ci il.

3. Bağırova, F. Şərqi-Zəngəzur iqtisadi rayonu işğaldan azad edilmiş torpaqların inkişaf və tərəqqi mərhələsinə qədəm qoymasının rəmzi kimi. 07/04/2022. https://1news.az.

4. Əliyev, Ş.T. Pandemiya və postpandemiya şəraitində Azərbaycanın iqtisadi təhlükəsizliyinin aktual məsələləri // AMEA, İqtisadiyyat İnstitutu, № 05, 2020.

5. İbadoğlu, Q.A , Əhmədov İ.N, (2018), Dövlət büdcəsinə nəzarət. Bakı, "Elm", -123 səh

6. Əkbərova S. D. (2018), Müasir şəraitdə maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətləri . Bakı, UNEC, -167 səh

7. Hacıyev .R.İ (2017), Təftiş və nəzarət, Bakı, "Azərşər",-311 səh.

8. Səbzəliyev S. M. Rzayev Q.M, Abbasov Q. Ə. (2017), Nəzarət və təftiş, Bakı "Elm",- 261 səh.

9. Дробозина Л.А (2012) Финансы. Учебник. М. ЮНИТИ, - 521 с.

10. Елисеева И.И., Юзбашев М.М (2014) Общая теория статистики, М. ЮНИТИДАНА, -415

11. Поляка. Г.Б (2015) Финансы и кредит М.: Волтерс Клувер, - 412 с

12. vergiler.az/news/international/590.html, 04.05.2022

13. cnbc.com/2017/09/27/japanese-banks-cryptocurrency-j-coin.html, 01.02.2022

14. investopedia.com/terms/i/initial-coin-offering-ico.asp#citation-5, 01.02.2022

15. reuters.com/article/egypt-bitcoin-idUSL4N1L33NK, 10.03.2022

**Тунзала Тофиг кызы ГУРБАНОВА**
**Амалия Ильгар кызы АЛЛАХВЕРДИЕВА**

## ВОПРОСЫ ФИНАНСОВОЙ БЕЗОПАСНОСТИ В ПЕРИОД ПАНДЕМИИ КОРОНАВИРУСА И ПОСТПАНДЕМИИ

### РЕЗЮМЕ

В постсоветской экономике сложный процесс трансформации под влиянием объективных рыночных экономических законов и исторических факторов со временем значительно замедлился и сопровождался глубокими кризисами, значительно снизившими экономический рост в последние годы. Целью исследования является проведение комплексного научного исследования особенностей системы экономической и финансовой безопасности страны в условиях пандемии и постпандемии и разработка методологии обеспечения экономической безопасности государства в условиях трансформационной экономики. были определены основные направления.

**Ключевые слова:** *финансы, социально-экономические, постпандемические, безопасность.*

**Tunzala Tofig gizi GURBANOVA**
**Amalya Ilgar gizi ALLAHVERDİYEVA**

## ISSUES OF FINANCIAL SECURITY IN THE PERIOD OF CORONAVIRUS PANDEMIA AND POSTPANDEMIA

### SUMMARY

In the post-Soviet economy, the complex process of transformation under the influence of objective market economic laws and historical factors will be significantly slowed down over time and has been accompanied by deep crises that have significantly reduced economic growth in recent years. The purpose of the study is to conduct a comprehensive scientific study of the characteristics of the country's economic and financial security system during pandemic and postpandemia and to develop a methodology to ensure economic security of the state in a transformational economy. The assessment was carried out, the main directions were identified.

**Keywords:** *finance, socio-economic, postpandemic, security.*

**Daxil olub:** 22.04.2022

**Ərəbiyə Ənvər qızı MUSTAFAYEVA, h.f.d., dos, UNEC**
**Leyla Xəqan qızı İSAYEVA, UNEC, magistr**

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ XARİCİ İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİ VƏ ONLARIN AZƏRBAYCANDA ƏMƏK BAZARINA TƏSİRİ

**Xülasə**
2020-ci ilin 27 sentyabr tarixində düşmən təxribatlarına cavab olaraq işğalçı Ermənistana qarşı başlanılan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində düşmən işğalındakı torpaqlar azad edilmiş və ölkəmizin ərazi bütövlüyü təmin edilmişdir. Tədqiqatın əsas məqsədi işğaldan azad olunmuş ərazilərin bərpasında və inkişafında hazırlanmış layihələrin tətbiqi ilə sosial-iqtisadi inkişafa, məşğulluğun təmin edilməsinə, xarici investisiyaların cəlb edilməsinə nail olmaqdır. Araşdırmada birbaşa xarici investisiyaların Qarabağ iqtisadi rayonunun iqtisadiyyatının bərpa və inkişafında rolu araşdırılır və müəyyən edilir ki, bu regionun investisiya mühitinin cəlbediciliyinin yüksəldilməsində vacib məsələdir. İnvestisiya cəlbediciliyinin artırılması üçün infrastrukturun yaxşılaşdırılması, vergi tətilləri, bürokratiyanın zəiflədilməsi vacib hesab olunur.Əldə edilən nəticələr regiona birbaşa xarici investisiyaların cəlb edilməsində faydalı ola bilər.
**Açar sözlər:** *Qarabağ, investisiya, iqtisadiyyat, maliyyə*

**UOT: 339**
**JEL:** M17

## Giriş

Hazırda Qarabağ iqtisadi rayonunun yeni işğaldan azad edilmiş ərazilərinə edilən xarici investisiyalar bölgənin inkişafı və sürətli bərpasında misilsiz rol oynayır. Qarabağ iqtisadi zonasının yeni işğaldan azad edilmiş ərazilərinin Azərbaycan iqtisadiyyatına sürətli inteqrasiyası ölkəmiz üçün ən vacib prioritetlərdən biridir. Ölkəmizə yatırılan sərmayələr həmçinin bizi beynəlxalq arena ilə də yaxınlaşdırır və bu da iqtisadiyyatımızın yüksələn tendensiya ilə davam etməsində mühüm rol oynayır. Qarabağ ərazisinə cəlb edilən BXİ-nin (Birbaşa Xarici İnvestisiyalar) miqdarını artırmaq üçün ölkəmiz tərəfindən bir sıra tədbirlər görülür. Nəqliyyat infrastrukturunun, göstərilən xidmətlərin və s. komponentlərin sürətli bərpa və inkişafı əraziyə yatırılan BXİ miqdarının artırılmasında mühüm rol oynayır. Nəqliyyat infrastrukturunu xüsusi qeyd etməyimizin səbəbi, ölkəyə və ya regiona yatırım edəcək investorun bu faktora xüsusi diqqət yetirməsidir. Çünki nəqliyyat infrastrukturu yetərli səviyyədə olmasa, ölkədə daşınma, çatdırılma kimi problemlər ortaya çıxar ki, bu da xarici investiisiyaların cəlb edilməsi səviyyəsində xoşagəlməz hadisə olar. . Xidmət sektorunu vurğulamağımızın səbəbini isə belə açıqlaya bilərik: Hər bir investor ölkəyə ilk ziyarət etdiyi andan investisiya etmək qərarına gəlmir. Fərz edək ki, hər hansı bir investor ilk öncə turist kimi ölkəmizə səfər edir və göstərilən müəyyən xidmətlərdən yararlanır, əgər bu turist xidmət səviyyəsindən razı qalmasa, necə investor kimi ölkəyə və ya regiona yatırımlar edəcək? Bu sualın cavabı ölkədə xidmət sektorunun inkişafından keçir. Beləliklə, təqdim etdiyimiz misal əsasında xidmət sektorunun investisiya cəlbində necə vacib faktor olduğunun birgə şahidi olduq. Nəticə olaraq,

ölkədə xidmət sektoru yüksək səviyyədə təşkil olunarsa, ölkəni bir o qədər turist və ya investor ziyarət etmək qərarına gələcək, bunun da nəticəsində ölkəyə cəlb edilən Xİ miqdarının artırılmasına nail ola bilərik. Bunu da qeyd edək ki, izah etdiyimiz iki faktorla yanaşı investisiya mühitinə təsir edən bir sıra məqamlar mövcuddur və bu iki faktor nə dərəcədə önəmli olsa da, bir investor hər hansı ölkəyə investisiya etmək qərarına gəldikdə, qeyd etdiyimiz iki faktorla yanaşı bir sıra amillərə də nəzər salır və ölkədə mövcud investisiya mühitini yaxından izləyir. Qeyd etdiyimiz bir sıra faktorlara ölkədə mövcud bürokratiya səviyyəsini, siyasi sabitliyi, iqtisadi azadlığı və s. amilləri aid etmək mümkündür.

**İşğaldan azad olunmuş ərazilərə xarici investisiyaların cəlb edilməsinin iqtisadi əhəmiyyətinin təhlili**

Son illərdə ölkədə sosial-iqtisadi inkişafa yönəlmiş bir sıra tədbirlər həyata keçirilmişdir.

**Cədvəl 1**

– şum işi, səpin, becərmə, məhsul yığımı, məhsulun daşınması və s. işlərlə əlaqədar mexanikləşmə xidmət sahələri ilə;

– istehsal resursları, xüsusilə gübrə, maşın-mexanizm ehtiyat hissələri, yem, kimyəvi dərmanlar, yanacaq-sürtkü məhsulları, tikinti materialları və s. ilə əlaqədar olaraq müvafiq təchizat və xidmət müəssisələri ilə [5, s.74];

– kənd təsərrüfatı maşın-mexanizmlərinin təmiri, tikintı işiərinin aparılması, yol-körpü üzrə tələb olunan işlər, xammal, son məhsul, ehtiyat hissələri, maddi-texniki resursların saxlanılması və s. ilə əlaqədar olaraq müvafiq xidmət sahələri ilə;

– aqrokimyəvi, zoobaytar, iqtisadi, hüquqi, rabitə, elmi-tədqiqat, informasiya, xammal və son məhsulun satışı və s xidmətlərlə əlaqədar aidiyyatı xidmət sahələri ilə.

Beləliklə, kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan xüsusi təsərrüfat və sahibkarlar yüksək göstəricilərə nail olmaq üçün olduqca müxtəlif istiqamətli və çox sayda iqtisadi əlaqə yaratmalı və onların səmərəli fəaliyyət göstərməsini həyata keçirməlidirlər. Bu əlaqə və münasibətlərin formalaşdırılması istehsalın modernləşdirilməsinin başlıca şərti hesab edilir [2, s.23].

Belə ki, kənd təsərrüfatı istehsalının mövsümiliyi obyektiv olaraq, hər bir kənd təsərrüfatı texnikasından ilin ayrı-ayrı dövrlərində, qısa müddətdə istifadə edilməsini tələb edir. Odur ki, yeni yaradılan təsərrüfatlarda, istehsal kooperativlərində, səhmdar cəmiyyətlərində və digər təsərrüfat formalarında əkin yerinin azlığı, becərilən əkmələrin kiçik həcmdə olması baxımından, müxtəlif növ texniki vasitələrin əldə edilməsi və istismarı mümkün olmur. Bütün bunları almaqla, kənd, rayon və respublika səviyyələrində özəl texniki təmir və xidmət işlərinin təşkilinə dair kompleks tədbirlərin hazırlanıb həyata keçirilməsi məqsədəuyğun olardı.

Araşdırmalar göstərir ki, istehsal vasitələri bazarının yaranması və fəaliyyətinin həyata keçirilməsi kompleks tədbirlərin işlənib hazırlanmasını və idarəetmə strukturunun təkmilləşdirilməsini tələb edir. Bununla əlaqədar olaraq, maddi-texniki vasitələrin idarə edilməsinə kompleks yanaşmağın həyata keçirilməsi üçün əmtəə bazarını tənzimləyən vahid təşkilatın yaradılması məqsədəuyğundur [6, s.18]. Bu təşkilat aşağıdakı funksiyaları yerinə yetirməlidir:

- bazarın təşkilati strukturunun inhisarsızlaşdırılması, rəqabət başlanğıcı əsasında inkişaf etdirilməsi, bazar tipli infrastrukturun tənzimlənməsi və inkişaf etdirilməsi üzrə tədbirlər hazırlamaq;
- bazar tipli təşkilati strukturun fəaliyyətinə və inhisar əleyhinə qanunçuluğa əməl edilməsi, əmtəə bazarlarında topdansatış-vasitəçilik fəaliyyətinin tənzimlənməsi;
- bazar tipli infrastrukturun kompleks təhlilinin həyata keçirilməsi və onun təkmilləşdirilməsi üzrə təkliflər işləyib hazırlamaq və s.

Ölkədə bazar münasibətlərinin yaranması, inkişaf etmiş bazar iqtisadiyyatına xas olan bütün istiqamətlərin, o cümlədən maliyyə bazarı, investisiya bazarı, istehsal vasitələri bazarı və s. bu kimi sahələrin inkişafına tam təminat verir. Istehsal vasitələri bazarı - müəssisə və təşkilatlar arasmdakı pul-əmtəə münasibətlərinə və

subyektlər arasındakı rəqabətə əsaslanan iqtisadi əlaqələr sistemidir.

Tədavül sferasında bazar münasibətlərinin inkişafı kəsilməz şəkildə təsərrüfatçılığın iqtisadi mexanizminin dəyişməsi ilə əlaqədardır. Yəni istehsal vasitələri bazarının təkmilləşdirilməsi və normal fəaliyyəti üçün lazımi təşkilati-iqtisadi şərait yaradılmalıdır [3, s.51]. Bu məqsədlə aşağıdakıların həyata keçirilməsi yaxşı olardı:

- təsərrüfat dövriyyəsində kifayət qədər rəqabətçi müəssisələrin inkişafının formalaşdırılması;
- təsərrüfat fəaliyyətinin nəticəsinə uyğun olaraq iqtisadi subyektin məsuliyyətinin artırılması;
- tələb və təklif» balansını təmin edən sərbəst qiymətqoymanın tətbiqi və s.

Təsərrüfatçılıqla məşğul olan subyektlərin qarşılıqlı münasibət prinsiplərinin dəyişməsində üfüqi təsərrüfat əlaqələri mühüm əhəmiyyət kəsb edir. Ona görə də rəqabəti gücləndirmək məqsədilə tədbirlər sistemi həyata keçirilməlidir. Madrli-texniki təchizat sisteminin əmtəə daşıyan şəbəkəsinin genişlənməsi məqsədəuyğun olardı.

İstehsal vasitələri bazarının formalaşması üzrə olan kompleks tədbirlər sistemi iki əsas məsələyə yönəldilməlidir: bir tərəfdən, əmtəə istehsalçıları ilə sərbəst mübadilə üçün əlverişli şəraitin yaradılması, digər tərəfdən ümumdövlət məqsədlərinin təminatı. Buna görə də istehsal vasitələrinin tədavül sferasında istehsal-texniki təyinatlı məhsulların reallaşdırılmasının aşağılakı üsullarının tətbiqi məqsədəuyğun olardı:

- inhisar şəraitində istehsal olunmuş vacib məhsulların mərkəzləşdirilmiş şəkildə bölgüsünün həyata keçirilməsi;
- istehsalın yerləşdirilməsinin və məhsulun bölgüsünün dövlət sifarişlərinə uyğun aparılması;
- vasitəçi-topdansatış təşkilatları və satış-təchizat müəssisələrinin köməyi ilə, çatışmayan malların qismən mərkəzləşdirilmiş bölgüsünün [4, s.38];
- topdansatış ticarət vasitəsilə məhsulların reallaşdırılmasının və s.

Yeni iqtisadi şəraitdə kənddə istehsal-texniki xidmətin təşkili, idarə edilməsi, təkmilləşdirilməsi obyektiv zərurətdən irəli gəlir. Odur ki, bu işə diqqətlə yanaşılmalıdır. Nəzərə alsaq ki, respublikada kənd təsərrüfatının maddi-texniki bazası zəifdir, texniki resurslar çatışmır, onların qiyməti də baha olduğundan kənardan gətirmək çətindir. Həmçinin, istehsal-texniki xidmət sistemindəki istehsal potensialından səmərəli istifadə edilmir, deməli, respublikada rəqabətqabiliyyətli bir çox aqroservis xidməti müəssisələri təşkil edilməlidir.

İstehsal vasitələrindən birgə istifadə etmək hüququna malik olan kooperativlər istehsal-texniki xidmət işlərini iki və çoxtərəfli müqavilələr bağlamaqla yerinə yetirirlər. Azərbaycanın kənd təsərrüfatının konkret şəraitini, maddi-texniki resurslarla təchizat vəziyyətini və yaradılmış müxtəlif növ təsərrüfat qurumlarının istehsal-texniki xidmətlərə tələbatının ödənilmə vəziyyətini nəzərə almaqla, aşağıdakı variantlar üzrə istehsal-texniki xidmət işini təşkil etməyi məqsədəuyğun hesab edirik:

Mülkiyyət münasibətlərini nəzərə almaqla, birinci, xüsusi mülkiyyətə əsaslanan istehsal-texniki xidmət müəssisələri; ikinci dövlət mülkiyyətinə əsaslanan istehsal-texniki xidmət müəssisələri. Bununla belə hesab edirik ki, ixtisaslaşdırılmış iri, mürəkkəb kənd təsərrüfatı

texnikasını əsaslı təmir etdirmək imkanları olan texniki təmir zavodları və texniki təmir emalatxanaları bazar münasibətbrinə keçidin ilk mərhələsində qapalı tipli səhmdar cəmiyyətləri formasında yenidən təşkil edilməlidir. Onlar mülkiyyət münasibətlərinə görə də iki formada olurlar: xüsusi mülkiyyət formasına əsaslanan istehsal-texniki xidmət səhmdar cəmiyyəti və dövlət mülkiyyətinə əsaslanan istehsal-texniki səhmdar cəmiyyəti. İşin bu qaydada təşkilində istehsal-texniki xidmət müəssisələri arasında rəqabət üçün şərait yaranar ki, bu da, bazar mexanizminin normal fəaliyyətinə şərait yaradar, digər tərəfdən istehsal-texniki xidmət müəssisələrinin monopolıst hərəkətlərinin qarşısını alar.

Son illər qeyd olunan problemlərin aradan qaldırılması məqsədilə dövlət tərəfindən kənd təsərrüfatına güzəştli şərtlərlə kənd təsərrüfatı texnikalarının satışına xüsusi diqqət yetirilir. Cədvəldən göründüyü kimi, əksər kənd təsərrüfatı texnikalarının güzəştli satışı, 2016-2020-ci illər üzrə azalma dinamikasına malikdir. Belə ki, 2016-cı ilə nisbətən, traktorların satışı, 2020-ci ildə 77.9% azalaraq 266 ədəd təşkil etmişdir. Qeyd olunan dövr ərzində, kotanların satışında 80%, kultivatorların sayında 61.4%, səpici aqreqatlaırn sayında 73.9%, pambıqyığan kombaynların sayında 87.2%, gübrə səpən maşınların sayında 96.8%, ot dırmıqlarının sayında 82.4%, traktor yedəklərinin sayında 60.6% azalma müşahidə edilmişdir. Bununla yanaşı, satılmış maşın və avadanlıqların ümumi dəyəri 2016-cı ilə nisbətən, 2020-ci ildə 62.3% azalaraq, 52.3 mln.manat təşkil etmişdir. Bundan əlavə, 2016-2020-ci illər üzrə, əksər kənd təsərrüfatı texnika və maşınlar üzrə ən yüksək satış göstəricisi 2017-ci il üzrə müşahidə edildiyini qeyd etmək məqsədəuyğun hesab edilir. Belə ki, məhz 2017-ci ildən başlayaraq, güzəştli satış göstəriciləri azalmağa meyl göstərmişlər. Burada, ümumi azalma tendensiyasından əlavə olaraq, qeyd etmək lazımdır ki, 2017-ci ildə, traktorların güzəştli satışı 36.63%, kotanların satışı 25.07%, kultivatorların satışı 5.36 dəfə, səpiciaqreqatların satışı 70.08%, pambıqyığan kombaynların satışı 90.4%, çiləyici və tozlayıcı maşınların satışı 70.6%, digər kənd təsərrüfatı maşın və avadanlıqlarının satışı 4.9 dəfə artmışdır. Satış dinamikasının artımı, dövlətin kənd təsərrüfatı texnikalarının əldə edilməsi üzrə güzəştli şərtlərin tətbiq edilməsi və əlverişli qiymətlər ilə əlaqədardır. Belə ki, güzəştli şərtlərə əsasən kənd təsərrüfatı texnikasının əldə edilməsi zamanı, texnikanın ilkin dəyərinin 40% həcmində güzəşt edilir. Satılmış maşınların və avadanlıqların dəyəri, 2017-ci ildə 94.2% artaraq, 269.4 mln.manat təşkil etmişdir (cədvəl 1).

Araşdırmalar göstərir ki, maddi-texniki resurslar bazarının inkişafında kənd təsərrüfatı məhsulları ilə sənaye məhsulları qiymətlərinin paritet nisbətini təmin etmək əsas məsələlərdəndir. Bunu təminatlı qiymətlərin yaradılması yolu ilə həyata keçirmək olar. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin demək olar ki, hamısında maddi-texniki resursların qiymət artımının kənd təsərrüfatı məhsullarının qiymət artımını üstələməsi problemi mövcuddur. Bizim araşdırmalarımızda bəzi kənd təsərrüfatı məhsullarının qiymət artımının sənaye məhsullarının qiymət artımını üstələməsi müşahidə edilir, özü də, eyni bir məhsulun qiymət artımı bir resurs vahidinin qiymət

artımını üstələyirsə, digərininkindən geridə qalır. Bu ziddiyyət maddi-texniki resurslara qeyri-real qiymətlərin qoyulması və s. ilə izah edilməlidir.

**Cədvəl 1**

**Dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı məhsulları istehsalçılarına kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışı, ədəd [7]**

| Texnika və avadanlığın adı | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
| Traktorlar | 1204 | 1645 | 1346 | 662 | 266 |
| Kotanlar | 670 | 838 | 692 | 197 | 134 |
| Kultivatorlar | 140 | 751 | 259 | 188 | 54 |
| Səpici aqreqatlar | 565 | 961 | 652 | 180 | 147 |
| Otbiçənlər | 8 | 95 | 89 | 64 | 10 |
| Otpresləyənlər | 24 | 34 | 60 | 21 | 34 |
| Pambıqyığanlar | 94 | 179 | 101 | 45 | 12 |
| Taxılyığan kombaynlar | 126 | 2 | 118 | 225 | 54 |
| Gübrəsəpən maşın | 187 | 92 | 65 | 64 | 6 |
| Çiləyici və tozlayıcı maşınlar | 231 | 394 | 212 | 77 | 88 |
| Yumşaldıcılar | 1 | - | 21 | 2 | 133 |
| Taxıl-toxum təmizləyənlər | 15 | 33 | 30 | 28 | 12 |
| Malalar | 226 | 343 | 219 | 80 | 131 |
| Ot dırmıqları | 51 | 29 | 32 | 29 | 9 |
| Bağarası frezerlər | 23 | 31 | 25 | 13 | 71 |
| Traktor yedəkləri (qoşquları) | 292 | 1370 | 588 | 180 | 115 |
| Kombayna qoşulan biçici aqreqatlar | 14 | 12 | 27 | 20 | 14 |
| Digər kənd təsərrüfatı maşın və avadanlıqları | 216 | 1066 | 626 | 260 | 479 |
| Satılmış və verilmiş maşınların dəyəri, milyon manat | 138,7 | 269,4 | 197,9 | 130,6 | 52,3 |

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, maddi-texniki resursların əsas istehlakçıları olan kooperativ və başqa formada fəaliyyət göstərən təsərrüfatların iqtisadi inkişafının təmin edilməsində və satış bazarda onların alıcılıq qabiliyyətlərinin artırılmasında kənd təsərrüfatı müəssisələrinə güzəştli kreditlərin verilməsinin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Güzəştli kreditlərin verilməsində təsərrüfatların yerləşdiyi təbii-iqlim şəraiti, onların təsərrüfat fəaliyyətinin əsas istiqaməti nəzərə alınmalıdır. Yaxşı olardı ki, respublikada ayrı-ayrı bölgələr üzrə təsərrüfatların iqtisadi vəziyyətindən asılı olaraq verilən kreditlərdə güzəştlərin səviyyəsini təyin edən normativlər müəyyən edilsin. Bundan əlavə verilən kreditlərin ilk növbədə əsas istehsal vasitələrinin alınmasına yönəldilməsi işlərinə baxılsın. Xüsusilə bu kreditlər hesabına uzun müddətə ucuz qiymətə texniki vasitələrin satılması təşkil edilsin.

Maddi resurslardan, eləcə də əsas istehsal vasitələrindən səmərəli istifadə edilməsinə nail olunması üçün kreditlərin verilməsi və istifadə edilməsinə nəzarətin güclənməsi də mühüm əhəmiyyət kəsb edir. Respublikamızda bu sahədə aparılan işlərin təcrübəsi göstərmişdir ki, kənd təsərrüfatı müəssisələrinə verilən kreditlər heç də öz təyinatına görə düzgün istifadə olunmamış, bəzi hüquqi və fiziki

şəxslər bu kreditləri başqa fəaliyyət növlərinə, hətta kiçik biznesə yönəltmişlər. Bütün bunlar yeni formada təşkil olunan kənd təsərrüfatı müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə mənfi təsir göstərməklə onların inkişafına mane olur, respublikamızda maddi resurslar bazarının formalaşması genişlənməsinə əks təsir edir.

**Nəticə**

Beləliklə, maddi resurslar bazarının formalaşması eyni zamanda texniki xidmət bazalarının və məntəqələrinin, hərəkət edən mexanikləşdirilmiş yanacaqdoldurma aqreqatlarının, hərəkət edən təmir və təmir diaqnostika qurğularının tədricən yaranıb inkişaf etməsini nəzərdə tutur. Təbiidir ki, texniki xidmətin və xidmət istehsalat bazasının geniş şəbəkəsinin bazar münasibətlərinə uyğun inkişafı kənd təsərrüfatında tətbiq olunan texnikanın vaxtlı-vaxtında təmirini təşkil etməyə və mövcud texnikadan istifadə əmsalını yüksəltməyə, boşdayanma hallarını azaltmağa geniş şərait yaradır. Mövcud texnikadan istifadə əmsalını artırmaqla kəmiyyətcə kənd təsərrüfatı texnikasına olan tələbatı azaltmağa və bununla da, satış bazarında texnikanın qiymətinin aşağı düşməsinə xeyli təsir göstərmiş olar.

Maddi-texniki resurslar bazarının formalaşmasının ikinci halında bu resursların həcmi istehlakçıların bu resurslara olan tələbatı səviyyəsində olur. Belə olan halda satıcı ilə alıcılar arasında olan sövdələşmələr bərabər rəqabət səviyyəsində həyata keçirilə bilər. Bu zaman maddi-texniki resursları təklif edənlərin, istərsə də əsas istehlakçılar olan kənd təsərrüfatı müəssisələrinin iqtisadi durumunda bərabərlik yaranır.

Əlbəttə, istər maddi resurslar bazarında təklif edilən vasitələrin, istərsə də istehlakçıların iqtisadi çəhətdən alıcılıq qabiliyyətinin olmaması ilə əlaqədar bazarın bu formasında fəaliyyət göstəməsi mümkün deyil. Fikrimizcə, maddi resurslara bərabər təklif və tələbat respublikamızın bazar iqtisadiyyatına keçid və onun formalaşdığı xüsusilə də istehlakçılarla satıcıların lazımi inkişaf səviyyəsində mövcud ola bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Alıyev İ.H., Soltanlı İ.Q. "Aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri". Bakı; "Avropa" - 2017, 428 s., s. 61-63, 117.
2. Qurbanzadə A. "Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri", "Kooperasiya" nəşriyyatı, Bakı-2017, 192 s.
3. Барикаев, Е.Н. Проблемы экономической безопасности материально-технического обеспечения в системе МВД России. Монография / Е.Н. Барикаев. - М.: Юнити-Дана, 2013. - 662 с.
4. Степанов В. И. Материально-техническое снабжение / В.И. Степанов. - М.: Академия, 2009. - 192 с.
5. Литвишков Е. Материальные ресурсы предприятия: анализ использования / Е. Литвишков. – Москва : Лаборатория книги, 2010. – 49 с.
6. Кормаков Л. Рынки материально-технических ресурсов для села: проблемы и решения / Леонид Кормаков. - М.: LAP Lambert Academic Publishing, 2014. - 196 с.

**Minura Haji gizi KARİMOVA**
Azerbaijan Technology University

## The role of the state in the regulation of the market of material and technical resources

**RESUME**

Equipping the enterprises operating in the agricultural field with material and technical resources, the quality of agroservices, and increasing the efficiency of their use are currently considered to be the most important problems of the modernization of the agricultural field. In this regard, enterprises engaged in the production of agricultural products define the creation of multi-directional economic relations as the main goals to achieve high performance. Therefore, effective use of the existing potential in the production and technical service system can be considered one of the most important tasks of competitive service enterprises.

**Key words:** *regulation, innovation, infrastructure, demand, supply.*

**Минура Хаджи кызы КАРИМОВА**
Азербайджанский Технологический Университет

## Роль государства в регулировании рынка материально-технических ресурсов.

**РЕЗЮМЕ**

Оснащение предприятий аграрной сферы материально-техническими ресурсами, качество агроуслуг, повышение эффективности их использования в настоящее время считаются важнейшими проблемами модернизации аграрной отрасли. В связи с этим предприятия, осуществляющие производство сельскохозяйственной продукции, определяют создание разнонаправленных экономических отношений в качестве основных целей для достижения высоких результатов деятельности. Поэтому эффективное использование имеющегося потенциала в системе производственно-технического обслуживания можно считать одной из важнейших задач конкурентоспособных сервисных предприятий.

**Ключевые слова:** *регулирование, инновации, инфраструктура, спрос, предложение.*

**Daxil olub:** 23.04.2022

**Şahin Şükür oğlu ƏKBƏROV** i.ü.f.d.
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),

**Şərəfnisə Faiq qızı ƏLƏKBƏROVA**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
Beynəlxalq Magisratura və Doktorantura Mərkəzi,
E-mail: sherefnise.elekberova@yahoo.com

# DİJİTAL İSTEHLAKÇI PROFİLİ VƏ YAŞAM TƏRZİ: COVİD 19 QAVRAYIŞININ MODERATOR ROLU

## XÜLASƏ

Dünyada qısa müddətdə bir çox sahədə dəyişikliklərə səbəb olan Covid-19 pandemiya prosesi istehlak təcrübələrinə və istehlakçı davranışlarına da təsir edib. Bu prosesdə ölkələr həm milli, həm də beynəlxalq səviyyədə müxtəlif tədbirlər görərək, yoluxmaların sayını və ölüm nisbətlərini azaltmağa, pandemiya prosesinin sosial təsirlərini nəzarət altında saxlamağa çalışdılar. 2021-ci ildə qlobal pandemiya nisbətən nəzarət altına alınsada insanların həyatına gətirdiyi dəyişiklik öz aktuallığını qoruyub saxlayır. Pandemiya ilə bərabər dijital sahəyə maraq sürətlə artdı. Sosial mediada var olmayan şirkətlər sürətlə dijital sahəyə keçdilər. Bu dəyişikliklər təbii olaraq dijital sahədə istehlakçı profilinidə öz təsirini göstərmişdir. Bununla yanaşı, Marketinq fəaliyyətini səmərəli həyata keçirmək və istehlakçılara məhsul və xidmətləri istədikləri kimi təqdim etmək üçün istehlakçı davranışlarını araşdırmaq və təhlil etmək vacibdir. Pandemiyanın həyat şərtlərinə gətirdiyi dəyişikliklər, öz növbəsində istehlakçılarında davranışlarında əsaslı dəyişikliklər yaratmışdır. Artıq bu dəyişikliklərə uyğun yeni strategiyalar qurulur və bazarın tələbinə uyğun hərəkət edilir. Beləliklə, pandemiyanın gətirdiyi yeniliklərin yaratdığı dəyişiklikləri öyrənmək və təhlil edib, günə uyğun strategiyalarla irəliləmək hər bir müəssisənin günün tələblərinə uyğun bazarda var olması üçün vacibdir.

**Açar sözlər**: Pandemiya, istehlakçı profili, sosial media, marketinq stategiyası

**UOT: 336**
**JEL:** L56

## Giriş

Çində başlayan və qısa müddətdə bütün dünyaya yayılan Covid-19 virusu 2020-ci ildən etibarən bütün dünyada qlobal sağlamlıq mübarizəsinə səbəb oldu. Karantina tədbirləri iş dünyasında sürətli dəyişikliyin baş verməsinə səbəb oldu. Pandemiyadan əvvəl üz- üzə fəaliyyət göstərən bir çox şirkət artıq onlayn fəaliyyət göstərmək üçün uyğunlaşdı. Artıq işçilər vəzifələrini masabaşında deyil, evlərindən icra edirdilər. Baş verən dəyişikliklər həm də istehlakçıların davranışlarına da təsir etdi. İnsanlar sürətli bir şəkildə yerində deyil internet üzərindən alış –veriş etməyə alışdılar. Karantin və təcrid səbəbindən dünya üzrə fiziki olaraq alış-veriş edə bilməyən insanlar ehtiyaclarını e-ticarət saytları vasitəsilə qarşılamağa başlayıblar. Onlayn alış-verişin artdığı Covid-19 pandemiya prosesinin e-ticarət tətbiqlərinin artmasına və bu sahəyə qoyulan investisiyalara ciddi təsir göstərdiyini söyləmək olar.

### Dijital marketinqin həyatımızda rolu, üstünlükləri və çatışmazlıqları

İnternet istifadəçilərinin sayının və onların istifadə nisbətlərinin artması elektron ticarət bazarının günü-gündən böyüməsinə səbəb olur. İstehlakçılar evlərindən rahatlıqla alış-veriş edə, əlavə xüsusi səy göstərmədən sifarişlərini verə bilirlər, sifarişləri isə qısa müddətdə ünvanlarına çatdırılır. Dünyanın istənilən yerində onlayn mağaza və ya onlayn xidmət şəbəkəyə qoşulduğu müddətcə alış-veriş məsafəsi proqram və ya brauzerin ünvanı məsafəsindədir. Onlayn alış-veriş asanlıq, rahatlıq və məxfilik kimi bəzi üstünlükləri təmin edir. (Alev K.A. və Ebru T.K, 2018)

İlk olaraq dijital marketinq ənənəvi marketinqin, onun strategiyaları və vasitələrinin internet üzərindəki proyeksiyası olaraq dəyərləndirilirdi. Lakin dijital marketinqin ənənəvi marketinqdən fərqli xüsusiyyətləri, onlayn istifadənin rahatlığı və yaratdığı imkanlar bu sahənin sürətlə inkişafına təkan yaratdı.

Bu gün dijital marketinq, ənənəvi marketinqin internet üzərindəki qolu deyil, marketinq məqsədlərinə çatmaq üçün istifadəçilərə yeni imkanlar yaradan müasir marketinqin ən vacib qoludur. Texnologiyanın inkişafı marketinqin yeni bir qolu olan – istifadəçi mərkəzli, interaktiv, daha ölçülə bilən dijital marketinqin yaranmasına səbəb oldu. (Alev K.A. və Ebru T.K, 2018)

Dijital marketinq məhsul və xidmətinizi elektron şəkildə təbliğ edə biləcəyiniz müasir texnologiya dünyasında ənənəvi mediadan daha sərfəli və çox üstünlük verilən marketinq üsuludur. Dijital marketinq metodu bir şirkət və ya markanın dijital mühitdə marketinq prosesinə verilən addır. Bu gün ən yeni və ən inkişaf etmiş açıq marketinq üsuludur. Dijital kanallardan istifadə edən bu səmərəli marketinq metodunun qabaqcılları internet, sosial media və mobil platformalardır.

Dijital marketinq planı, müəyyən bir təşkilatın mövcud vəziyyətini əks etdirən, gələcəklə bağlı hədəflər təyin etməyi və onları həyata keçirməyin strategiyasını təyin edən strateji sənəddir. Bu sənəd həm də məsuliyyətləri, vaxtı və monitorinq üçün nəzarət vasitələrini təsvir edir.

Dijital marketinq, e-mail, veb saytlar və simsiz kimi media texnologiyalarından istifadə edən insanların dijital hədəflənməsi adlanır. Dijital marketinq özündə bir çox marketinq kanalını birləşdirir və hamısı fərqli məqsədlərə xidmət edir. Effektiv dijital marketinq strategiyasına başlamazdan əvvəl dijital marketinq kanallarının imkanlarını və aralarındakı fərqləri bilmək lazımdır. Hədəflərinizə çatmaq üçün hansı marketinq kanalının daha yaxşı işləyəcəyinə qərar verməyiniz və seçdiyiniz kanalda hansı reklam modellərindən istifadə edəcəyinizi müəyyənləşdirmək strategiyanız üçün çox vacibdir. (Furkan B, 2017)

Dijital marketinq kanallarını idarə edən hər bir marketinq mütəxəssisinin məqsədi, minimum xərclə maksimum səmərəliliyi hədəf alaraq ən təsirli kanalı seçməkdir.

Dijital marketinqin üstünlükləri:

1. Məlumatlara ətraflı və daha sürətli çatma imkanı. Dijital dünyada baş verən dəyişiklik - dijital, sosial, mobil və yeni texnologiyalardan istifadə edərək müştərilərə dəyər verən, iş proseslərinin inkişafına imkan verən və şirkətlərə bacarıqlarını artırmağa imkan verən yeni iş və düşüncə tərzinə keçid mərhələsindədir. Sürətlə inkişaf edən texnologiya sayəsində günümüzün dijital dünyası, keçmişə nəzərən bir çox kanal sayəsində məlumatlara, məhsullara və xidmətlərə daha sürətli səviyyədə daxil olmaq imkanı təqdim edir. Ağıllı telefonlar və planşetlər insanların həyatında əhəmiyyətli

bir sahəni tutduğu dövrdə, bu vasitələrin sosial media, mobil tətbiqlər və qabaqcıl analitik qabiliyyət kimi tətbiqlərlə birləşməsi istehlakçıların satın alma və sifariş vermə fəaliyyətlərini həyata keçirərkən istifadə edə biləcəkləri məhdudiyyətsiz məlumatları əldə etməyə imkan verir. (Smith, 2011)

2. Qlobal marka olmaq imkanı. Şirkətlərdə ənənəvi bir marka olmaqla yanaşı, dijital marka imicini yaratmaq və marka dəyərini artırmaq səyləri cari dövrdə böyük əhəmiyyət kəsb edir. Dijital mühitin verdiyi imkanlardan faydalanan şirkətlər, bu kanallar vasitəsilə geniş auditoriyaya çatır, məhsul və xidmətlərini tanıdır, satış və sifarişlər yerinə yetirir, satış sonrası müştəri əlaqələrini idarə edir və müştərilərə fikirlərini asanlıqla çatdırmaq imkanı verir. (Wymbs, 2011).

Dijital marketinqin çatışmazlıqları:

1. Müəllif hüququ. Bunlardan birincisi və müəssisə baxımından ən vacibi müəllif hüququ olaraq qeyd olunur. Müəssisələr tərəfindən hazırlanan dijital marketinq kampaniyaları asanlıqla kopyalana bilər, rəqib müəssisələr tərəfindən təqlid edilə bilər, hətta marka adları və loqotiplər də kopyalana bilər. (Safko, 2009)

2. Fasilələr. İnternetə əsaslanan bir marketinq fəaliyyəti olduğundan, internetdəki fasilələr və əlaqələr bəzən müştərinin çox vaxt itirməsinə və dijital marketinqin əyləncəli quruluşunu pozmasına səbəb olur. (Tudor, 2016)

3. Məhsulu görə bilməmə. Təəssüf ki, dijital kanallar, məhsulları almadan məhsullara toxunmağa və əllə araşdırmağa icazə vermədiyindən, xüsusən ənənəvi kanallar vasitəsilə alış -veriş etməyi sevən yaşlı nəsillər üçün cəlbedici bir kanal deyil. (Taken, 2012)

4. Məxfiliyin qorunmasının çətinliyi. Digər bir çatışmalzıq, elektron mühitdə edilən pul köçürmə əməliyyatlarının təhlükəsizlik və məxfilik problemləri (kart məlumatlarını kopyalamaq, oğurlamaq, satmaq və s.) səbəbiylə fərdlərdə tam etibar hissi yarada bilməməsi və dijital pul köçürmə nöqtəsində şəxsləri qorxutmasıdır. (Wind və Mahajan, 2002)

### İstehlakçının yaşam tərzi

Marketinq fəaliyyətini səmərəli həyata keçirmək və istehlakçılara məhsul və xidmətləri istədikləri kimi təqdim etmək üçün istehlakçı davranışlarını araşdırmaq və təhlil etmək vacibdir.

İstehlakçı davranışı, bir şəxsin məhsul və xidmətlərin seçimi, alışı, istifadəsi və verdiyi qərarlar ilə əlaqəli fəaliyyətləri olaraq təyin edilə bilər. İfadədən başa düşüldüyü kimi, istehlakçı davranışının əsası satın alma qərarı prosesidir. Satınalma qərarı prosesi satın alma qərarından əvvəl başlayır və qərar qəbul edildikdən sonra davam edir. İstehlakçı, daxili və xarici stimulların təsiri altında bir məhsula və ya xidmətə ehtiyacı olduğunu hiss edir. Bu ehtiyacın ödənilməsi mövcud vəziyyətində müsbət bir dəyişikliyə səbəb olarsa, məhsul alternativlərini təyin etməyə başlayır. Təyin etdiyi alternativləri dəyərləndirərək, satın almaq istədiyi məhsulu təyin edir və satın alma mərhələsini reallaşdırmaq üçün hərəkətə keçir. Bununla birlikdə, mağazanın fiziki şərtləri, məhsulun olmaması və satıcıya olan mənfi münasibət səbəbiylə satın alma zamanı təyin etdiyi məhsuldan fərqli bir məhsul ala bilər. Son addım olaraq aldığı məhsuldan ya razıdır, ya da razı deyil. (Aysel, Sevtap, Polat, 2007)

Satın alma qərarına təsir edən amillər 4 ümumi başlıq altında toplanır: mədəni, sosial, şəxsi və psixoloji. Şəxsi amillər

arasında yer alan "yaşam tərzi" anlayışı, istehlakçı davranışını başa düşmək baxımından da əhəmiyyətlidir. Şəxsi və psixoloji faktorlar - alıcılıq davranışını izah etməkdə, marka sadiqliyinin səbəblərini müəyyən etməkdə, istehlakçıların yeni məhsullara münasibətini öyrənməkdə, satın alma motivasiyasında demoqrafik dəyişənlərin qeyri -kafi olması nəticəsində son illərdə istehlakçı davranış araşdırmalarının əhəmiyyətli dəyişənlərinə çevrilmişdir. (Erdal, 2001)

Yaşam tərzi, bir insanın vaxt və pul xərcləməsində əhəmiyyətli bir faktordur. Fərdlərin yaşam tərzi keçmiş təcrübələrindən, demoqrafik xüsusiyyətlərindən, inanc və münasibətlərindən və şəxsiyyətlərindən təsirlənir. Eyni gəlir və təhsil səviyyəsinə malik olan və eyni mədəniyyətdə tərbiyə alan fərdlərin də fərqli yaşam tərzi var. Bu səbəbdən yaşam tərzi qrup xüsusiyyətlərini təyin etməyə kömək edir. Çünki oxşar yaşam tərzi qrupundakı fərdlərin münasibətləri, inancları, həyat tərzləri, həyat baxışları, ehtiyacları və istəkləri oxşardır. (Lin, 2003)

Həyat tərzi ideyası ilk dəfə Max Weber tərəfindən irəli sürülmüşdür. Weber araşdırmasında bu konsepsiyanı sosial qruplar arasındakı fərqlər və status olaraq təyin etdi. Həyat tərzi araşdırmalarında istifadə olunan beş ölçü metodu var. Bunlar: Fəaliyyətlər, Maraqlar və Fikirlər, Rokeach Dəyərlər Sistemi, Dəyərlər Siyahısı, Dəyərlər və Həyat tərzləri və Dəyərlər və Həyat tərzləri 2. (Kesiç ve Rajh, 2003)

VALS2 metodunun hazırlıq mərhələsində istehlakçı davranışını proqnozlaşdırmaq üçün 400 sual hazırlanmışdır. Bu sualların birinci hissəsi bazarın seqmentləşdirilməsi məqsədi ilə, ikinci hissəsi isə satınalma və media istifadəsinin ölçülməsi üçün hazırlanmışdır (Lin, 2003). Bu inkişaf etmiş miqyas sayəsində 8 həyat tərzi qrupu təyin edildi. VALS2 həyat tərzi qrupları iki faktora əsaslanaraq hazırlanmışdır. Bu amillər istehlakçının qaynaqları və şəxsi istiqamətidir (Hoyer və Maclnnis, 1997). Mənbələrə - gəlir, təhsil, özünə inam, sağlamlıq, satın alma həvəsi, zəka və enerjinin səviyyəsi daxildir (Witchel, 2002). Şəxsi oriyentasiya isə üç hissədən ibarətdir: prinsip, status və fəaliyyət harmoniyası. Birincisi, müvəffəqiyyət qazananlar və inanan insanlar həyat tərzi qruplarını əhatə edən və öz bilik və təcrübələrinə əsaslanaraq satın alma qərarları verən prinsiplərə uyğundur. İkinci hissə, müvəffəqiyyətli olan və qərar verərkən digər şəxsləri istinad və nümunə götürənlərdən ibarət statusa uyğundur. Üçüncüsü, təcrübəli və konstruktor qruplarından ibarət fəaliyyətin əlaqəli bölümüdür. Bu bölmədə olan istehlakçılar sosial fəaliyyətlərə önəm verirlər və alışlarında riskli davranırlar (Riche, 1989).

**İstehlakçı davranışları (əsasən dijital məkanda)**

Bu gün istehlakçılar bir məhsul və ya xidmət almağa qərar verməzdən əvvəl onlayn olaraq daha çox araşdırma aparırlar (Kim və Ko, 2012). Sosial media marketinqi, istehlakçıların maraqlandıqları markaya, məhsula və ya xidmətə daxil olmasına imkan verən bir çəkmə strategiyasıdır. Onlayn auditoriya qrupu hədəf qrupu olaraq istifadə olunur. Onlayn auditoriya bloglar, qarşılıqlı yazışmalar və sosial şəbəkələrdən ibarətdir. Müəssisələr, sosial medianı düzgün və davamlı şəkildə idarə etmək üçün sosial media marketinq proseslərinə diqqət yetirirlər. Müəssisələr sosial media marketinq prosesini dörd əsas mərhələdə saxlayır. Bunlar: dinləmək, birləşdirmək, ölçmək və optimallaşdırmaq.

Dinləmək müştərilərin məhsul və ya xidmətdən məmnunluğunu, marka sadiq-

liyini, məhsul inkişaf etdirməsini və yeni məhsul fikirlərini, rəqiblərin fəaliyyətini və bazar imkanlarının vəziyyətini ortaya qoyur. Bu da müəssisələrə müştərilərini daha dərindən anlamağa imkan verir (Dholakia və Bagozzi, 2001). Dinləyərkən, müştərilərin söhbətlərini keyfiyyət baxımından araşdırmağın üstünlüklərindən biri, bütün əlaqədar onlayn söhbətlərin səbəb -nəticə əlaqəsi quraraq öz kontekstlərində araşdırılmasıdır (Miranda və digərləri, 2016).

Bu gün istehlakçılar marka seçimlərini edərkən bir çox seçimlə qarşılaşırlar. Markalar arasında seçim edərkən, onlara ən çox fayda təmin edəcək markanı seçməyə çalışırlar. İstehlakçıların ehtiyaclarını, istək və gözləntilərini ödəməklə yaradılan məmnunluq səviyyəsi də markaya loyallığı artırır. Müəssisələr, sosial şəbəkələrdə markaları üçün yaratdıqları səhifələrdə müştəri loyallığını artırmağa yönəlmiş fəaliyyətlərdə çox diqqətli olmalıdırlar. Sosial mediadakı fəaliyyətlər istehlakçılar üçün sadiqlik yaratmaqda təsirlidir (Hacıefendioğlu, 2014). Müəssisələr, istehlakçıların şüuruna girərək qərar qəbul edərkən xatırlanmağı və emosional bağlar qurmağı hədəfləyir. Bu səbəbdən müəssisələr yeni metod və vasitələrdən istifadə edirlər.

**COVİD 19 qavrayışı**

Qlobal bir ictimai sağlamlıq problemi olan Covid-19 pandemiya prosesi, ölkələrin şəhər və bölgələrə görə gördüyü tədbirlər ilə yeni qaydalara əlavə olaraq bəzi məhdudiyyətlər çərçivəsində həyata keçirildi. Hər şeydən əvvəl, ölkələr beynəlxalq arenada "səyahət maneələri" olan müxtəlif ölkələrdən virusun yayılmasının qarşısını almaq üçün tədbirlər həyata keçirmişlər. Vəziyyət şəhərdəki karantinlər, festivalların, tədbirlərin, idman yarışlarının təxirə salınması, daxili səyahət məhdudiyyətləri, bütün ictimai yerlərdə (restoran, ticarət mərkəzləri, əyləncə yerləri) xidmətlərin müvəqqəti dayandırılması, məktəblərin və dini mərkəzlərin bağlanması ilə davam etdi. Həm ənənəvi (televiziya), həm də dijital əsaslı platformalarda (müxtəlif tətbiqlər vasitəsi ilə) uzaqdan təhsilə davam etmək, bank fəaliyyətinin elektron mühitdə davam etdirilməsini təşviq etmək, ictimai və bir çox özəl müəssisələrdə əvəzlənən iş sistemi, sosiallaşma ehtiyaclarının internetə əsaslanan bir şəkildə köçürülməsi - Covid-19 zamanı dünyanın bir çox ölkəsi tərəfindən həyata keçirilən oxşar tədbirlər sırasında idi. (Merve, 2020)

Covid-19 pandemiyası ilə əlaqədar onlayn xərclərin artması e-ticarətə və dijital reklam investisiyalarına da təsir etdi.

Müasir istehlak nəzəriyyələrinin yetərli olmadığı bu dövrdə fərdlər dəyişən alış davranışları və istehlak praktikaları ilə yeni bir dövrün siqnallarını verirlər. Yeməyə yönəlmiş tələblər, ehtiyac duyulduğundan daha çoxunu alaraq, saxlayaraq və satın alaraq təhlükəsiz hiss etmək və rahatlaşmaq kimi müxtəlif nəticələr yaratmışdır. Xüsusilə qida istehsalında "kənd məhsullarının" əhəmiyyətinin artdığı görülür. Epidemiya dövründə ölkələrin qapalı sərhədləri idxal və ixrac həcminə təsir etsə də, istehlakçının yerli ehtiyacının artmasına səbəb oldu. 2020-ci ilin aprel ayında Amerika, Kanada, İngiltərə, Fransa və Almaniyada istehlakçı davranışlarının dəyişməsi sahəsində 4.859 istehlakçının iştirakı ilə aparılan bir araşdırmada, Covid-19-dan sonra dörd fərqli istehlakçı profilinin ortaya çıxdığı bildirildi (Rogers & Cosgrove, 2020) ):

- Yığıma meyilli istehlakçılar (35%): Pandemiya zamanı ailələri üçün narahat olanlar və uzun müddət ərzində proses haqqında bədbin düşünənlər. Bu isteh-

lakçılar bazar sektorunda ən çox pul xərcləyənlərdir.

- Ehtiyatlı istehlakçılar (27%): Pandemiya prosesində ən çətin anları yaşayan və gələcəyə ən bədbin yanaşan istehlakçılar. Adətən 45 yaşdan yuxarı olan bu istehlakçılar, bütün kateqoriyalarda ən az xərc çəkənlərdir. İşlərini müvəqqəti və ya daimi tərk etməli olan və yalnız "lazım olanı", xüsusən də 33 faizini satın almağa meylli olan istehlakçıların təxminən dörddə biri, epidemiya dövründən sonra markaların özləri üçün daha az əhəmiyyətli olduğunu düşünür.
- Sabit istehlakçılar (26%): İstehlak vərdişlərində ciddi dəyişikliklər etməyən, pandemiya dövründən çox təsirlənməyən və ehtiyat yığanlardan narahat olan istehlakçılardır.
- Dəqiq istehlakçılar (11%): Bu, 18-44 yaş arası və pandemiyadan narahat olan istehlakçı profilidir. "Gələcəyə" nikbin baxan bu istehlakçıların yüzdə 42-si, bu prosesin öhdəsindən gələ biləcəyini söyləsə də, aldıqları məhsullar Covid-19-dan sonra əhəmiyyətli dərəcədə dəyişdi, 46 faizi isə markaların onlar üçün daha vacib olduğunu söylədi.

**Nəticə**

Rəqəmsal marketinqin yüksəlişdə olduğu Covid-19 dövrü reklam investisiyalarına da təsir etdi. Bir çox sektorların müvəqqəti olaraq xidmət göstərə bilməməsi reklam investisiyalarının azalmasına səbəb olmaqla yanaşı, yeni marketinq strategiyalarının da ortaya çıxmasına səbəb oldu. Fərdlərin evdə keçirdikləri vaxt bəzi sahələrdə reklam xərclərinin artmasına səbəb olub. İlin ilk dörd ayında xüsusilə turizm sektorunda (səyahət və yerləşdirmə) reklam xərclərində 17% -ə qədər əhəmiyyətli bir azalma yaşandı. Digər tərəfdən qlobal səviyyədə davam edən mübarizədə bəzi markaların reklam məzmunlarına prosesi dəstəkləyən mesajlar daxil etdiyi, bəzi markaların isə loqolarını yeniləyərək maarifləndirmək üçün hərəkətə keçdiyi görüldü.

Pandemiya dövründə ən çox diqqət çəkən məsələlərdən olan "sosial məsafə" mövzusunda loqo yeniləmələri edən şirkətlər arasında; Böyük avtomobil markaları (Volkswagen, Audi, Mercedes, Hyundai kimi), fast food sənayesinin mühüm lokomotivlərindən olan McDonalds və dünyanın məşhur içkilərindən biri olan Coca Cola markası kimi bir çox şirkət var. Brend kimliyinin mühüm bir hissəsi olan loqoların Covid-19 pandemiyası dövründə sürətlə yenilənərək istifadəsi, marka strategiyası olaraq markanın görünürlüyünü, dəyərini və tanınmasını artırmaqla yanaşı, diqqəti cəlb etmək məqsədi daşıyır. Sosial məsafəni vurğulayaraq markalar əslində istehlakçıların şüurunda müsbət təəssürat yaratmağa çalışırdılar. Buna görə də prosesi dəstəklədiklərini ifadə edən məzmunlar paylaşırdılar.

## ƏDƏBİYYAT SİYAHISI

1. Merve Gençyürek Erdoğan. Covid-19 Döneminde E-Ticaret ve Dijital Reklam Yatırımları. "Selçuk Üniversitesi İletişçim Fakültesi Akademik dergisi". 2020.
2. Hüseyin Koçarslan, Halime Kılıç. Dijital Pazarlamada Tüketici Algısı, İnternette Alışveriş Üzerine Bir Araştırma. "Avrupa bilim ve teknoloji dergisi". 2019
3. Ahmet Batur Hacıalioğlu, Sağlam Mehmet. Covid-19 pandemi sürecinde tüketici davranışları ve e-ticaretteki değişimler. "Medya ve Kültürek Çalışmalar dergisi". 2021.
4. Menekşe Cömert, Büşra Yeşilyurt. Covid-19 Salgınının Tüketici Davranışları

Üzerinde Neden Olduğu Değişikliklerin Yiyecek İçecek İşletmelerine Etkisi. Journal of Tourism and Gastronomy Studies. 2021.

5. Machado, Carolina Feliciana, Davim, J. Paulo. Theory and Application of Business and Management Principles. Springer. 2016.

6. Alev Koçak Alan, Ebru Tümer Kabadayi, Tuğbay Erişke. İletişimin Yeni Yüzü: Dijital Pazarlama Ve Sosyal Medya Pazarlamasi. 2018.

7. Aysel Erciş, Sevtap Ünal, Polat Can. Yaşam Tarzlarinin Satin Alma Karar Süreci Üzerindeki Rolü. Atatürk Üniversitesi İktisadi ve İdari Bilimler dergisi". 2010.

8. Jiang, L. (A.), Yang, Z. & Jun, M. Measuring consumer perceptions of online shopping convenience, Journal of Service Management, 2013

9. Forsythe, S., Liu, C., Shannon, D. & Gardner, L. C. Development of a scale to measure the perceived benefits and risks of online shopping, Journal of Interactive Marketing, 2006

10. Rogers K., Cosgrove A, How Covid-19 is changing consumer behavior?. 2020

**Шахин Шукур оглы АКБАРОВ PhD**
Азербайджанский Государственный Экономический Университет (UNEC),

**Шарафниса Фаик АЛЕКПЕРОВА**
Азербайджанский Государственный Экономический Университет (UNEC),
Международный магистерский и докторский центр,
sherefnise.elekberova@yahoo.com

# ЦИФРОВОЙ ПОТРЕБИТЕЛЬСКИЙ ПРОФИЛЬ И ОБРАЗ ЖИЗНИ: МОДЕРАТОРСКАЯ РОЛЬ ВОСПРИЯТИЯ COVID 19

## РЕЗЮМЕ

Пандемический процесс Covid-19, который за короткий период времени привел к изменениям во многих областях по всему миру, также повлиял на практику и поведение потребителей. В этом процессе страны приняли различные меры, как на национальном, так и на международном уровне, для снижения числа инфекций и уровня смертности, а также для контроля социальных последствий процесса пандемии. Хотя глобальная пандемия будет относительно под контролем в 2021 году, изменения, которые она привнесла в жизнь людей, остаются актуальными. Вместе с пандемией стремительно вырос интерес к цифровой сфере. Компании, которых нет в социальных сетях, стремительно переходят в цифровое поле. Эти изменения, естественно, повлияли на профиль цифрового потребителя. В то же время важно исследовать и анализировать поведение потребителей, чтобы эффективно проводить маркетинговые мероприятия и представлять товары и услуги потребителям так, как они того желают. Изменения условий жизни во время пандемии, в свою очередь, привели к кардинальным изменениям в поведении потребителей. Новые стратегии уже разрабатываются в соответствии с этими изменениями и внедряются в соответствии с рыночным спросом. Таким образом, изучение и анализ изменений, вызванных инновациями, принесенными пандемией, и продвижение вперед в соответствии со стратегиями дня важно для каждого предприятия, чтобы существовать на рынке в соответствии с требованиями дня.

**Ключевые слова:** *пандемия, профиль потребителя, социальные сети, маркетинговая стратегия.*

**Shahin Shukur oglu Akbarov PhD**
Azerbaijan State University of Economics (UNEC),

**Sharafnisa Faiq ALAKBAROVA**
Azerbaijan State University of Economics (UNEC),
International Master's and Doctoral Center,
sherefnise.elekberova@yahoo.com

# DIGITAL CONSUMER PROFILE AND LIFESTYLE: THE MODERATOR ROLE OF COVID 19 PERCEPTION

## SUMMARY

The Covid-19 pandemic process, which has led to changes in many areas around the world in a short period of time, has also affected consumer practices and consumer behavior. In this process, countries have taken various measures, both nationally and internationally, to reduce the number of infections and mortality rates, and to control the social impact of the pandemic process. Although the global pandemic will be relatively under control in 2021, the changes it has brought to people's lives remain relevant. Along with the pandemic, interest in the digital field has grown rapidly. Companies that do not exist on social media are rapidly moving to the digital field. These changes have naturally affected the digital consumer profile. At the same time, it is important to research and analyze consumer behavior in order to effectively conduct marketing activities and present products and services to consumers as they wish. Changes in the living conditions of the pandemic, in turn, have led to fundamental changes in the behavior of consumers. New strategies are already being developed in line with these changes and are being implemented in line with market demand. Thus, studying and analyzing the changes caused by the innovations brought by the pandemic and moving forward with the strategies of the day is important for every enterprise to exist in the market in accordance with the requirements of the day.

**Keywords:** *Pandemic, consumer profile, social media, marketing strategy*

**Daxil olub:** 21.04.2022

*Çap evinin direktoru:* Toğrul Abasov

*Üz qabığının tərtibatı:* Ariz Babayev

*Kitab "STAR"çap evində  səhifələnmiş və çap edilmişdir.*

Çapa imzalanıb: 10.06.2022
Format: 60x90 1/16.
Həcmi: 11.4 ç.v. Tiraj: 50, Sifariş № 111

Gəncə, Cavadxan küç., 43
+994 55 624 34 44, +994 22 266 06 63
+994 55 930 06 63
e-mail:6243444@mail.ru